Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

İkinci sessiya
Yaz

20-ci cild

3 fevral 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# II SESSİYASI İCLASININ

# PROTOKOLU № 21

*Milli Məclisin iclas salonu.*
*3 fevral 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 124 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
| İştirak edir | 120 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il yaz sessiyasının qanunvericilik işləri planı.
2. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının yaradılması haqqında.
3. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yaradılması haqqında.
4. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə.
5. "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası

və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

6. "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

7. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

8. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

9. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəl-

ləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Aydın Mirzəzadə, Siyavuş Novruzov, Şahin İsmayılov, Vüqar Bayramov, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Tural Gəncəliyev, Ceyhun Məmmədov, Hicran Hüseynova, Mahir Süleymanlı, Hikmət Məmmədov, Mircəlil Qasımlı, Vüqar İskəndərov, Mehriban Vəliyeva, Azər Kərimli

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 123 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il yaz sessiyasının qanunvericilik işləri planı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qüdrət Həsənquliyev, Azay Quliyev, Siyavuş Novruzov, Razi Nurullayev, Jalə Əliyeva, Musa Quliyev, Bəhruz Məhərrəmov, Zahid Oruc, Məlahət İbrahimqızı, Tahir Mirkişili, Aqil Abbasov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının yaradılması haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yaradılması haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 121 |

Nəticə: Qəbul edildi

**4. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 121 |

Nəticə: Qəbul edildi

**5. "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Nigar Məmmədova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 122 |

Nəticə: Qəbul edildi

**6. "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Nigar Arpadarai, Elman Nəsirov, Aydın Hüseynov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.17 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**7. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik**

**edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 15.23 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**8. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 15.28 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**9. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Rəşad Mahmudov, Göydəniz Qəhrəmanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.34 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.36 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**11. "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Günay Əfəndiyeva

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.38 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**12. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.40 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Siyavuş Novruzov, Rəşad Mahmudov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.51 dəq.) |
| Lehinə | 113 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**14. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nigar Məmmədova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.57 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**15. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.59 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Azay Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.06 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*3 fevral 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri! Hörmətli həmkarlar, Milli Məclisin 2025-ci il yaz sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

Hörmətli həmkarlar, yaz sessiyasının başlanması münasibəti ilə hamını təbrik edirəm və sessiya dövründə fəaliyyətimizin səmərəli olmasını arzulayıram.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
|---|---|
| İştirak edir | 120 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var.

Hörmətli həmkarlar, bildiyiniz kimi, yeddinci çağırış Milli Məclis ötən sessiyasını uğurla başa vurmuşdur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün lazımi tədbirlər görülmüşdür. Xatırladım ki, birinci sessiyanın yekunları barədə mən sizi ətraflı məlumatla tanış etmişdim.

Hörmətli həmkarlar, qeyd edim ki, Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyalar arasındakı dövrdə də davam etmişdir. Deputatlarımız Asiya Parlament Assambleyasının komitə iclasında, ATƏT-in Parlament Assambleyasının büro iclasında, Şimali Kipr Türk Respublikasında keçirilən simpoziumda iştirak etmiş, Belarus Respublikasında prezident seçkilərini müşahidə etmişlər.

Hörmətli həmkarlar, yanvar ayının 21-də və 22-də Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti İtaliya Respublikasında rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində İtaliya Deputatlar Palatasının sədri Lorenzo Fontana, İtaliya Senatının Avropa İttifaqı siyasəti komissiyasının, İtaliya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri ilə görüşlərimiz oldu. Ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrə dair fikir mübadiləsi aparıldı. Azərbaycanın güclü və sabit ölkə kimi inkişaf etməsindən məmnunluq ifadə edildi. İtaliyanın Azərbaycanın ən yaxın tərəfdaşlarından biri olduğu, ölkələrimiz arasında münasibətlərin dostluq və əməkdaşlıq ruhunda inkişaf etdiyi bildirildi.

Eyni zamanda, təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin böyük önəm daşıdığı bildirildi. Bu baxımdan Azərbaycanın, xüsusən Heydər Əliyev Fondunun İtaliyada həyata keçirdiyi mədəniyyət layihələrinin əhəmiyyəti vurğulandı. Görüşlərdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən regionda və daha geniş coğrafiyada mövcud olan vəziyyət barəsində də fikir mübadiləsi aparıldı.

Parlament nümayəndə heyəti Romada Azərbaycan səfirliyini və səfirliyin tabeliyində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzini də ziyarət etdi.

Biz orada Azərbaycan–İtaliya münasibətlərinin ən vacib məqamları, möhtərəm Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərləri, İtaliyada Azərbaycan barəsində çap olunmuş kitablar ilə bağlı fotosərgilər, Heydər Əliyev Fondu tərəfindən italyan dilində nəşr edilmiş Azərbaycan mədəniyyətinə və incəsənətinə dair kitablar ilə tanış olduq. Biz Milli Məclisdən bir sıra kitablar aparmışdıq, onları həmin mərkəzə hədiyyə kimi təqdim etdik.

Hesab edirəm, İtaliyaya rəsmi səfər uğurlu keçdi və bununla əlaqədar mən nümayəndə heyətinin üzvlərinə öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli həmkarlar, sessiyalar arasındakı dövrdə Milli Məclisdə bir beynəlxalq tədbir – Türk Dövlətləri Parlament Assambleyasının üzvü olan ölkələrin parlamentlərinin Səhiyyə komitələri sədrlərinin ikinci iclası keçirilmişdir. Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Şimali Kipr Türk Respublikası parlamentlərinin səhiyyə məsələləri komitələrinin sədrləri, üzvləri və TÜRKPA Katibliyinin nümayəndələri iştirak etmişlər.

Hörmətli həmkarlar, Milli Məclisdə bu dövrdə iki ictimai dinləmə keçirilmişdir. Belə ki, yanvarın 30-da Səhiyyə komitəsinin keçirdiyi dinləmə "İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları" mövzusuna həsr edilmişdi. Tədbirdə Milli Məclisin deputatları, Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, TƏBİB-in, ali təhsil müəssisələrinin, tibb müəssisələrinin rəhbərliyi və

digər şəxslər iştirak etmişlər. Elə həmin gün Gənclər və idman komitəsinin təşkilatçılığı ilə keçirilən dinləmədə Azərbaycan Gənclər Fondunun 2024-cü ildə fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilmişdir. Tədbirdə Milli Məclisin deputatları, Gənclər Fondunun şöbə müdirləri, gənclər təşkilatlarının rəhbərləri iştirak etmişlər.

Hörmətli deputatlar, yaz sessiyasının qanunvericilik işləri planı hazırlanıb və bildiyiniz kimi, bu gün müzakirə ediləcək. Bu sessiyada biz qanun layihələrini müzakirə və qəbul etməklə yanaşı, Konstitusiyanın tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatını dinləyəcəyik. Bundan əlavə, Milli Məclisin iclaslarından birində 2024-cü ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Sessiyada Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın), Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun və Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik hesabat, məlumat və məruzələrini dinləyəcəyik.

Hörmətli deputatlar, əminəm ki, Milli Məclisin yaz sessiyası yüksək səviyyədə keçəcək. Sessiyada sizin hamınıza uğurlar arzulayıram.

Hörmətli həmkarlar, iclasın gündəliyi sizə paylanılıb. Xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibətinizi bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 122 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 123
Nəticə: Qəbul edildi

Çox sağ olun, gündəlik qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, gündəlikdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın. 15 nəfərin adı qalsın. Bu gün 15 nəfər olsun. Xatırladım ki, 3 dəqiqədir, xahiş edirəm, hamı reqlamentə riayət etsin.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli sədarət, hörmətli deputat həmkarlarım, sizi Milli Məclisin yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm, fəaliyyətimizə uğurlar arzulayıram. Payız sessiyasından harada isə bir ay vaxt keçməsinə baxmayaraq, bu müddətdə deputatlarımız fəal işləyiblər. Hörmətli xanım sədr, Sizin rəhbərliyinizlə İtaliyaya diqqəti cəlb edən bir səfər təşkil olundu. İtaliya Azərbaycan üçün strateji müttəfiqlərdən birinə çevrilib. 44 günlük müharibədə, Azərbaycan üçün taleyüklü məsələlərdə biz İtaliyanı həmişə yanımızda görmüşük. Nüfuzlu, qədim bir Avropa dövlətinin Azərbaycan ilə həmrəy olması ilk növbədə Azərbaycanın apardığı düzgün xarici siyasətlə bağlıdır.

Eyni zamanda, bu müddət ərzində deputat həmkarlarım, o cümlədən mən də seçicilərimlə görüşlər keçirdik. 20 yanvar tədbirlərində iştirak etdik, üzərimizə düşən vəzifəni yerinə yetirməyə çalışdıq. Ümumiyyətlə, hər bir deputat seçki dairəsi ilə işləyərək həm parlamentin fəaliyyəti barədə məlumat verəcək, həm də görüşlərimizdə çoxsaylı seçicimizdən aldığımız tapşırıqları Milli Məclisin iclaslarında, ayrı-ayrı məsələlərin müzakirəsində səsləndirəcəyik.

Eyni zamanda, yanvarın 29-da Azərbaycanda növbəti

bələdiyyə seçkilərinin keçirilməsi dövlətçiliyimizin inkişafında çox əhəmiyyətli bir mərhələ oldu. Hər bir seçki bir dövlətçilik imtahanıdır. Azərbaycan bu imtahandan da uğurla keçdi. Bələdiyyə seçkiləri şəffaf, demokratik, rəqabətli keçdi. Bələdiyyələr yerləşdirildikdən sonra növbəti bələdiyyələrin qarşılarına qoyduqları böyük vəzifələri uğurla yerinə yetirəcəyinə inanırıq.

Bir daha hər kəsə sessiyanın başlanması münasibəti ilə uğurlar arzulayıram. İnanıram ki, bu sessiyada dövlətimiz üçün, cəmiyyətimiz üçün, hər bir vətəndaşımız üçün dəyərli olan qərarlar qəbul edəcəyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri, mən də sessiyanın başlanması münasibəti ilə hər bir deputatımızı təbrik edirəm və fəaliyyətində uğurlar arzulayıram. Bilirsiniz ki, ayın 29-da ölkəmizdə yerli özünüidarəetmə orqanlarına – bələdiyyələrə seçkilər keçirildi. Çox mühüm seçkilərdir. Bu bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası növbəti qələbəsini qazandı. Bu münasibətlə bütün seçicilərə öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk ki, növbəti dəfə Yeni Azərbaycan Partiyasına, onun irəli sürdüyü namizədlərə, sədrinə, onun siyasətinə dəstəklərini göstərdilər. Azərbaycanda azad, ədalətli, demokratik seçkilər keçirilməklə yeni bələdiyyələr formalaşdı. Onlar bundan sonra da öz fəaliyyətlərini davam elətdirəcəklər.

Digər bir məsələ. Həmkarlarımın da diqqətinə çatdırmaq istəyirəm. Təbii ki, cənab Prezident də yeddinci çağırış başlayanda parlamentdəki çıxışında müxtəlif məsələlərlə bağlı bizim qarşımızda vəzifələr qoydu. Dünyanın dəyişməsi, hadisələrin fərqli istiqamətdə baş verməsi,

ölkələrin bir-birinə qarşı münasibəti. Bu gün biz bunun şahidiyik ki, bəzi dövlətlər öz fundamental dəyərlərindən – azadlıqdan, insan hüquqlarından, demokratiyadan kənara çıxıb işğalçılıq siyasəti ilə məşğuldurlar, başqa-başqa dövlətlərin ərazilərinə iddia edirlər və dünyada bir presedent yaradırlar. O presedentin yaranması özü bir acı hadisədir. Mən hesab edirəm, bu, başqa dövlətlərə də tamamilə yol açır ki, istənilən kiçik bir dövlətin ərazisini get, işğal et, onun təbii sərvətlərindən istifadə et. O baxımdan da bu gün hamımız dövlətimizin, Prezidentimizin, ölkəmizin siyasətini müdafiə etməliyik, dövlət başçısının apardığı uğurlu siyasəti ictimaiyyətə çatdırmalıyıq. Eyni zamanda, hər birimiz müsəlləh bir əsgər kimi Prezidentimizin arxasında dayanmalıyıq. Bu məsələlərdə mən hamıya uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Şahin İsmayılov. Buyurun.

**Şahin İsmayılov**. Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar, Ulu Öndər Heydər Əliyevin 1997-ci ildə imzaladığı müvafiq sərəncamla hər il fevralın 2-si Azərbaycanda Gənclər Günü kimi qeyd olunur. Bu sərəncam Azərbaycanda gənclər hərəkatının formalaşmasına və güclənməsinə çox böyük bir töhfə vermişdir. Bu gün Azərbaycanda çox uğurlu gənclər siyasəti həyata keçirilir. Gənclərimiz istər təhsil, istər ictimai fəaliyyət, istərsə də beynəlxalq platformalarda Azərbaycan gəncliyinin simasını layiqincə və yetəri şəkildə uğurla təmsil edə bilirlər. Onlar üzərlərinə düşən tarixi missiya ilə Azərbaycanın daha da güclənməsi, daha da inkişaf etməsi və gələcəkdəki hədəflərinə çatması üçün kifayət qədər fəaliyyət göstərirlər.

Hər bir ölkədə gənclər siyasətinin uğurlu olmasını göstərən bir neçə məqam var. Cəmiyyət hər zaman gənc-

lərdən nələri isə gözləyir, nələri isə tələb edir. Eyni zamanda, gənclər də hər zaman ən yaxşıların axtarışındadırlar. Düşünürəm ki, Azərbaycanda gənclər özlərini reallaşdırmaq, inkişaf etdirmək, gələcək karyeralarına çatmaq və ən əsası vətənə xidmət etmək, dövləti daha da gücləndirmək üçün onlara yaradılmış əlverişli şəraitdən yetərincə yararlana bilirlər və dövlətdən razıdırlar.

Eyni zamanda, cəmiyyətimiz də gənclərdən gözləntilərini ala bilir. Möhtərəm cənab Prezident, müzəffər Ali Baş komandan İlham Əliyevin ətrafında birləşərək 44 günlük Vətən müharibəsində gözlərini qırpmadan şəhidlik zirvəsinə ucalan Azərbaycan gəncliyi həmin dövr üçün üzərinə düşən tarixi missiyanı yerinə yetirə bildi. Bundan sonra da gənclərin qarşısında kifayət qədər böyük hədəflər var. Gənclər əmin addımlarla Azərbaycanın daha da güclənməsinə, daha da inkişaf etməsinə töhfə verməyə hazırdırlar, onlar möhtərəm Prezident cənab İlham Əliyevin ətrafında daha da sıx birləşərək bu missiyanın layiqincə yerinə yetirilməsi üçün var gücləri ilə çalışırlar. Mən bir daha fürsətdən istifadə edib Azərbaycan gənclərini 2 fevral – Gənclər Günü münasibəti ilə təbrik edirəm və gələcək fəaliyyətlərində uğurlar arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, 2025-ci il Azərbaycan tarixində xüsusi illərdən biri kimi yadda qalacaq. Bir tərəfdən, 2025-ci ildə Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmanın intensiv şəkildə həyata keçirilməsi, bərpa və yenidənqurma işlərinin dərinləşməsi gözlənilir. 2025-ci ildə Ağdam şəhəri daxil olmaqla, Qarabağ və Şərqi Zəngəzurda yeni yaşayış məntəqələrində məskunlaşmanın

həyata keçirilməsi nəzərdə tutulur. İşğaldan azad olunmuş ərazilərimizin bərpasına dövlət büdcəsindən 4 milyard manat vəsait ayrılacaq. Eyni zamanda, müdafiə qabiliyyətimizin güclənməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası şəraitində 2025-ci il həmçinin Azərbaycanda 5-ci sosial paketin icrası ilə yadda qalacaq. Artıq cənab Prezident tərəfindən 5-ci sosial paketin icrası ilə bağlı sərəncamlar imzalanıb, əməkhaqqı və pensiyalardakı artımlar reallaşır. Bu sosial paket yalnız pensiya və əməkhaqqı artımlarını deyil, eyni zamanda, sosial müavinət və təqaüdlərdə artımları özündə ehtiva edəcək.

Çox təəssüf ki, bir sıra marjinal siyasi qruplar Azərbaycanda həyata keçirilən işlərə kölgə salmaqla yanaşı, həm də sosial paketə və sosial islahatlara kölgə salmağa çalışırlar. Bu sosial paket 3 milyondan artıq vətəndaşımızı əhatə edəcək. 5-ci sosial paketin reallaşması üçün əlavə olaraq 1,5 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. 2025-ci ilin dövlət büdcəsindən sosial istiqamətə ayrılan vəsaitin həcmi 16,9 milyard manat olacaq ki, bu da ümumi xərclərin 41 faizindən çoxdur. Bu, əslində, ondan xəbər verir ki, 2018-ci ildən sonra minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfə artım qeydə alınıb. Məhz həmin müddətdə sosial müavinətlərdə və təqaüdlərdə 5 dəfədən çox artım qeydə alınıb ki, bu da, əslində, məhz sosial paketin dərinləşməsi və bu istiqamətdə ayrılan vəsaitlərin həcminin artması anlamına gəlir. Bir tərəfdən, Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması həyata keçirilir. Amma bütün bunların fonunda biz sosial paketə, sosial istiqamətə daha çox vəsaitin ayrılmasını müşahidə edirik. “Bu ölkənin ən dəyərli sərvəti onun vətəndaşıdır” deyən cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasətin ana xəttinin məhz

vətəndaşlarımızın rifah halının daha da yüksəlməsi olduğu bir daha öz təsdiqini tapır. Bu aydan etibarən minimum pensiyada 14,3 faiz artım qeydə alındı. Bu, bütövlükdə, əmək pensiyalarının indeksləşdirilməsidir, 1 milyon 100 min vətəndaşımızı əhatə edəcək. Bu isə ondan xəbər verir ki, 2025-ci il məhz cənab Prezidentin rəhbərliyi ilə sosial sahədə yeni addımların reallaşması ilə yadda qalacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, geosiyasi proseslərin gedişatı göstərməkdədir ki, cənab İlham Əliyevin suverenliyimizin tam bərqərar olmasına qədərki ümummilli mübarizəsi nə qədər konseptual, nə qədər uzaqgörən və əhatəli olub. Müşahidə etməkdəyik ki, bu gün xeyli sayda dövlət, o cümlədən keçmiş sovet məkanında bir sıra subyektlər tam müstəqilliyə və suverenliyin bərpasına qədərki yolda Azərbaycan Prezidentinin illər əvvəl əldə etdiyi nəticələrə nail olmaq üçün hələ indi mücadiləyə start verib.

Aydındır ki, Prezident İlham Əliyevin mübarizəsi heç kimin gözləmədiyi çox mürəkkəb dövrlərdən keçib. Məsələn, illər əvvəl qonşu Gürcüstan qapılarını imperializmin missionerlərinə açarkən Azərbaycan rəhbəri Qərbin də, Şərqin də, Şimalın da, Cənubun da ölkəmizdə möhkəmlətmək istədiyi təsir rıçaqlarını tam zərərsizləşdirməyə nail oldu. Nəticədə Gürcüstan, Ukrayna kimi dövlətlərin qoynunda böyüyən şişirdilmiş "vətəndaş cəmiyyəti" institutları Qərb agenturası qismində bu dövlət və xalqlar üzərində, onların iradələri üzərində kvazinəzarət uğrunda mübarizəyə başlayarkən Azərbaycan öz sabit inkişaf yoluna qədəm qoyub.

Avropaya vizasız gedib-gəlmək idealları ilə yaşayan-

ların əksinə, Azərbaycan potensialını sonrakı dövrdə müstəqillik və suverenliyimizin qarantına çevriləcək layihələrə yönəltdi. İllər sonra bir vaxtlar vizasız Avropa idealları ilə öyünənlər indi artıq başa düşməyə başlayıblar ki, əslində, müstəqilliklərini 60 avroluq viza rüsumuna qurban veriblər. Nəticədə, bir çox coğrafiyalarda hələ də işğal və təcavüz, o cümlədən separatizm və münaqişələrin çiçəkləndiyi bir şəraitdə Azərbaycan cənab İlham Əliyevin zamanında verdiyi doğru yön sayəsində bu problemləri illər əvvəl arxada qoya bilib. Bir vaxtlar cənab İlham Əliyevin enerji və nəqliyyat layihələrinə qarşı çıxanlar artıq həmin layihələrin faktiki benefisiarlarına çevriliblər və ən azı elə bu fakt Azərbaycanın regionda əməkdaşlığın və təhlükəsizliyin təminatçısı funksiyasını üstləndiyini göstərir.

Təbii ki, insan haqları və demokratiya anlayışlarına bürünüb regiona burnunu soxmaq istəyənlər üçün bu, əlverişli konfiqurasiya deyil. AŞPA-nın Azərbaycanın ardınca Gürcüstanla da münasibətlərini qoparması göstərir ki, Qərb üçün girib diktə edə bilmədiyi bütün mətbəxlər çirklidir. Qərbin marionetinə çevrilməyən bütün liderlər “avtoritar”, ölkələr isə “qeyri-demokratikdir”.

Azərbaycan cəmiyyəti buna açıq gözlə baxmalıdır və son bir il ərzində baş tutmuş Prezident, parlament və bələdiyyə seçkiləri də bir daha göstərir ki, xalqımız bu reallığın fərqindədir. Bəli, biz də fərqindəyik, amma bütövlükdə, beynəlxalq ictimaiyyət fərqində olmalıdır ki, Fransanın müstəmləkələrində yüz minlərcə insanı soyqırıma məruz qoymaqda davam etməsinə göz yuman AŞPA, Avropa Parlamenti kimi təsisatların, qlobal insan haqları təşkilatlarının Azərbaycanda siyasi məhbus ovuna çıxması, səviyyəsiz, kimə işlədiyini özü də dərk etməyən

kuklaları qəhrəman elan etməsi insan haqqını qorumaq deyil, insan haqqına girməkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov.** Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli xanım sədr, Siz başda olmaqla bütün deputatlarımızı yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. 2024-cü ilin payız sessiyası parlament üçün çox uğurlu oldu. İnanırıq ki, bu baza əsasında 2025-ci ildə də bizim qanunvericilik orqanının fəaliyyəti yüksək səviyyədə olacaq. Buna tam əminik.

Bugünkü çıxışımda bir məsələyə diqqəti cəlb etmək istəyirəm. 2024-cü il Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması imkanları baxımından seçilir. 17 bəndlik sülh müqaviləsinin 15 bəndi üzrə razılaşma əldə edilmişdir. Amma Azərbaycan dövlətinin, ali siyasi rəhbərliyinin prinsipial bir mövqeyi var: bizim müdafiə etdiyimiz əsas maddələrdən biri o idi ki, heç bir halda Ermənistan–Azərbaycan sərhədinin Ermənistan hissəsinə üçüncü tərəfin gəlməsinə icazə vermək olmaz. Yəni üçüncü tərəf iştirak etməməlidir. Daha dəqiq desək, söhbət Avropa İttifaqının mülki missiyasından gedir. Amma biz nəyin şahidi olduq? Nəinki Ermənistan sülh yolunda addım atmır, əksinə, Brüsseldə Avropa İttifaqı ölkələrinin səfirlərinin toplantısında Avropa İttifaqının mülki missiyasının müddəti ta 2027-ci ilin fevral ayının 19-na qədər uzadıldı. 165 nəfər Avropa İttifaqından, 44 nəfər isə Ermənistandan nümayəndə müşahidəçi olmaqla.

Heç kəsə sirr deyil ki, bu, heç bir halda mülki missiya deyil. Bu, bir casus şəbəkəsidir. Oradakılar diplomat deyil, kəşfiyyatçılardır. Nəyə görə o, Avropa İttifaqının mülki missiyası adlandırılmalıdır? Mən sual verirəm: Avropa

İttifaqının 27 dövləti var. Kanada nə vaxtdan Avropa İttifaqı ölkəsi olub? Kanada NATO ölkəsidir. Onda gərək biz deyək ki, Avropa İttifaqı və NATO-nun missiyasından söhbət gedir. Bu gün onun adını "mülki" qoyublar, artıq o, mülki hərbidir. Perspektivdə yəqin ki, o, hərbi mülki olacaq. Ümumiyyətlə, onun hərbi missiyaya çevrilməsi heç bir halda istisna deyil. Belə çıxır ki, Ermənistan sülhdən danışıb sülh müqaviləsinin imzalanmasını ən azı 2027-ci il fevralın 19-na qədər yubatmaq istəyir. Yəni buna başqa ad vermək olmaz. Həmçinin də Ermənistanın hakimiyyətdən gedən Bayden Administrasiyası ilə tələm-tələsik bir tərəfdaşlıq sənədi imzalaması da göstərir ki, hələ Amerika Birləşmiş Ştatlarından da məhdud hərbi texniki kontingenti Ermənistan–İran və Ermənistan–Türkiyə sərhədinə gətirmək istəyirlər. Bu reallıqda hesab edirəm ki, sülh müqaviləsinin imzalanması qəliz...

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də fürsətdən istifadə edib sessiyanın başlanması münasibəti ilə hamını təbrik edirəm. Hörmətli xanım sədrin qeyd etdiyi kimi, sessiyalararası fasilədə Milli Məclis öz aktiv fəaliyyətini davam etdirmişdir. Beynəlxalq səfərlər, ölkə daxilində tədbirlərdə, elmi, beynəlxalq konfranslarda iştirak. Mən Sahibə xanımın tapşırığı ilə keçirilən elmi konfranslarda və intellektual platformalarda deputatların iştirakını qeyd etmək istəyirəm. Məsələn, Bakı Təşəbbüs Qrupu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi kimi bizim intellektual platformalarda deputatların iştirak etməsi, beynəlxalq geosiyasi məsələlərin ətrafı müzakirələrində fəal çıxışlar etməsi çox təqdirəlayiqdir. Bu, eyni zamanda, parlament diplomatiyası kontekstində də çox yaxşı görünür.

Mən həmçinin son günlər Azərbaycanda keçirilmiş Fransa neokolonializmi və Ermənistan–Azərbaycan münaqişəsində Fransanın rolu kimi önəmli tədbirləri qeyd etmək istəyirəm. Biz həmkarlarımızla birgə bu tədbirlərdə iştirak etdik. Bütün bunlar onu göstərir ki, Azərbaycan yeni bir reallıq yaratmışdır. Biz dünyanın geosiyasi proseslərində gündəliyin formalaşmasına fəal töhfə veririk, iştirak edirik. Görünən odur ki, 2025-ci ildə, təəssüflər olsun, Azərbaycana qarşı hibrid hücumlar, geosiyasi təzyiqlər davam edəcək. Biz bunu adi Avropa institutlarının ölkəmizə qarşı siyasətindən görürük. Avropa Parlamenti öz çirkin kampaniyasını davam elətdirir, Avropa Şurası Parlament Assambleyası yenə də öz ampluasındadır.

Bir neçə gün bundan öncə biz şahidi olduq ki, AŞPA-dakı Gürcüstan nümayəndə heyəti onunla diktə yolu ilə danışılmasına icazə verməyəcəyini bəyan etdi və AŞPA-nı tərk etdi. Çox önəmli siyasi bir hadisə idi. Artıq AŞPA-nın Cənubi Qafqazda təzyiq rıçaqlarının və diktə yolu ilə danışmasının qarşısı alınmış oldu. Biz çoxdan görürdük ki, dünən axşam, bu gün də Tbilisidə Avropa institutları tərəfindən, beynəlxalq, qlobal Soros dairələri tərəfindən dəstək alan qruplar öz aksiyalarını davam elətdirirlər.

Yaxşı xəbərlər də var. Məsələn, USAID kimi Soros dairələrinə bağlı olan təşkilat artıq öz fəaliyyətini dayandırmışdır. Bu da dünya erməni diasporuna, dünya erməniçiliyinə böyük zərbədir. Senator Menendesin və onun erməni əsilli həyat yoldaşının aqibətinin nə olduğunu gördük. Rüşvətxorluq, korrupsiya artıq onların ABŞ-da fəaliyyətlərini həbs cəzası ilə yekunlaşdırdı. Bütün bunlar göstərdi ki, bizim yolumuz haqq yoludur və işimiz də haqq işidir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Hörmətli xanım sədr, mən də öncə Sizi və həmkarlarımı yaz sessiyasının başlanması və İtaliya Respublikasına uğurlu səfər münasibəti ilə təbrik edirəm.

2 fevral hər il ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. Bu əlamətdar tarixi gün gənclərə həmişə böyük qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən 2 fevral ölkəmizdə Azərbaycan Gəncləri Günü elan edildi.

Azərbaycan gənclərinin vətəninə sədaqət ruhunda tərbiyə edilməsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının ən mühüm istiqamətlərindən biridir. O vurğulayırdı: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir".

Ulu Öndərin gənclərə etimadı bu gün artıq öz təsdiqini tapıb. Bu gün ölkəmizdə gənclər siyasəti yeni mərhələyə daxil olub. Ulu Öndərin gənclər siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyev gənclərə xüsusi qayğı göstərir. Qətiyyətlə deyə bilərik ki, ölkə gəncləri Prezident İlham Əliyevin uğurlu daxili və xarici kursunu dəstəkləyir, bu siyasətin icrasında daim onun yanındadırlar.

İkinci Qarabağ müharibəsi zamanı ön cəbhədə döyüşən vətən qəhrəmanlarının əksəriyyəti gənclər idi. Bu onu göstərir ki, gənclərimiz xalqına, vətəninə daim bağlıdır. Gənclərimiz heç nədən qorxmadan ağır döyüşlərdə iştirak etdilər və bu sınaqdan üzüağ çıxaraq cənab Prezidentin dəmir yumruğu ətrafında sıx birləşdilər.

Bu gün gənclərimiz təhsil sahəsində də uğurlara imza atırlar. Bu məsələ hər birimizi sevindirir və qürurlandırır. Heç şübhəsiz ki, hər bir ölkənin gələcəyi onun gənclərinin təhsili və inkişafı ilə bilavasitə bağlıdır. Bütün dövrlərdə gəncliyin mənəvi və fiziki sağlamlığı cəmiyyət üçün xüsusi önəm daşıyır. Bu gün dünyanın hər yerində olduğu kimi, Azərbaycan gənci də xarici qüvvələrin əsas hədəf kütləsidir. Hər bir gənc dövlətin qayğısını yüksək qiymətləndirməli, yaradılan fürsət və imkanların dəyərini bilməli, özünü zərərli təsir və ideologiyalardan qorumalı, ailəsi, vətəni və cəmiyyət üçün faydalı olmağa çalışmalıdır. Vətənə bağlılıq, vətənə sevgi, vətən maraqlarını, dövlət maraqlarını üstün tutmaq hər birimizin, o cümlədən gənclərin borcudur. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hicran Hüseynova. Hicran xanım, buyurun.

**Hicran Hüseynova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Mən də təbriklərə qoşularaq yaz sessiyasının başlanması ilə bağlı, Sizi, hörmətli sədr və bütün həmkarlarımı təbrik edirəm. Xanım sədr, xüsusilə demək istəyirəm ki, Sizin beynəlxalq səviyyədə apardığınız parlament diplomatiyanızı çox bəyənərək dəstəkləyirik, Sizə çox uğurlar arzulayırıq. Bu, doğrudan da, çox vacib bir məsələdir.

Bu gün Azərbaycanın inkişafı hamımızı sevindirir. Azərbaycan ədalətli mübarizə apararaq uzunmüddətli işğala son qoydu, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bütün təzyiqlərə baxmayaraq, ölkəmizin beynəlxalq nüfuzu artır. Dünyanın yeni nizamı qurulur və mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycanın rolu və iştirakı artır. Artıq regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yaranır. Ölkəmizin beynəlxalq

aləmdə mövqeləri daha da möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Əldə olunan uğurlarımızda gənclərimizin özünəməxsus rolu vardır. Mən həmkarlarımızın sözlərinə qoşularaq demək istəyirəm ki, biz onlarla fəxr edirik. Gənclərimiz savadlıdır, vətənpərvərdir, milli ruhda yetişirlər və gənclərimizin inkişafı üçün münbit şərait var. Cənab Prezident və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım gənclərimizə xüsusi diqqət və qayğı göstərirlər.

Hörmətli sədr, Sizin təşəbbüsünüz ilə gənc ailələrin, eləcə də gənclərin problemləri, onları düşündürən məsələlərlə bağlı parlamentdə ictimai dinləmələr keçirilir. Bunlar hamısı çox vacib olan məsələlərdir.

Azərbaycana qarşı böhtan kampaniyası aparan bəzi dövlətlər, beynəlxalq təşkilatlar, siyasi dairələr gənclərimizə təsir göstərməyə çalışırlar. Onları dövlətimizə, dövlətçiliyimizə, milli birliyimizə, ölkə rəhbərliyinə qarşı aparılan çirkli oyunlara cəlb edirlər. Ona görə də biz çox diqqətli olmalı, gənclərimizi kənar müdaxilələrdən, yad təsirlərdən qorumalıyıq.

Son olaraq Sumqayıt şəhərinin 2025-ci il üçün Gənclər paytaxtı seçilməsini xüsusi olaraq vurğulamaq istəyirəm. Bu müsbət hadisə mənə doğma və əziz olan, deputat seçildiyim Sumqayıt şəhəri üçün çox böyük əhəmiyyət kəsb edir. Burada qeyd olundu ki, 1997-ci ildən etibarən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bölgələrimizdə Gənclər Günü qeyd olunur və gənclər paytaxtı seçilməyə davam edir. Bu ənənə cənab Prezident İlham Əliyevin uğurlu...

**Sədrlik edən.** Sağ olun. Mahir Süleymanlı. Buyurun.

**Mahir Süleymanlı.** Çox hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Cəmiyyətimizin aparıcı qüvvəsi olan gənclərin inkişafı və onların dövlətimiz üçün əhəmiyyətini vurğulayaraq qeyd etmək istəyirəm ki, gənclər hər bir ölkənin gələcəyini müəyyən edən əsas sütunlardan biridir. Onların vətənpərvərliyi, fəallığı, savadı, təşəbbüskarlığı və innovativ düşüncəsi ölkəmizin sosial, iqtisadi və mədəni inkişafında çox mühüm rol oynayır.

Azərbaycan gənclərinə göstərilən yüksək dəyərin ən parlaq nümunələrindən biri də MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə məhz Azərbaycanda qeyd olunan Gənclər Günüdür. Bu əlamətdar gün Ümummilli Lider Heydər Əliyevin 1997-ci il 2 fevral tarixli Fərmanı ilə təsis edilmişdir.

Ulu Öndər hər zaman Azərbaycan gəncliyini dövlətin ən böyük sərvəti kimi qiymətləndirib və onları müasir, intellektual və vətənpərvər nəsil kimi görmək istəyib. Onun "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməlidir" fikri bu siyasətin mühüm prinsiplərindən olub.

Bu gün cənab Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında dövlətin gənclər siyasəti uğurla həyata keçirilir. Bunun nəticəsi olaraq "Azərbaycan gəncliyi 2011–2015-ci illərdə", "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" dövlət proqramları, "2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", həmçinin "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" ardıcıl və uğurla icra olunur.

Eyni zamanda, Birinci vitse-prezidentimiz çox hörmətli Mehriban xanım Əliyevanın gənclərin təhsil, mədəniyyət və idman sahəsində inkişafına verdiyi dəyərli töhfələr xüsusilə qeyd edilməlidir. Ölkədə innovasiya və startap ekosisteminin sürətlə genişlənməsi, gənclərin elm və texnologiya sahəsində irəliləməsi, beynəlxalq arenada təmsilçiliyi, nüfuzlu ali təhsil müəssisələrində təhsil almaları, mədəni irsimizin dünyada tanıdılması üçün geniş imkanların yaradılması bu sahədə atılan mühüm addımlardır. Bu addımlar gənclərin potensialını reallaşdırmağa, onları qlobal səviyyədə uğurlu nümayəndələrə çevirməyə imkan verir. Sosial layihələr vasitəsi ilə aztəminatlı ailələrdən olan istedadlı gənclərə dəstək göstərilməsi və idmana marağın yüksəldilməsi bu inkişaf prosesini daha da gücləndirir.

Həmçinin qeyd etmək istərdim ki, hörmətli sədr Sahibə xanım Qafarovanın rəhbərliyi ilə parlamentin Gənclər və idman komitəsi də üzərinə düşən fəaliyyəti uğurla davam elətdirir. Xanım sədrin rəhbərliyi ilə gənclərin hüquqlarının müdafiəsi sahəsində mühüm qanun layihələri qəbul edilir və reallaşdırılır. Yaradılan bu imkanlar dövlətimizin gənclər siyasətinə olan dəstəyinin bariz nümunəsidir. Biz də əminik ki, gənclərimiz bu siyasəti uğurla həyata keçirəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk yaz sessiyası münasibəti ilə hamınızı təbrik edirəm.

Yanvar ayının 7-də Azərbaycan Prezidenti yerli mediaya müsahibə verdi və əslində, bu müsahibəsində Azərbaycan ictimaiyyətinə 2024-cü ilin bir növ hesabatını

təqdim etmiş oldu. Bəlli oldu ki, 2024-cü il uğur ili kimi yadda qalıbdır. Prezident seçkilərinin, parlament seçkilərinin, COP29 tədbirinin keçirilməsi, Azərbaycanın D8-ə üzv olması – bütün bu məsələlər Azərbaycan dövlətçilik tarixinin, demokratiya tarixinin xüsusi notları kimi Azərbaycan Prezidentinin öz müsahibəsində əksini tapdı.

İkinci məsələ. Azərbaycan Prezidenti bu çıxışında, həm də 2025-ci ildəki Azərbaycan ictimai institutlarının, Azərbaycan icra strukturlarının fəaliyyəti üçün yeni prioritetlər müəyyənləşdirdi. Mən düşünürəm ki, bu prioritetlərdən biri Azərbaycanın Yaxın Şərqdə xarici siyasəti ilə bağlı yeni ideyaların, yeni fəaliyyət istiqamətlərinin müəyyənləşməsi idi. Azərbaycan Prezidenti qeyd etdi ki, biz qardaş Türkiyə ilə birlikdə Suriyanın bərpası problemində yaxından iştirak etməliyik. Mən düşünürəm ki, Azərbaycanın maarif institutları, ictimai institutları, qeyri-hökumət təşkilatları bu məsələyə daim xüsusi diqqət göstərməlidirlər. Çünki Suriya bizim üçün uzaq bir coğrafiya deyil. Azərbaycan Prezidentinin bu siyasətinin tarixi və mənəvi komponentləri çox dərindir. Əgər XIV əsrdə Nəsimi Hələbə gedirdisə, deməli, Nəsimini ora aparan səbəb Hələbin Azərbaycan etnomədəni coğrafiyasının, Azərbaycanın dil coğrafiyasının davamı olması idi. Bu gün də Nəsiminin məzarı hələ də Hələbdədirsə, demək, o məzarın olduğu yer bizim üçün mənəvi vətəndir. Ona görə də mən düşünürəm ki, Suriya, Yaxın Şərq və Azərbaycan münasibətlərinin yeni perspektivləri yaranıbdır.

Digər məsələ. Azərbaycan Prezidenti öz çıxışında Qərbi Azərbaycan mövzusuna toxundu. Dövlət başçısı Qərbi Azərbaycan İcmasının Ermənistanın Baş nazirinə müraciəti ilə bağlı qeyd etdi ki, Ermənistanın Baş naziri Qərbi azərbaycanlıları qəbul etməlidir, onların problem-

lərini dinləməlidir və bu məsələyə münasibət bildirməlidir. Doğrudan da, Azərbaycan Prezidentinin müsahibəsindən dərhal sonra Ermənistanın xarici işlər naziri də, Baş naziri də bu məsələyə münasibət bildirdilər, ancaq təhrif olunmuş formada. Guya ki, Ermənistan Qərbi azərbaycanlılara kompensasiya veribdir. Bu, həm rəqəmlərin, həm də həqiqətin təhrifidir.

Xanım sədr, mənim vaxtım qurtarır, imkan varsa, mənə 1 dəqiqə əlavə vaxt verərsiniz, fikrimi davam elətdirərəm.

**Sədrlik edən.** Vaxt verin.

**Hikmət Məmmədov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Birincisi, Ararat Mirzoyanın dediyi kimi, 170 min deyil, 300 min azərbaycanlı Qərbi Azərbaycandan etnik təmizləmə siyasətinə məruz qalıb. İkincisi, verilən kompensasiya azərbaycanlıların evləri üçün deyildi. Çünki 1988-ci ildə dekabr ayının 7-də Spitak zəlzələsi baş verdi. Yəni Hamamlı rayonunda zəlzələ oldu. 1988-ci ildə müstəqil Ermənistan respublikası yox idi, hələ SSRİ var idi. SSRİ büdcəsindən zəlzələnin verdiyi zərəri aradan götürmək üçün, öz evlərini təmir etmək üçün orada yaşayan azərbaycanlılara, doğrudan da, müəyyən kompensasiya ödənildi. Amma ödənilən kompensasiya xəcləndikdən sonra, yəni zəlzələdən sonra həmin təmir olunmuş evlər yenidən ermənilər tərəfindən mənimsənildi və azərbaycanlıların mülkiyyət hüququ tapdalandı.

**Sədrlik edən.** Hikmət müəllim, vaxt çatmadı, ancaq istəsəniz, jurnalistlər oradadır, bəlkə daha da böyük açıqlama verə bilərsiniz. Təbii ki, vacib məsələ idi. Çox sağ olun. Mircəlil Qasımlı. Buyurun.

**Mircəlil Qasımlı**. Çox hörmətli xanım sədr, dəyərli millət vəkilləri və media nümayəndələri, icazənizlə, doğma Kəlbəcər və kəlbəcərlilər haqqında danışmaq istə-

yirəm. Kəlbəcər Azərbaycanın təkcə coğrafi baxımdan deyil, həm də mənəvi baxımdan ən önəmli bölgələrindən biridir. Bu torpaq tarixən Azərbaycanın dəyərli ziyalılarını və dövlətçilik sahəsində mühüm xidmətləri olan insanları yetişdirmişdir.

Məlum olduğu kimi, müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin qanı, qazilərimizin canı bahasına tarixi Zəfərimiz nəticəsində Kəlbəcər düşmən işğalından azad olundu. Bu gün isə dövlətimizin həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri sayəsində Kəlbəcər sürətlə yenidən qurulur. Eyni zamanda, cənab Prezidentin xüsusi nümayəndəsi tərəfindən Kəlbəcərdə aparılan işlər də yüksək qiymətə layiqdir.

Sonda isə mənə edilən müraciətlərdən birini diqqətinizə çatdırmaq istəyirəm. Birinci Qarabağ müharibəsi zamanı böyük şücaət göstərmiş, bizim haqq və həqiqət davamız uğrunda şəhid olmuş kəşfiyyatçı Kərimov Ülfət Ələkbər oğluna Milli Qəhrəman adı verilməsi ilə bağlı məsələyə baxılmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar İsgəndərov. Buyurun.

**Vüqar İskəndərov.** Hörmətli həmkarlar, mən də təbriklərə qoşularaq, hörmətli sədr, Siz başda olmaqla bütün həmkarlarımızı yaz sessiyasının başlanması münasibəti ilə ürəkdən təbrik edirəm.

Biz dünən 2 fevral – Gənclər Gününü qeyd etdik. Gənclər Günü Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan gənclərinə bir hədiyyəsidir. Təbii olaraq Ulu Öndərin prezidentliyi dövründə, 1994-cü il iyulun 26-da ilk təsis etdiyi nazirlik də Gənclər və İdman Nazirliyi oldu. Bu özlüyündə Ulu Öndərin Azərbaycan gəncliyinə verdiyi dəyər idi. Ulu Öndər uzaqgörənliyi ilə bilirdi ki, Azər-

baycanın gələcəyi gənclərin əlindədir və onların siyasi ideyaları, Azərbaycan məfkurəsi altında toplanmaları, bütün sahələrdə dövlətimizin gələcəyinin təmin edilməsində fəaliyyətlərinin təmin edilməsi böyük səmərə verdi. Sonradan gənclər forumlarının keçirilməsi cənab Prezidentimiz İlham Əliyev tərəfindən Azərbaycan gəncləri ilə bağlı bir neçə dövlət proqramının hazırlanması dediklərimizə bariz nümunədir.

Eyni anda, Azərbaycanda idman sahəsində də çox böyük işlər görüldü. Cənab İlham Əliyev nadir dövlət başçılarından biridir ki, paralel olaraq Milli Olimpiya Komitəsində də prezidentlik edir və bununla Azərbaycan idmanına, yenə də Azərbaycan gəncliyinə, onların sağlam həyat tərzində və milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsinə özünün başçılıq etdiyini, böyük diqqət göstərdiyini hər birimizə əyani sübut edir. Düşünürük ki, həm Azərbaycan gəncləri, həm də idmançıları onlara göstərilən bu etimadı uğurla doğruldurlar. Çünki idman da bir ölkənin siyasi konfiqurasiyasında çox vacib elementlərdən biridir, ölkənin tanıdılmasında, təbliğ edilməsində çox böyük önəm daşıyır. Nə qədər Azərbaycan var, bu bayram keçiriləcək, Azərbaycan gəncləri Ulu Öndər tərəfindən hədiyyə olunmuş bayramlarını hər il şərəflə qeyd edəcəklər və ölkəmizin hərtərəfli inkişafına öz önəmli töhfələrini verəcəklər. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mehriban Vəliyeva. Buyurun.

**Mehriban Vəliyeva**. Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Milli Məclisin yaz sessiyasının başlanması münasibəti ilə mən də, Sahibə xanım, Siz başda olmaqla bütün deputat həmkarlarımı təbrik edir, qanunvericilik fəaliyyətimizdə uğurlar arzulayıram. 2024-cü il ölkəmiz

üçün tarixi bir dövr oldu, ərazi bütövlüyünü bərpa etmiş, suverenliyini tam təmin etmiş bir ölkə olaraq müstəqil dövlətçilik ənənələrini daha da möhkəmlətdi. Yanvar ayında baş verən qlobal siyasi proseslər fonunda möhtərəm cənab Prezident İlham Əliyevin istər yerli telekanallara verdiyi müsahibə, istər 55-ci Davos İqtisadi Forumundakı çıxışı, istərsə də nəqliyyat-logistika sahəsi ilə bağlı müşavirədə verdiyi mesajlar bütün ölkəmizin strateji kursunu aydın şəkildə ortaya qoydu. Bu çıxışlarda bərpa olunan enerji, nəqliyyat-logistika sahələrində yeni dövrə uğurlu addım atdığımız bir daha vurğulandı. Biz müstəqil siyasət, milli maraqlara sadiqlik və davamlı inkişaf yolunda addımlayırıq.

Qlobal siyasi təlatüm dövründə dövlətlərin müstəqil siyasət aparması bəzi dairələri narahat edir. Xüsusilə AŞPA-nın qış sessiyasında ölkəmizə qərəzli yanaşması, demokratiya adı altında qeyri-demokratik şəkildə çıxışlar etməsi, qətnamə qəbul etməsi bizi təəccübləndirmir. Bu qurum insan haqlarından danışaraq konkret dövlətlərin suverenliyini hədəf almaqla obyektivliyini sual altına qoyur. AŞPA Fransa, İspaniya kimi Avropa dövlətlərində yaşanan problemləri müzakirə etmək əvəzinə, Azərbaycanı hədəf seçir.

Onlar eyni qərəzli münasibəti Gürcüstana da sərgilədilər. Gürcüstan nümayəndə heyəti çox doğru olaraq AŞPA-dakı fəaliyyətini dayandırmaq barədə qərar qəbul etdi. AŞPA-nın siyasətindəki ayrı-seçkilik, ölkələri kateqoriyalara bölmə təsisata inamsızlıq yaradır. Beynəlxalq institutların funksionallığının itdiyi, güclü və zəif dövlətlərin yerlərinin dəyişdiyi zamanda iqtisadi dövlətçiliyin önə çıxdığını, ölkələrin inkişafında lider amilini aydın görürük. Belə bir məqamda Azərbaycanın regionda və

dünyada artan mövqeyi çoxlarını narahat edir və təhdidlər səngimir. Biz bu cür ikili standartları 30 il ərzində dəfələrcə görmüşük. AŞPA və digər beynəlxalq qurumlar ədalətli yanaşma sərgiləmək istəyirsə, 30 il ərzində öz torpaqlarından didərgin düşmüş azərbaycanlıların, Ermənistandan deportasiya olunmuş soydaşlarımızın haqqını qorumaq istiqamətində addımlar atsınlar.

Yanvarın 30-da AŞPA-da ölkəmizə qarşı yan tədbirlərin keçirilməsi, erməni lobbisinin bəzi anti-Azərbaycan dairələri ilə böhtan kampaniyası aparması üçün şəraitin yaradılması bir daha təsdiq edir ki, bu qurum obyektivlik prinsipini itirib. Belə təsisatlara etirazımız da təbiidir. Biz demokratiya, insan haqları və digər sahələrdə açıq və ədalətli dialoqa hər zaman hazırıq. Qarşılıqlı sayğı, ədalətli yanaşma və bərabər hüquqlar anlayışı beynəlxalq münasibətdə bizim əsas prinsiplərimizdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış, Azər Kərimli. Azər müəllim, buyurun.

**Azər Kərimli**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Xanım sədr, mən də ilk növbədə Sizi və nümayəndə heyətinin üzvlərini uğurlu səfərlə bağlı təbrik etmək istəyirəm. Siz çox qısa məlumat verdiniz. Mən də bu səfər çərçivəsində bəzi məqamlara toxunmaq istərdim. İlk növbədə qeyd edim ki, Ulu Öndər Heydər Əliyevin 1997-ci ildə İtaliyaya ilk rəsmi səfərindən sonra ölkələrimiz arasında münasibətlər yeni mərhələyə qədəm qoydu. Möhtərəm cənab Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk gündən Azərbaycan–İtaliya münasibətlərinin inkişafı istiqamətində mühüm addımlar atıldı. Azərbaycan və İtaliya artıq strateji tərəfdaşlardır. Bütün sahələrdə – siyasi, humanitar, mədəniyyət, təhsil və digər

sahələrdə də İtaliya ilə gözəl münasibətlərimiz var. Hesab edirəm ki, parlamentlərarası əlaqələr də bu münasibətlər çərçivəsində ən mühüm hesab olunur.

Hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz səfər çərçivəsində Avropa İttifaqı siyasəti komissiyasının üzvləri ilə görüş keçirildi. Bu görüş çox fəal, işgüzar mühitdə, eyni zamanda, dostluq və əməkdaşlıq ruhunda baş tutdu. Görüş zamanı orada 10-dan çox komissiya üzvü Sizə suallar yönəltdi. Bu suallar həm İtaliya–Azərbaycan münasibətləri, həm də Azərbaycan–Ermənistan münasibətlərinin bugünkü durumu haqqında idi. Hətta bu gün məhkəmə prosesləri davam edən müharibə cinayətkarları ilə bağlı suallar da Sizə yönləndirildi. Sizin dolğun, tutarlı cavablarınız italiyalı senatorlarda obyektiv təəssürat və fikir yaratdı. Onlar bizim sonra keçirdiyimiz işgüzar görüşlərdə bu haqda öz fikirlərini nümayəndə heyətlərinin üzvlərinə çatdırdılar. Qeyd etmək istəyirəm ki, keçirdiyiniz bütün görüşlərdə İtaliyalı tərəfdaşlarımız Sizə 20 Yanvar faciəsinin 35-ci ildönümü və dekabrın 25-də baş vermiş təyyarə qəzası ilə bağlı baş sağlıqlarını çatdırırdılar.

Bu Sizin İtaliyaya ikinci rəsmi səfəriniz idi və hesab edirəm ki, bu səfər parlamentlər arasında və İtaliyanın parlament respublikası olduğunu nəzərə alaraq ölkələrimiz, dövlətlərimiz arasında münasibətlərin daha da inkişaf etməsində mühüm rol oynayacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, mən 15 nəfərə çıxış üçün söz verdim, çünki bu bizim birinci iclasımız idi. Bir sıra hadisələr olmuşdu, istəyirdim ki, onlara da münasibət bildirilsin.

Hörmətli həmkarlar, qeyd edim ki, bu gün biz 16

məsələni müzakirə etməliyik. Gündəliyin ilk 4 məsələsi Milli Məclisin qərar layihələridir. Hörmətli deputatlar, bildiyiniz kimi, hər sessiyanın əvvəlində parlamentin qanunvericilik işləri planı qəbul olunur və parlament öz fəaliyyətini həmin plan əsasında qurur. Bizim bugünkü gündəliyimizin 1-ci məsələsi məhz elə yaz sessiyasının qanunvericilik işləri planı haqqındadır. Plan sizə paylanıb. Onu da deyim ki, qanunvericilik işləri planı 6 bənddən ibarətdir. Görürəm ki, məsələ barəsində 8 nəfər çıxış etmək istəyir. Eşidirəm, kim isə 5 dəqiqə təklif edir. Etiraz etmirsinizsə, çıxışlar 5 dəqiqə olsun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, mən ilk növbədə Sizi İtaliyaya növbəti uğurlu səfər münasibəti ilə təbrik edirəm və daha böyük nailiyyətlər arzulayıram. Bu gün bizim iki həmkarımızın, Pərvin xanımın və Nurlan Həsənovun doğum günüdür, onları da təbrik edirəm. Sabah isə böyük sənətkarımız və dövlət xadimi Polad Bülbüloğlunun 80 illiyidir. Bu münasibətlə də onu təbrik edir və uğurlar arzulayıram.

Hörmətli sədr, hörmətli həmkarlar, biz Ali Baş Komandanın rəhbərliyi ilə Dağlıq Qarabağda möhtəşəm bir uğura imza atdıq, o qara yaranı kəsdik. Azərbaycan xalqının qüruru bərpa olundu, bizim ordumuz xalqımızın başını ucaltdı. Zaman keçdikcə bu qələbənin möhtəşəmliyi daha aydın görünməyə başlayır. Ona görə də biz hərbçilərimizin müraciətlərinə son dərəcə diqqətlə yanaşmalıyıq. Hörmətli sədr, Sizə də, mənə də, bizim komitənin sədri hörmətli Arzu müəllimə də xeyli sayda hərbçi müraciət edib ki, onlar silahlı qüvvələrin tərkib hissəsi olsalar da, – söhbət Dövlət Sərhəd Xidməti ilə Daxili Qoşunlarda hərbi

xidmət keçmiş şəxslərdən gedir, – bizim “Hərbi qulluqçuların statusu haqqında” Qanuna, “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”yə görə, onların 20 il xidmətdən sonra ev almaq hüququ olsa da, onlara mənzil verilmir, yalnız Azərbaycan Ordusunda hərbi xidmət keçən şəxslərə verilir.

Hörmətli sədr, Milli Məclisin qanunvericilik işləri planında Milli Məclis tərəfindən üç çox mühüm qanun layihəsi təqdim olunacaq. Bunlardan biri də Hərbi qulluqçuların statusu haqqında qanun layihəsidir. Mən hesab edirəm ki, bu qanun layihəsi hazırlanarkən “Silahlı qüvvələr haqqında” Qanuna, “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”yə də diqqət yetirilməlidir. Biz hərbçilərlə bağlı bütün problemləri aradan qaldırmaq üçün qanunlara dəyişiklik edilərkən hər hansı anlaşılmazlıqlar olmasın deyə, onlarla müqavilə imzalanmalıdır. Bu müqavilənin nümunəvi forması da həmin qanunlardan birinə – “Silahlı qüvvələr haqqında” Qanuna əlavə edilməlidir. Yəni hərbçi hərb peşəsini seçəndə bilməlidir ki, 20 il xidmətdən sonra ona mənzil veriləcək və ya həyatını itirsə, onun ailəsi hansı isə sığorta pulu, yaralananda nə qədər isə vəsait alacaq, bunun hansı üstünlükləri var, əməkhaqqı necə indeksləşdiriləcək və sair. Ona görə də mən bəribaşdan qeyd etmək istəyirəm ki, biz onlarla əmək müqaviləsinin bağlanması məsələsini qanunvericiliyə gətirsək, bütün məsələlər öz həllini tapar və heç bir problem olmaz. Mübahisə olacağı təqdirdə isə onların məhkəmələrə müraciət etmək hüququ yaranacaq.

Hörmətli sədr, təklif etdiyim ikinci məsələ ondan ibarətdir ki, Konstitusiyanın tərkib hissəsi olan “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 92-ci maddəsinə görə, normativ hüquqi aktların icrasına nəzarət və yoxlanılması normayaratma orqanları (vəzifəli şəxslər),

– burada söhbət həm də deputatlardan gedir, – və müvafiq normativ hüquqi aktlarla nəzərdə tutulmuş xüsusi orqanlar (şəxslər) tərəfindən həyata keçirilir, amma biz real həyatda görürük ki, faktiki surətdə bizim qanunların icrasına nəzarət mexanizmi yoxdur, ona görə də bununla əlaqədar ayrıca bir qanun qəbul olunmalıdır. Misal üçün, öz komitəmiz – Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi. Bizim Daxili Nizamnamənin 39-cu maddəsinə görə, ümumiyyətlə, millət vəkillərinə dövlət və kommersiya sirləri, yaxud qanunla qorunan başqa məxfi məlumatlar göndərilmir, verilmir. Belə olduğu halda, məsələn, bizim komitəmiz – biz büdcə vəsaitlərinin xərclənməsinə necə nəzarət edə bilərik? Başqa inkişaf etmiş ölkələrdə silah alınması ilə, silah satışı ilə, müdafiə və təhlükəsizlik xərclərinin necə istifadə olunması ilə bağlı müvafiq komitələrdə ciddi müzakirələr gedir, bunlar onların razılığı ilə həyata keçirilir. Ona görə hesab edirəm ki, dövlət idarəetməsində şəffaflığın artırılması üçün, aparılan islahatlarda Prezidentə dəstək olmaq üçün belə bir qanunun qəbul olunmasına ehtiyac var. Diqqətinizə görə çox sağ olun. Təşəkkürlər.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də ilk növbədə, hörmətli xanım sədr, Siz başda olmaqla Milli Məclisin bütün üzvlərini və əməkdaşlarını yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm və hər birimizə bu sessiyada aktiv və məhsuldar fəaliyyət arzulayıram.

Hörmətli xanım sədr, dəyərli həmkarlar, bu gün bizim müzakirəmizə təqdim olunan yaz sessiyasının qanunvericilik işləri planı ilə hamımız tanışıq və bu planda əksini tapan fəaliyyətlərin həyata keçirilməsi üçün Milli

Məclisin üzvü olaraq əlimizdən gələni edəcəyik. Ancaq bununla yanaşı, mən istərdim ki, bir məsələyə diqqəti cəlb edim. Bu da hər gün bizim həyatımızda xüsusi rol oynayan süni intellektin tətbiqi ilə bağlıdır. Qanunvericilikdə bununla bağlı bu və ya digər formada qanunlar olsa da, bu qanun layihələri, ümumiyyətlə, hazırkı qanunvericilik süni intellektin tətbiqi ilə bağlı olan bir çox məsələləri, riskləri tənzimləmir. Əlbəttə ki, süni intellektin tətbiqi hər bir insanın həyatında böyük dəyişikliklər yaradır, inkişafda, xüsusilə texnoloji imkanların genişlənməsində, sosial, tibbi, təhsil və digər sahələrdə yeni imkanlar açır. Bununla yanaşı, etiraf etməliyik, bu texnologiyanın yaratdığı ciddi risklər də var ki, artıq dünyada bu haqda geniş müzakirələr aparılır.

Bu gün süni intellektin tətbiqi nəticəsində, bilirsiniz ki, insanlar haqqında bir çox məlumatlar emal olunur. İnsanların şəxsi həyatına təsir edəcək bu məlumatlar bəzən sui-istifadələrə məruz qalır, manipulyasiya edilir. Mən artıq o “deepfake”lə bağlı olan hazırkı vəziyyəti demirəm. Bu gün bu süni intellekt məhsulları, bu tətbiqlər sayəsində hətta insanların harada müalicə olunduğunu, hansı tibbi müayinələrlə əhatə olunduğunu belə öyrənmək mümkündür. İnsanların aldığı kreditlərlə, iş yerlərində üzləşdiyi məsələlərlə bağlı bütün məlumatlar sintez olunur, yəni emal olunur, bir çox hallarda manipulyasiyalar edilir, dediyim kimi, sui-istifadələrə məruz qalınır. Bunun qarşısını almaq üçün ayrı-ayrı ölkələr artıq yeni qanunlar, yeni tənzimləmələr, yeni qaydalar tətbiq edirlər. Təqdirəlayiq haldır ki, artıq cənab Prezident də yanvarın 16-da Azərbaycanda Rəqəmsal İnkişaf Konsepsiyasını təsdiq edibdir. Artıq hökumət süni intellekt strategiyasının hazırlanması ilə bağlı öz mövqeyini ifadə edibdir. Çünki

bu, artıq elə bir fenomendir ki, gərək bütün hallarda biz buna hazır olaq.

Azərbaycan qanunvericiliyində bununla bağlı bir çox qanun var. "Elektron imza və elektron sənəd haqqında" Qanunu qeyd edə bilərik. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Fərdi məlumatlar haqqında" qanunlar var. Bilirsiniz ki, bəzi qanunlar müxtəlif illərdə – 1998-ci ildə və ondan sonra qəbul olunubdur. Düzdür, bu qanunlarda bu və ya digər formada dəyişikliklər edilibdir, ancaq etiraf edək, süni intellekt elə bir fenomendir ki, hər gün inkişaf edir və dediyim kimi, onun inkişafı, yeni risklər qanunvericilikdə tam tənzimlənmir.

Mən bir misal göstərmək istəyirəm. "Fərdi məlumatlar haqqında" Qanun süni intellektin şəxsi məlumatları necə emal etməsini spesifik olaraq tənzimləmir. Qanunvericilikdə olan bu boşluq şəxsi həyatın toxunulmazlığına təhlükə yarada bilər.

Başqa bir misal. Süni intellekt sistemlərinin verdiyi sərt qərarlar, xüsusilə səhv diaqnoz, yanlış hüquqi qərarlar nəticəsində zərər çəkmiş şəxslərin hüquqi müdafiə mexanizmləri bu gün qanunvericilikdə, demək olar ki, tənzimlənmir, əks olunmayıbdır. Digər bir tərəfdən, süni intellekt texnologiyasından istifadə edərək saxta xəbərlərin, bayaq dediyim "deepfake" xəbərlərin də yayılması, qarşısının alınmaması ictimai rəyə təsir edir. Hətta bu gün, demək olar ki, seçkilərin nəticələrinə təsir də hər kəs tərəfindən düşünülməkdədir. Ona görə də, hörmətli xanım sədr, mənə belə gəlir ki, süni intellekt haqqında xüsusi qanunun qəbuluna və bütövlükdə, mövcud qanunvericiliyin məhz süni intellektin yaratdığı risklərə qarşı "expense" edilməsinə bu gün ehtiyac var. Çünki qaydaları

pozan, xüsusilə etik və hüquqi davranışa zidd hallara yol verən, süni intellekt tərəfindən yaradılan müəyyən məlumatın məhz manipulyasiyasına yol açan şəxslərə, qurumlara qarşı böyük məbləğdə cərimələr tətbiq olunmalıdır və ən sərt cəzalar nəzərdə tutulmalıdır.

Düşünürəm ki, bu gün qeyd etdiyimiz Rəqəmsal İnkişaf Konsepsiyası ilə bağlı hazırlayacağımız bu amillər o cümlədən süni intellekt strategiyasında da öz əksini tapacaqdır. Bu gün biz bu cür çağırışlara tam hazır olmalıyıq. Əminəm ki, dövlətimiz, müvafiq qurumlar bu istiqamətdə gərəkən addımlar atacaqlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, qanunvericilik işləri planı ilə əlaqədar xeyli məsələlər qeyd olunubdur. Mən bir neçə məsələnin də bu plana əlavə olunmasını istəyirəm. Bilirsiniz ki, Ümummilli Liderin siyasəti humanist siyasətdir və humanizmin əsas mənbəyidir. O baxımdan da mən hesab edirəm ki, bu il Konstitusiya və suverenlik ili elan olunduğundan ölkəmizdə bir amnistiya aktına da ehtiyac var. Ümummilli Lider hakimiyyətə gələndən sonra ilk olaraq ölüm hökmlərinə moratorium qoyuldu. Baxmayaraq ki, ondan əvvəl 2 ay prezident səlahiyyətlərini icra edən İsa Qəmbər 6 nəfəri güllələdi. Guya bütün işləri görüb qurtarmışdı, o 6 nəfərin güllələnməsi qalmışdı. Moratoriumdan sonra da Azərbaycanda ölüm cəzası ləğv olundu. Ümummilli Liderdən başlayaraq cənab Prezidentin və hörmətli Birinci vitse-prezidentin təşəbbüsü ilə Azərbaycanda 13 amnistiya aktı qəbul olunubdur, 70-dən artıq əfv sərəncamı imzalanıbdır. İnsanların öz ailələrinə qovuşması üçün humanist addımlar atılıbdır.

Ən böyük amnistiya aktı ilə bağlı ilk təşəbbüs Birinci vitse-prezidentimizə aiddir. Hələ deputat olan vaxt onun qanunvericilik təşəbbüsü ilə bu akt həyata keçdi. Təxminən 5 mindən yuxarı insan azadlığa qovuşdu. İkinci amnistiya aktını isə cənab Prezident Ümummilli Liderin 100 illiyi ilə bağlı qəbul etdi. Bu, ölkəmizdə ən böyük amnistiya aktı kimi qeyd olundu.

Mən hesab edirəm, parlament də təşəbbüs göstərib belə bir amnistiya aktını Respublika Gününə qədər hazırlayıb verə bilər. Təbii ki, əfv var. Əfvlə bağlı məsələlərdə bizim müxtəlif həmkarlarımız da iştirak edir. Əfv Məsələləri Komissiyasında deputatlarımız var. Orada müraciətlərə baxılır, yaxşı iş aparılır, azad olunanlar var. Amma amnistiya geniş əhatəyə şamil olunur. Ona görə də belə bir təşəbbüsün olması, parlamentin belə bir qərar qəbul etməsi bütün vətəndaşlarımızı sevindirər. Xüsusilə Azərbaycanın suverenliyi uğrunda döyüşüb, sonradan səhvə yol vermiş insanlar var ki, bu gün həbsxanadadırlar. Onların azadlığa çıxması da bu il vacib olan məsələlərdən biridir. Mən hesab edirəm ki, belə bir addım atsaq, çox uğurlu olar.

İkinci bir məsələ. Ölkəmizdə bələdiyyə seçkiləri keçirildi. Qanunvericilikdə bələdiyyələrlə bağlı müvafiq dəyişikliklərin aparılmasına ehtiyac var. Çünki həm bələdiyyələrin, həm onların torpaqlarının, mülkiyyətininin birləşməsi, bələdiyyənin maliyyə əsasları, o cümlədən mülkiyyətinin əsasları ilə bağlı qanunvericiliyimizdə müvafiq dəyişikliklərin edilməsinə ehtiyac duyulur. Cənab Prezident tərəfindən də bələdiyyələrlə bağlı fərman verildi. Eyni zamanda, yanvar ayında Nazirlər Kabinetinin də bələdiyyə mülkiyyəti ilə bağlı qərarı çıxdı. Ona görə də bunların bir-birinə uyğunlaşdırılması üçün biz bu addımı atmalıyıq.

Digər məsələ bizim Seçki Məcəlləsi ilə bağlıdır. Demək olar ki, biz bu il 3 seçki keçirdik, başa vurduq. Seçki Məcəlləsində müəyyən boşluqlar var və bu boşluqlar da seçki prosesinin özündə müəyyən dərəcədə problemlər yaradır. Ona görə Seçki Məcəlləsində də dəyişikliklərin aparılmasına ehtiyac duyulur. Mən hesab edirəm ki, biz qanunvericilik təşəbbüsü ilə Seçki Məcəlləsində olan boşluqların doldurulması üçün müvafiq dəyişikliklər aparmalıyıq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Hörmətli xanım sədr, mən də Sizi və hörmətli həmkarlarımı yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. Hörmətli xanım sədr, ölkədə vətəndaşların yaşadıqları evlərin, torpaqların sənədləşməsi ilə bağlı problemləri var. Bu, bilirsiniz, hər zaman gündəmdədir. Ölkə Prezidenti tərəfindən məsələnin həlli ilə bağlı sərəncam da imzalanıb. Doğrudan da, məsələnin həll olunmamasının ciddi obyektiv səbəbləri var. Amma bu məsələdə daha sürətli məsləhətli və məşvərətli işin aparılması da mümkündür.

Cəmiyyətin müxtəlif təbəqələrinin bu prosesin iştirakçısı olmasında və mütəmadi olaraq görülən işlər barədə məlumatların alınmasında fayda var. Amma əsaslı və yenilənmiş məlumatlar tapmaq çətindir. Məsələnin daha da uzanmasının qarşısını almaq, mövcud problemlərə baxış keçirmək və aidiyyəti dövlət orqanları ilə birlikdə işləmək vacibdir. Bunun üçün də parlament üzvlərindən ibarət bir tərkib yaradıb məsələnin mövcud durumunu öyrənməkdə, müzakirələr aparmaqda və təkliflər planının daha da təkmilləşdirilməsində fayda görürəm. Bu məsələləri burada qaldırırıq, söz olaraq qalır, görülən işlərlə

bağlı da məlumatımız olmur. Onun üçün də məsələnin həlli yönümündə parlamentin də iştirakında fayda var.

Evlərin sənədləşməsi prosesinin ikinci ən ağır tərəfi isə rayon, qəsəbə və kənd evləri ilə bağlıdır. Adamlar evini tikir, 50-60 il yaşayır. Amma evlərinə sənədi ya vaxtında düzəltməyiblər, ya da süründürməçiliklə üzləşiblər. Fakt budur ki, xüsusən də aran rayonlarında yaşayan kənd əhalisinin evlərinin sənədləri yoxdur. Bunu düzəltmək üçün də böyük xərc, xeyli sənəd toplamaq və zaman tələb olunur. Bir neçə aylıq səylərdən sonra məsələ süründürməçiliyə, bəzən də məsuliyyətsizliyə və diqqətsizliyə keçir. Kəndçi də hüquqi biliklərinin olmamasından, vəkil tutmağa pulunun kasadlığından, yaxud məlumatsızlıqdan və buna bənzər digər səbəblərdən sənədləşmə işini yarımçıq qoyub. Beləcə, məsələ sıfır nöqtəsinə qayıdır. Bu səbəbdən bir çox insan evlərinə qaz xətləri də çəkə bilmir. Çünki “ASAN xidmət” konkret sənədlərlə və tam olaraq qanuna söykənərək işləyir və o xidmətdə xahişlə məsələ həll etmək də mümkün olmur. Təklifim budur ki, bu məsələ ilə bağlı qeyd etdiyim deputat tərkibi məşğul olsun və parlamentin həm komitələri, həm də şöbələri ilə Sizin tapşırığınız əsasında təmərküzləşdirilmiş təklifləri hazırlayıb təqdim etsinlər.

Üçüncü problemli məsələ torpaqların sürüşməsi ilə bağlıdır. Vətəndaşlar torpaq alıb, ev tikiblər, yaxud digər məqsədlər üçün istifadə edirlər. Elə torpaqlar var ki, az qala 50-100 metr sürüşüb. Əgər yeni geolokasiya parametrlərinə görə sənədləşmə aparılsa, yalan olmasın, gərək 30-40 faiz ev, obyekt sökülə. Bu problemlərlə bağlı xeyli sayda məhkəmə işləri var. Amma etiraf edək ki, məsələnin həlli çox çətindir. Lakin təbii ki, çıxış yolu olmamış deyil. Mən istərdim ki, təklif etdiyim deputatlardan ibarət tərkib

bu məsələ ilə də məşğul olub təkliflərini hazırlasın.

Sonda isə, hörmətli xanım sədr, müvafiq qurumların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə, – artıq bu təcrübə var, Sizin göstərişinizlə bir neçə illərdir, yerinə yetirilir, – böyük tərkibdə tədbir keçirilsin. Tövsiyələrin də təqdim olunmasını təklif edirəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Razi müəllim, ancaq onu da deməliyəm ki, burada qaldırılan bütün məsələlər Milli Məclis Aparatının müvafiq şöbələri tərəfindən müxtəlif qurumlara yönləndirilir. Sizin dediyiniz məsələdə bir neçə obyektiv səbəb var. Onu Sizinlə sonra danışarıq, birgə müzakirə edib bir qərara da gələrik. Sağ olun.

Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media mənsubları. Yaz sessiyasının başlanması münasibəti ilə mən də, Sahibə xanım, Siz başda olmaqla bütün həmkarlarımı təbrik edir, növbəti sessiyada hər birinizə uğur arzulayıram. Bu, 2025-ci ildə parlamentimizin ilk plenar iclasıdır. Biz ölkə və xalq olaraq 2024-cü ili böyük uğurlarla başa vurduq. 2024-cü ildə biz müstəqillik tariximizdə ilk dəfə bütün suveren ərazilərimizdə Prezident və parlament seçkilərini keçirdik. Bu, çox böyük bir hadisə idi. 32 ildən sonra Azərbaycanın bütün suveren ərazilərində seçkilər keçirilirdi. Əlbəttə, dövlətçilik baxımından çox əhəmiyyətli olan suverenliyimizin bərpası Azərbaycan Prezidentinin dəmir iradəsi, xalqın öz Prezidentinə inamı, xalqın və dövlətin həmrəyliyi sayəsində mümkün oldu. Biz bu günlərə, bu birliyə, bu bütövlüyə, bu həmrəyliyə aparan yolda uzun illərdir, yorulmadan, inamla, qürurla irəliləyirik. Bu gün hər bir Azərbaycan vətəndaşı ölkəmizdə həyata keçirilən nəhəng quruculuq işlərini, misilsiz inkişafı ürəkdən dəstəkləyir,

hər gün dəyişən, gözəlləşən, abadlaşan Azərbaycanla fəxr edir və birmənalı olaraq dövlətinin, Prezidentinin yanındadır.

Azərbaycan parlamenti, Milli Məclis də bu gün xalqla dövləti arasında sağlam bir körpü olmaqla birlikdə müzakirə etdiyi və qəbul etdiyi bütün qanunlarla, irəli sürdüyü bütün təşəbbüslərlə, verdiyi bütün bəyanatlarla, həyata keçirdiyi bütün tədbirlərlə dövlətinə, Prezidentinə yardımçı olmağa çalışır. Azərbaycanımızın daha da inkişaf etməsi, daha güclü, daha möhkəm olması naminə Prezident İlham Əliyev tərəfindən irəli sürülən ölkə və qlobal əhəmiyyətli tezisləri, atılan bütün uğurlu addımları Azərbaycan parlamenti daim dəstəkləyir, ölkəmizə qarşı hər növ təhdidin dəf edilməsində, hər növ böhtan və qarayaxmaya siyasi müstəvidə layiqli cavabın verilməsində dövlətimizin sadiq bir əsgəri kimi fəaliyyət göstərir.

Müzakirə etməkdə olduğumuz Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il yaz sessiyasının qanunvericilik işləri planına birmənalı olaraq səs verəcəyəm. Parlamentin ötən sessiyalarda həyata keçirdiyi fəaliyyətində əldə etdiyi uğurlardan biri də, Sahibə xanım, məhz Sizin təşəbbüsünüzlə parlament dinləmələrinin, geniş ictimai müzakirələrin keçirilməsi olub. Bu dinləmələr irəli sürülən məsələlərin daha səmərəli və daha sürətli həlli yollarının tapılması baxımından da çox əhəmiyyət daşıyıb. Önümüzdəki sessiya ərzində də ayır-ayrı vacib sahələrlə bağlı dinləmələrin keçirilməsi ənənəsinin davam etdirilməsi məqsədəuyğun olardı.

Eyni zamanda, hörmətli Sahibə xanım, Siz bir az əvvəl qış tətili dövründə nümayəndə heyətimizin bir neçə xarici ölkədə olduğunu qeyd etdiniz. Bu səfərlərdən ən əhəmiyyətlisi, əlbəttə ki, rəhbərliyiniz altında nümayəndə

heyətinin İtaliyaya uğurlu səfəri idi. Yeri gəlmişkən, mən bu səfər münasibəti ilə Sizi və nümayəndə heyətimizi təbrik edirəm.

Eyni zamanda, fürsətdən istifadə edərək həmkarımız hörmətli Anar İsgəndərovla birlikdə bu günlərdə, Sizin də qeyd etdiyiniz kimi, Şimali Kipr Türk Respublikasında səfərdə olduq. Orada keçirilən simpozium çərçivəsində bu ölkənin Prezidenti, Baş naziri, xarici işlər naziri, parlament sədri ilə görüşlər keçirdik. Yeri gəlmişkən, mən özümə borc bilirəm ki, Şimali Kipr Türk Respublikası Prezidentinin türk birliyi naminə həyata keçirdiyi yorulmaz fəaliyyətinə görə cənab Prezident İlham Əliyevə sonsuz minnətdarlığını mikrofondan səsləndirim. Eyni zamanda, parlament sədrinin şəxsən Sizə və parlamentlərarası işçi qrupunun rəhbəri Cavanşir Feyziyevə salam və ehtiramlarını buradan səsləndirmək istəyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Salamı çatdırdığınıza görə çox sağ olun. Dinləmələrə gəlincə, hörmətli Jalə xanım, Milli Məclisdə dinləmələr həmişə olub. Sadəcə, son illər onları çox sayda keçirməyimiz zamanın tələbidir. Çünki məsələlər çoxdur və düşünürük ki, belə bir format həm Milli Məclis üçün, həm də bizim seçicilərimiz üçün daha da uyğundur. Sağ olun.

Musa Quliyev. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Yaz sessiyasının başlanması münasibəti ilə, hörmətli Sahibə xanım, Sizi və millət vəkili həmkarlarımı təbrik edirəm və qanunvericilik hakimiyyətinin inkişafında, fəaliyyətinizdə uğurlar arzulayıram.

Əlbəttə, yaz sessiyasının qanunvericilik işləri planı ilə mən də tanış olmuşam. Olduqca aktual məsələlər qoyulubdur. Hesab edirəm ki, hamımız bu qanunvericilik işləri

planının yaz sessiyası ərzində qəbuluna dəstək verəcəyik, səs verəcəyik, öhdəmizə düşən vəzifələri də yerinə yetirəcəyik.

Eyni zamanda, mən təklif edirəm ki, işlər planına "Reklam haqqında" Qanuna əlavə və dəyişikliklər edilməsini də daxil edək. Son dövrlərdə bir çox televiziya kanallarının şou-proqramlarında tibbi xidmətlərin, ayrı-ayrı həkimlərin, ayrı-ayrı klinikaların heç bir reklam normalarına uyğun olmayaraq reklam edilməsi məni xüsusilə narahat edir. Hələ görürsən ki, ayrı-ayrı şou-proqramların sponsorluğunu da həkimlər, ayrı-ayrı klinikalar edirlər. Bunun da olduqca mənfi nəticələri ortaya çıxır. Əlbəttə, biz tibbi xidmətlərin reklam olunmasının əleyhinə deyilik. Amma bu reklamın müəyyən çərçivələri, müəyyən normaları var, o cümlədən tibbi deontologiya və tibbi etika da gözlənilməlidir.

Mənə elə gəlir ki, son dövrlərdə tibbi göstərişsiz olan bir çox plastik cərrahiyyə, bədən şəkilləndirmə, mədə kiçiltmə əməliyyatlarında çoxsaylı ölüm hallarının, ağırlaşma hallarının baş verməsinə bu reklamlardakı və o şou-proqramlardakı sponsor fəaliyyətinin də təsiri vardır. Həkimi şəxs olaraq reklam etmək dünyanın heç bir ölkəsinin reklam praktikasında yoxdur. Tibbi xidməti və ya ayrı-ayrı klinikaları reklam edərkən "ölkənin 1 nömrəli klinikası, ölkənin ən gözəl həkimi" demək, yaxud da dünyaca məşhur həkim kimi reklam etmək heç yerdə doğru deyildir. Bu, ən azı həkimin və tibb etikasının pozulmasıdır. Bizim vətəndaşlarımızı da bəzən səhv yola yönəldirlər. Bəzən, həqiqətən, yaxşı bir həkimi reklam edirlər və onun o qədər xəstəsi yığılır ki, o çatdıra bilmir, lazımi keyfiyyətli xidmət göstərə bilmir və bu reklamlar nəticəsində xətaları da olur.

Mən təklif edirəm, “Reklam haqqında” Qanuna dəyişiklik edilsin, normalar müəyyənləşdirilsin ki, tibbi xidmətlərdə nələri reklam etmək olar, nələri olmaz. Ümumiyyətlə, həkimi şəxs olaraq reklam etmək və sponsorluq fəaliyyətində göstərmək bütün dünya praktikasında qadağandır. Bizdə də qadağan olunmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, parlamentin yaz sessiyasının iş planına keçməzdən əvvəl ilk növbədə qeyd edim ki, möhtərəm Prezidentin ötən dövr üzrə iki konseptual çıxışı, yəni yanvarın 7-də yerli televiziyalara müsahibəsi və yanvarın 28-də nəqliyyat məsələlərinə dair müşavirədəki tarixi çıxışları, əslində, bizim üçün önəmli yol xəritəsidir. Məlumdur ki, möhtərəm Prezident hər iki çıxışında qan yaddaşımızdan danışdı və Azərbaycan xalqına qarşı törədilən cinayətlərin unudulmayacağını bəyan etdi. Hesab edirəm ki, bu bizim iş planımız üçün mühüm aspektlərdən biridir. Yaz sessiyamızda diqqətimizin yönələcəyi istiqamətlərdən biri törədilən tarixi cinayətlər olmalıdır. Yəni möhtərəm Prezidentin vurğuladığı kimi, Qarabağ xanının öldürülməsi, ermənilərin Çar Rusiyası tərəfindən Azərbaycan ərazisinə köçürülməsi, İrəvanın xəyanətkarcasına Ermənistana verilməsi, Qərbi Zəngəzurun isə Sovet rəhbərliyi tərəfindən Ermənistana verilməsi Xocalı soyqırımı və 20 yanvar kimi təqvimimizdə yer almalıdır.

Vurğulamaq istədiyim ikinci məsələ milli dəyərlərimizin qorunması ilə bağlıdır. Bilirsiniz ki, bu məsələ hər zaman həm Ulu Öndərin, həm də möhtərəm cənab Prezidentin siyasətinin əsasını təşkil edib. Eyni zamanda,

çox hörmətli Mehriban xanım Əliyevanın fəaliyyətinin önəmli bir hissəsi milli kimliyimizin qan yaddaşı olan dəyərlərimizin mühafizəsinə yönəlib. Məhz bu əzmkar və qətiyyətli fəaliyyətin nəticəsidir ki, qloballaşan mənəvi işğal və təcavüzdə ehtiva olunan, insan haqları və demokratiya adı altında milli kimliklərə təcavüz olunan bir dövrdə Azərbaycan, sözün əsl mənasında, təhlükəsizlik adası kimi öz dəyərlərini ideoloji risklərdən qoruya bilir.

Hesab edirəm ki, cəmiyyətdə bir sıra hallarda bu məsələyə baxışda qüsurlar müşahidə olunur. Milli dəyər yalnız ənənələrdən, musiqidən, mətbəxtdən ibarət deyil. Milli dəyər həm də bizim tarixən formalaşan ideallarımızdır. Məsələn, müəllim idealı. Ulu Öndər deyirdi ki, müəllim adından daha yüksək ad tanımır. Dövlətimizin də, rəhbərimizin də müəllim idealına baxışı çox aydındır. Yaxşı, bəs bu gün sosial mediada və bütövlükdə, mediada müəllim idealı nə dərəcədə qorunur? Çox təəssüflər olsun ki, bu gün müəllim linç obyektinə çevrilib. Problemlər bütün sahələrdə var, o cümlədən problemli, sinifə buraxılmalı olmayan insanlar müəllimliyə yol tapa bilir. Amma bu problemlər yerində həllini tapmalıdır. Bir-iki problem fonunda biz müəllim kultunu zədələməməliyik. Kənd məktəbində iki müəllimin mübahisəsi, yaxud hansı isə bir müəllimin hansı isə bir pozuntu törətməsi, bu halların media səhifələrində yayımlanması cəmiyyətə heç nə vermir, amma müəllim kimliyini yerlə yeksan edir. Bəli, hansı isə müəllimin fəaliyyətində nöqsan varsa, o, müvafiq məsuliyyəti daşımalıdır. Bir daha deyirəm, yerində. Belə məsələləri ictimailəşdirib, müəllimə ehtiram ənənələrinin dağıdılmasına yol vermək olmaz. Bu mənada, hesab edirəm ki, artıq qanunvericilik səviyyəsində müəllim adının mühafizəsinin təmin olunması istiqamətində

müəyyən işlər görməliyik.

Sonda bir məqama da toxunmaq istəyirəm. Hörmətli Sahibə xanım, bir müddət əvvəl Sizin tapşırığınıza uyğun olaraq, Prezident seçkilərini müşahidə etmək üçün Belarusda səfərdə olduq. Yalnız Belarusdan deyil, bütövlükdə, digər ölkələrin nümayəndə heyətlərindən Azərbaycana, Azərbaycan Prezidentinə, Azərbaycan parlamentinə və şəxsinizə müstəsna ehtiram müşahidə etdik. Bu o deməkdir ki, Milli Məclisin iş planları yalnız milli müstəvidə qiymətləndirilə bilməz. Cənab İlham Əliyev qələbələri ilə elə böyük bir konfiqurasiya formalaşdırıb ki, biz qanun yaradıcılığı, parlament diplomatiyası ilə qalib dövlət olaraq, bütövlükdə, bölgə parlamentarizminin inkişaf tendensiyasını diktə edə bilirik. Bu mənada yaz sessiyasında hər birimizə uğur olsun. Söz verdiyiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm, hörmətli sədr. Sessiyamız millətimiz və dövlətimiz üçün xeyirli olsun. Milli Məclis bütün hakimiyyət orqanları kimi cari ildə fəaliyyət planını Prezident İlham Əliyevin 7 yanvar tarixində bəyan etdiyi strateji hədəflər üzərində qurur. Həmin görüşdə irəli sürülən əsas ideyalar yaşadığımız dövrün qlobal və regional təhlükələrinə qarşı dövlətimizi hazırlamaq məqsədinə xidmət edir. Ölkə rəhbəri dedi ki, İkinci Dünya müharibəsindən sonra formalaşan beynəlxalq təhlükəsizlik sistemi çökür, yenisi isə yaranma mərhələsindədir. Bəli, qələbəmiz ölkəmizin siyasi çəkisini artırıb, tariximizdə ilk dəfə dövlətimiz hərbi qələbədən sonra dünyanın yenidən bölüşdürülməsində öz taleyinin sahibi kimi çıxış edir. Ona görə də, obrazlı desək, işğal dövründə Qarabağ özü boyda

mina idi. İndi azad torpaqlar yeni vətən quruculuğunun məhək daşına çevrilib. Bir vaxtlar bir milyon qaçqın və köçkünün hüquqları uğrunda vuruşan Azərbaycan indi Yaxın Şərq və Cənubi Qafqaz regionunda sülhyaradıcı missiya ilə çıxış edir. Ölkəmiz Türkiyə ilə çiyin-çiyinə yeni Suriya quruculuğuna töhfə verir. Son iki əsrdə ilk dəfə erməni amili regionda həlledici rol oynamır.

Göründüyü kimi, yeni təhlükəsizlik arxitekturasının formalaşmasında parlament diplomatiyası hər zamankı kimi fəal rol oynayacaqdır. Ölkə rəhbərinin ayırdığı ikinci məsələ, Ermənistana son 30 ildə rəhbərlik edən üç şəxsin, xüsusilə saxta sülhpərvər obrazı arxasında gizlənən Levon Ter-Petrosyanın çıxışına münasibəti informasiya məkanında böyük əks-səda doğurdu. Təəssüflər olsun ki, Tatul Akopyan adlı jurnalistin iki il əvvəl yaydığı kadrlar yalnız indi Albert İsakov adlı bloqerin tərcüməsindən sonra ciddi ictimai reaksiyalara səbəb olub.

1993-cü ilin avqustunun işğal günlərində Ter-Petrosyan deyir ki, azərbaycanlıların, sadəcə, üstünlük təşkil etdiyi Basarkeçər, Uluxanlı və digər ərazilərdən məqsədyönlü şəkildə təmizlənməsi 600 illik erməni arzularının gerçəkləşməsidir. Əks halda ölkəsində demokrafik balansı xeyirlərinə dəyişmək, milli dövlət qurmaq mümkün olmazmış. Digər tərəfdən, respublikamızda sayları 300 minə çatan ermənilərin də Ermənistana köçürülməsi əhali azlığını kompensasiya etmək planı olub. Petrosyanın çıxışı xalqımıza qarşı soyqırımın, etnik təmizləmənin təsdiqi olduğuna görə həmin dövrdə müdafiə naziri Vazgen Sarkisyan deyir ki, prezidentin çıxışını məxfiləşdirək. Çünki düşmənçilik planları və Ağdamın işğalının etirafı ölkənin beynəlxalq imicinə zərbə vurar. Göründüyü kimi, xalqımızı Bakı, Sumqayıt, Kirovabad hadisələri adı ilə

əsassız yerə ittiham edənlərin 30 illik hökmləri iflasa uğrayır. Ona görə də təklif edirik ki, Milli Məclis Levon Ter-Petrosyanın torpaqlarımızın işğalının əsas ideoloji hərbi proqramı olan çıxışına hüquqi-siyasi qiymət versin və qərarını bütün dünyaya yaysın.

Digər məsələ. Burada həmkarlarımız da buna toxundu. ABŞ-ın Nyu-York məhkəməsi tərəfindən 18 ilin senatoru Bob Menendesə layiq olduğu 11 illik cəzanın çıxarılmasını alqışlayırıq. Hökmün təkcə korrupsiya cinayətlərinə görə deyil, həm də erməni yalanlarına xidmət edən ABŞ siyasətçilərinə görə olduğunu bildiririk. Proses zamanı hakim Sidni Steynin sözləri çox ibrətamizdir. Sitat: “Siz siyasi şöhrətin zirvəsində idiniz, lakin yolunuzu azdınız”. Həqiqətən, bütün deputatlıq fəaliyyətini ölkəmiz əleyhinə bədnam qətnamələrə həsr edən, Qarabağın işğalının simasına çevrilən adamın karyerasının sonu həm də qələbəmizin birbaşa nəticəsidir. Təklif edirik ki, Milli Məclisin komitələrindən biri ABŞ məhkəməsinə öz ehtiramını ifadə edən məktub göndərsin, eləcə də Azərbaycana qarşı hər gün iftira şəbəkəsinə başçılıq edən digər konqresmenlər, Adam Şift, Frenk Pallone və digərlərinin fəaliyyətlərinin də araşdırılmasını xahiş etsin. Biz Avropa Parlamentinin və Avropa Şurası təmsilçiləri Natali Luazonun, Rafael Qlyuksmanın, Frank Şvadenin də eyni aqibət yaşayacağına inamımızı ifadə edirik.

Sonda bir daha Qarabağ məsələsinin başa çatmadığını iddia edən qrupların sistemli halda “Human Rights Watch”un 2024-cü il hesabatında, Avropa Parlamentinin son qətnaməsində, Kanada xarici siyasət idarəsinin bəyanatlarında qırmızı xətlə keçən bir avantüraya – ermənilərin Xankəndiyə qayıtmasına dair irəli sürdükləri tələbə cavab vermək istəyərdik. Ermənistanın dövlət

siyasətində qayıdış məsələsi olmadığı halda, müxtəlif siyasi mərkəzlərin Qarabağın düşmənçilik ocağını sönməyə qoymamaları yaşadığımız bölgəni daim əldə saxlamaq və sümürmək məqsədlərinə xidmət edir. Ona görə də Paşinyanın növbəti cəsarətli addımını məhz ötən əsrin 50-ci illərindən gündəliyə çıxarılan soyqırım biznesini, nəhayət, durdurmaq, xalqını bu əsarətdən xilas etmək, yeni qırğınların qarşısını almaq siyasəti kimi dəyərləndiririk. Qafqaz heç vaxt indiki qədər xarici dövlətlərdən azad olmayıb. İlham Əliyev "Yeni geosiyasi reallıq yaratdıq" deyərkən məhz bunu nəzərdə tutub. Sağ olun.

**Sədrlik edən.** Zahid müəllim, bəs işlər planı haqqında nə dediniz, nə təklif etdiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda yazılı surətdə verərsiniz, çünki Sizin dedikləriniz elə bizim 3 dəqiqəlik çıxışlarımızdandır, ancaq 5 dəqiqə çıxış etdiniz. Xahiş edirəm, sonra yazılı surətdə verərsiniz.

Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Mən də həmkarlarımın təbriklərinə qoşularaq Sizi və hörmətli vitse-spikerlərimizi, eləcə də həmkarlarımızı Milli Məclisin yaz sessiyasının açılışı münasibəti ilə təbrik edirəm. Hər birimiz əminik ki, qarşıdakı sessiyada da Azərbaycan parlamenti qanunvericiliyə, eləcə də beynəlxalq aləmdə fəaliyyətə öz töhfələrini verəcəkdir. Əlbəttə, mən bu parlamentin beynəlxalq fəaliyyətini də bir millət vəkili kimi çox yüksək dəyərləndirirəm və buna sevinirəm. Çıxışıma keçməzdən öncə bizə təqdim olunmuş Milli Məclisin yaz sessiyasının qanunvericilik işləri planını dəstəkləyirəm və hörmətli həmkarlarımı da səs verməyə çağırıram.

Hörmətli Sahibə xanım, Siz çıxışınızda da qeyd etdiniz, parlamentin fəaliyyətində yeni qanunların yaradılması ilə bərabər, dinləmələrin keçirilməsinin əhəmiyyəti haqqında dediniz. Burada mənim əvvəlki çağırışlardan olan həmkarlarım, yəqin ki, xatırlayar, 2005-ci ildə möhtərəm Prezidentimiz bu binanın açılışında, eyni zamanda, üçüncü çağırış parlament seçkilərinin ilk iclasında bizə üzünü tutaraq öz tövsiyələrini, məsləhətlərini verdi və dedi ki, millət vəkillərinin, eləcə də parlamentin vəzifəsi təkcə yeni qanunların yaradılması demək deyil, həmçinin qanunların təkmilləşdirilməsi istiqamətində, qanunlarda mövcud boşluqların tapılması, qanunların işlək mexanizminin hazırlanmasında öz tövsiyələrini verməkdir. Çox doğru dediniz ki, son illərdə Sizin dəstəyinizlə dinləmələrin sayı çox titanik formada ardıcıl olaraq davam edir. Buna nümunə olaraq bu günlərdə Səhiyyə komitəsinin öndərliyi ilə Azərbaycanda islahatlar çərçivəsində həyata keçirilən ilkin səhiyyə xidmətinin vəziyyəti ilə bağlı çox mükəmməl bir dinləmə keçirildi. Bu səbəbdən Sizə bir daha təşəkkür edirik.

Mən bu dinləmədə səslənən, xüsusilə də İcbari Tibbi Sığorta Agentliyinin, eləcə də Səhiyyə Nazirliyinin təqdimatını bizlərə çatdıran o mütəxəssislərin dedikləri rəqəmlərə istinad edərək demək istəyirəm. Hər iki təqdimatda deyildi ki, bu gün ölkədə səhiyyə sahəsində, möhtərəm Prezidentimizin çox uğurla başladığı bu siyasətdə hər gün, hər dəqiqə möhtərəm Mehriban xanım Əliyevanın da diqqətində olan bu islahatların həyata keçirilməsi üçün 40 faiz tibbi kadr, xüsusilə də həkimlər çatışmır. Sözsüz ki, belə bir ölkədə qısa müddət ərzində səhiyyə sahəsində, – icbari tibbi sığorta, TƏBİB, Səhiyyə Nazirliyi, – çox böyük uğurlar var. İnsanlar təsəvvürlərinə

gətirə bilməzdilər ki, ürək əməliyyatı, yaxud da böyrək köçürülməsi, qaraciyər transplantasiyası, dializ pulsuz, dövlət hesabına olsun. Bu, bölgələrdə də həyata keçirilir. Həqiqətən də, çox sürətli, çox uğurlu nailiyyətlərə şahidlik edirik. Amma səsləndirilən 40 faizdən çox tibbi kadrların çatışmazlığı bizi bir millət vəkili, siyasətçi olaraq, təbii ki, düşündürməlidir. Nəyə görə deyirəm? Əmək Məcəlləsində pensiya yaşı 65 nəzərdə tutulduğuna görə bu, təbii ki, ciddi problemlər yaradır. Hörmətli həmkarlarımız da sual verdi. Bizim hörmətli komitə sədrlərimiz, Musa müəllim də iştirak edirdi. Çox gözəl bir islahat paketi, yol xəritəsi təqdim olundu. Sual verildi ki, bu islahatın həyata keçirilməsi, başa çatması təxminən neçə il çəkər? Bunun 5-6 ildən az olmayan müddətdə həyata keçiriləcəyini söylədilər.

Bizim burada 125 millət vəkilinin hər biri ucqar bölgələri də təmsil edir. Bizim təhsil sahəsində də ayrı-ayrı fənlər üzrə ciddi kadr çatışmazlığı var. Ölkəmizdə təyinat məsələsi də yoxdur. Məsələn, qardaş Türkiyədə dövlət hesabına Avropa ölkələrində oxuyan kadrlar təhsillərini bitirdikdən sonra mütləq 3-5 il dövlətin məsləhət gördüyü bölgələrdə çalışmalıdırlar. Mən xahiş edərdim ki, Əmək Məcəlləsi ilə bağlı yenidən bir dinləmə keçirilsin. Heç olmasa, keçid dövrü üçün 65-67, 68 yaş da olar. Bu gün universitetlərdə 85-90 yaşında qiymətli alimlərimiz çalışır. Orta məktəblərdə də belədir. Amma mən bu dinləmənin nəticəsi üçün bir daha Sizdən xahiş edirəm, Sahibə xanım. Çünki ölkəmizdə belə bir...

**Sədrlik edən.** Sağ olun. Tahir Mirkişili. Buyurun.

**Tahir Mirkişili**. Hörmətli xanım sədr, mən də ilk öncə Sizi və bütün həmkarlarımı yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm və hər birinizə fəaliyyətinizdə

uğurlar arzulayıram.

Hörmətli həmkarlar, mən iki məsələyə toxunmaq istəyərdim. Birincisi. Bayaq da hörmətli həmkarım tərəfindən səsləndi. Bu, süni intellektlə bağlı yeni qanun layihəsinin hazırlanması ilə əlaqədardır. Bu gün süni intellekt həyatımızın bütün sahələrinə o qədər dərindən nüfuz edib ki, artıq onun tənzimlənməsi üçün, düşünürəm, zaman gəlib çatmışdır. Məsələn, bu gün süni intellektin vasitəsi ilə çox rahat şəkildə mahnı bəstələmək mümkündür, şer, kitab yazmaq olar. Hətta süni intellektdən istifadə etsəniz, görərsiniz ki, süni intellekt vasitəsi ilə çox rahat şəkildə 18-20 fəsildən ibarət qanun belə yazmaq mümkündür. Amma bu dərəcədə dərinə getmiş bir intellekt üçün qanunverciliyin həcminin, yaxud da formatın müəyyən edilməsi çox vacibdir. Bu gün dünyanın bir çox ölkələrində bu, artıq tətbiq olunur. Məsələn, hər hansı bir video, şəkil, yaxud da yazı, kitab süni intellekt vasitəsi ilə hazırlanıbsa, qanunverciliklə hökmən onun süni intellekt tərəfindən hazırlanmasının göstərilməsini tələb edən bir qayda müəyyən edilir. Bu, artıq Avropada, Amerikada var, Çində çox geniş tətbiq olunur. Ona görə mən hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə də ya ayrıca bir qanunun olması, ya da qanunvericilikdə dəyişiklik edilməsi çox vacibdir.

İkinci bir məsələ, hörmətli xanım sədr, qanunların formatı və dili ilə bağlıdır. Hər zaman Milli Məclisdə tez-tez qanunvericilik aktlarının dilinin sadə olması, vətəndaşların başa düşməsi ilə bağlı məsələ qaldırılır. Biz hər zaman buna çox fikir veririk. Amma bu gün dünyada vətəndaşlarla yanaşı, həm də maşınların başa düşə biləcəyi bir qanun formatından söhbət gedir. Buna ingiliscə "machine-readable format" deyirlər. Yəni bu gün süni

intellekt istəsə belə, bizim yazdığımız formada qanunları oxuya bilmir. Çünki bu, daha çox vətəndaşlar üçün yazılmış qanundur. Amma hazırda, bütövlükdə, hüquq sahəsində, texniki sahədə, iqtisadiyyatda süni intellektin getdikcə daha çox yayılması dünyada bir çox ölkələrdə qanunvericilik aktlarının formatının dəyişməsini, paralel olaraq iki formatda – vətəndaşın və maşının başa düşməsi formatında qanunun yazılmasını tələb edir.

Mənim bildiyimə görə, Milli Məclisin bu istiqamətdə artıq müəyyən bir resursu və bununla bağlı təcrübəsi də var. Hörmətli xanım sədr, Sizin təşəbbüsünüzlə biz keçən altıncı çağırışdan Milli Məclisdə bütün qanunvericilik aktlarının bir yerə yığılması ilə bağlı bir neçə cilddən ibarət kitab da buraxmışdıq. Mənim bildiyimə görə, Milli Məclisin texniki imkanı da var ki, bu formatla bağlı qanunvericilik aktları dəyişilsin. Təklif edirəm ki, həm Milli Məclisin daxilində resursların artırılması ilə, həm də Nazirlər Kabineti, yaxud da hökumətdə yeni resurslar hesabına Azərbaycanda bütün qanunvericilik aktlarının, o cümlədən bundan sonra qəbul olunan qanunların iki formatda – təbii intellektin və süni intellektin başa düşə biləcəyi bir formatda buraxılması ilə bağlı xüsusi bir səy göstərilsin.

Azərbaycan hökumətinin süni intellektlə əlaqədar yeni strategiyasının hazırlanması ilə bağlı bəyanat eşitmişik. Biz bilirik ki, dövlət başçımızın ideyaları ilə Azərbaycan regionda hər zaman innovativ bir ölkədir. Belə bir innovativ ölkədə süni intellektin inkişaf etdirilməsi qarşımızda duran çox ciddi bir məsələdir. Dünyada bununla bağlı ciddi mübarizə gedir. Düşünürəm ki, hər biriniz görürsünüz. Bir neçə gün bundan öncə Amerika və Çin arasında gedən, iqtisadiyyata ciddi təsir edə biləcək bir

hadisənin şahidi olduq. Ona görə hesab edirəm ki, məhz biz də Milli Məclis olaraq bu istiqamətdə yeniliklərə imza atmalıyıq. Bizim bununla bağlı resursumuz da var. Hesab edirəm ki, Milli Məclis daim bu sahədə innovativ olub. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbasov. Buyurun.

**Aqil Abbasov**. Təşəkkür edirəm, hörmətli sədr. Mən də Sizinlə və həmkarlarımızla bağlı bütün təbriklərə qoşuluram. Heç çıxış etmək fikrim yox idi. Amma Musa müəllimin çıxışı məcbur etdi ki, mən də bir-iki söz deyim. Hörmətli Musa müəllim çox ciddi bir məsələyə toxundu. İstəyirəm, elə burada danışdığımız kimi, yəni hansı isə bir çıxış kimi qalmasın. "Reklam haqqında" Qanunu yaz sessiyasının planına salmaq lazımdır. Mən mənfur Sovet hökuməti vaxtı Mərkəzi Komitənin qəzetində şöbə müdiri idim. Hər hansı bir həkim haqqında adi bir xoş söz belə demək qadağan idi, çünki hamı onun üstünə axışacaqdı. Bəlkə heç deyilən qədər savadlı deyil, pul alıb, yazmışıq. "Молодежь Азербайджана" qəzetinin redaktoru "Semaşko" xəstəxanasının bir həkimi haqqında yazmışdı. Buna görə onu cəzalandırmışdılar ki, sən nahaq həkim haqqında xoş söz yazmısan.

İndi bütün televiziyalardakı şou-proqramlarda hər gün arvad boğuşmasıdır, həkimlərin reytinqi, tərifi və dərmanların reklamıdır. Buna bir əncam çəkmək lazımdır. Əncam çəkməsələr, bu davam edəcək. Heç görmüsünüz ki, Rəşad Mahmudovu tərifləyələr? Çünki o, tərifini alıb. Məsələn, "Mercedes" maşınının reklamı yoxdur, çünki onun reklamı özüdür. Rəşad Mahmudovun, Əhliman müəllimin də reklamları özləridir. Amma adi həkimlərin hərəsi bir yerdən diplom alıb, 2 ay hansı isə peşə məktəbində, Harvardda, Londonda və sairdə oxuyub, ya

da Türkiyədə uzmanlıq alıb, gəlib. İçlərində yaxşı həkimlər var, heç kəs bunu danmır, amma bu dərəcədə həkim reklamı, həqiqətən, düz deyil. Ona görə də istərdim ki, yaz sessiyasının planında "Reklam haqqında" Qanuna da yenidən baxış keçirilsin. Düzdür, bu, televiziyaya, yəni özəl kanallara böyük ziyan vuracaq, çünki onlar arvad davası ilə, bir də həkim, dərman reklamı ilə dolanırlar.

Bu günlərdə Paşinyan Vaşinqtona getmişdi. Mən yazıçı kimi deyəcəyəm. Əli ətəyindən uzun qayıtdı. Nə Amerikanın Prezidenti ilə, nə də ciddi bir siyasətçi ilə görüşdü. Hətta erməni diasporu onunla görüşdən imtina etdi.

Qaldı ki, fransızların Ermənistanı dəstəkləməsinə, dəstəkləsinlər. Fransızlar vuruşa bilməyən bir xalqdır. Vurdular, Afrikadan, Suriyadan çıxartdılar. Artıq hansı isə bir fransızın gəlib sərhəddə durması qorxulu deyil. 21 NATO dövləti... Avropanın əksəriyyəti NATO dövlətidir və ya Kanada. Onların gəlib orada at oynatması bizi qorxutmur. Çünki möhtərəm Prezidentin əlində Həzrət Əli qılıncı var. Həzrət Əli qılıncının, bilirsiniz də, fərqi nədir? Həzrət Əli qılıncı müdafiə qılıncıdır. Amma lazım gələndə adam başı kəsir. Bilməyənlər bilsinlər.

Mən də yaz sessiyasında baxacağımız məsələləri dəstəkləyirəm. Bu məsələlərə komitələrimizin iclaslarında baxmışıq və razılığımızı da vermişik.

Sahibə xanım, Sizə bir təşəkkür borcum var. Mən xəstə olanda mənə kömək etmisiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Aqil müəllim. Təklifinizi başa düşdük. Ancaq bu arvad boğuşması nə deməkdir? Mən indi burada Sizin təhlilinizi istəmirəm. Arvad davası, arvad boğuşması – bu, parlament sözləridir?

Daha çıxış edən yoxdur. Mən qərar layihəsini səsə qoyuram. Xahiş edirəm, yaz sessiyasının qanunvericilik

işləri planına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 2-ci məsələsinə keçirik. Daxili Nizamnamənin 40-cı maddəsinə uyğun olaraq, yaz sessiyasının birinci iclasında Milli Məclisin Hesablayıcı komissiyası yaradılmalıdır. Qeyd edim ki, komissiya 1 il müddətinə və 7 üzvdən ibarət tərkibdə seçilir. Qərar layihəsi sizə paylanıb. Əgər başqa fikir yoxdursa, mən məsələni səsə qoymaq istəyirəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. Mən komissiyanın üzvlərinə uğurlar arzulayıram.

3-cü məsələyə keçirik, hörmətli həmkarlar. Daxili

Nizamnamənin 41-ci maddəsinə əsasən biz Milli Məclisin İntizam komissiyasını da yaratmalıyıq. Komissiya 1 il müddətinə və 11 üzvdən ibarət tərkibdə seçilir. Bu qərar layihəsi də sizə paylanıb. Xahiş edirəm, ayrı bir fikir yoxdursa, səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, səsə qoyuram, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 121 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

4-cü məsələ "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi ilə bağlıdır. Məsələyə dair məlumat vermək üçün mən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun, məlumat verin.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Mən də Sizə, bütün həmkarlara yaz sessiyasında uğurlar arzulayıram.

Biz işimizi çox vacib və əhəmiyyətli qanun layihəsi ilə başlayırıq. Azərbaycanın beynəlxalq münasibətləri, əlaqə-

ləri getdikcə inkişaf edir. Bu gün bu ilk iclasda parlamentlərarası əlaqələrdən çox danışıldı. Bu, doğrudan da, təqdirəlayiq bir haldır. Bu gün Azərbaycan parlamentində 103 dostluq qrupu fəaliyyət göstərir. Biz bu gün 104-cünün, Oman Sultanlığı ilə dostluq qrupunun yaradılması ilə bağlı qərar qəbul edəcəyik, rəhbər seçəcəyik. Yaxın Şərqlə Azərbaycanın münasibətləri getdikcə inkişaf edir. Bizim Səudiyyə Ərəbistanı ilə, Birləşmiş Ərəb Əmirlikləri ilə, başqa ölkələrlə ən yüksək səviyyədə münasibətlərimiz, o cümlədən parlament səviyyəsində əlaqələrimiz təşkil olunmuşdur. Təqdirəlayiq haldır ki, Oman Sultanlığı ilə də məhz parlament əlaqələri ən yüksək səviyyədədir.

Mən hörmətli həmkarlara, Sahibə xanım, bir neçə faktı xatırlatmaq istəyirəm. 2018-ci il sentyabrın 20-21-də Azərbaycan Parlamentinin 100 illik yubileyi ilə əlaqədar olaraq Oman Sultanlığı parlamentinin aşağı palatasının sədri ən yüksək səviyyədə iştirak etmişdi. 2019-cu il 24-26 oktyabr tarixlərində Bakıda Qoşulmama Hərəkatının 18-ci zirvə görüşündə parlamentin sədri yenə də ən yüksək səviyyədə iştirak etmişdi. 2024-cü il 21-23 fevral tarixlərində Bakıda keçirilən Asiya Parlament Assambleyasında yenə Oman Sultanlığı ən yüksək səviyyədə təmsil olunmuşdu. Ümumiyyətlə, hörmətli həmkarlar, Oman Sultanlığı BMT, İslam Əməkdaşlıq Təşkilatı və başqa beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü ilə bağlı qətnamələrin qəbul edilməsində Azərbaycanın haqlı mövqeyini həmişə ən yüksək səviyyədə dəstəkləyən bir ölkədir. Hesab edirəm ki, parlament qrupunun yaradılması Yaxın Şərqdə xüsusi əhəmiyyətə malik olan, xüsusi coğrafi yer tutan Oman Sultanlığı ilə Azərbaycanın münasibətlərinin inkişafına xüsusi töhfə

verəcək. Bu addım həddindən artıq vacib və əhəmiyyətlidir.

Sevindirici haldır ki, bu dostluq qrupunun rəhbərliyinə bizim hörmətli həmkarımız Salmanova Səbinə Qədir qızı təklif olunur. İlk dəfə parlamentə seçilmiş Səbinə xanım çox təcrübəli bir həmkarımızdır. Uzun illər Ədliyyə Nazirliyində, sonra Prezident Administrasiyasında, indi isə parlamentdə ən yüksək səviyyədə fəaliyyət göstərir. Ona görə, icazə verin, komitəmiz adından həm qərar layihəsinin təsdiq olunmasını, həm də Səbinə xanımın dəstəklənməsini sizdən xahiş edim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, fikriniz nədir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyaq. Buyurun, münasibətinizi bildirin. Mən məsələni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 121 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Səbinə xanım, biz də Sizi təbrik edirik, uğurlar arzulayırıq.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi ilə bağlıdır. Bildiyiniz kimi, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bu layihələr bir oxunuşda

baxılıb qəbul edilməlidir. Biz indi gündəliyin 5-ci məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun, məlumat verin.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Dəyərli Sahibə xanım, mən də öncə yaz sessiyasının başlanması münasibəti ilə Sizi və dəyərli həmkarlarımı təbrik edirəm. İnanıram ki, parlamentin fəaliyyəti Azərbaycan dövlətinin güclənməsinə və cənab Prezidentimizin möhtəşəm siyasətinin bütün istiqamətlərdə həyata keçməsinə öz töhfəsini verəcəkdir.

İndi isə qanun layihəsi haqqında. Hörmətli həmkarlar, Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə üçün böyük potensial mövcuddur. Quruda texniki bərpa olunan enerji potensialı 135 QVt, dənizdə isə 150 QVt səviyyəsində qiymətləndirilir. Hazırkı inkişaf tempi ilə Azərbaycan daxili istehlak üçün öz qoyuluş gücündə bərpa olunan enerjinin payını 2027-ci ilədək 33,1 faizə, 2030-cu ilədək 35,5 faizə, 2035-ci ilədək isə 40,4 faizə çatdıracaqdır. Hazırda ölkəmizdə bir sıra şirkətlər tərəfindən bərpa olunan enerji layihələri həyata keçirilir. Həmin şirkətlər tərəfindən bu cür layihələrin reallaşdırılmasına maraq gündən-günə artır. Proqnozlaşdırılır ki, 2027-ci ilədək 6 günəş və 2 külək enerjisi layihəsinə 2,5 milyard ABŞ dolları məbləğində sərmayə qoyulacaqdır.

Ölkəmizdən 5 QVt-dan çox yaşıl elektrik və yaşıl qazların ixracı məqsədi ilə hazırda Xəzər–Qara Dəniz–Avropa Yaşıl Enerji dəhlizlərinin, Mərkəzi Asiya–Azərbaycan Yaşıl Enerji dəhlizlərinin, Azərbaycan–Türkiyə–Avropa Yaşıl Enerji Dəhlizi və Şərq–Qərb Yaşıl Elektrik Dəhlizinin yaradılması istiqamətində fəal işlər gedir. Bütün bunları nəzərə alaraq qeyd etmək istəyirəm ki, bizə təqdim olunan "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" üç ölkənin enerji sektorunda əməkdaşlığının yeni strateji çərçivəsini müəyyən etmək məqsədi ilə hazırlanmışdır. Bu sənəd ötən ilin noyabr ayında Bakı şəhərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası zamanı dövlət başçıları tərəfindən imzalanmışdır. Bu sənəd yaşıl və bərpa olunan enerji mənbələrinin inkişafı, enerji təhlükəsizliyinin təmin olunması və davamlı inkişaf məqsədlərinə töhfə verilməsi üçün mühüm bir addım olacaqdır.

Sazişin əsas məqsədi Paris İqlim Sazişində nəzərdə tutulmuş istixana qazı emissiyalarının azaldılması hədəflərinə uyğun olaraq, yaşıl enerjinin inkişafını təşviq etməkdir. Bu çərçivədə tərəflər bərpa olunan enerji mənbələrinin istehsalı, ötürülməsi və ticarəti sahəsində qarşılıqlı əməkdaşlıq edəcək, yaşıl hidrogen və yaşıl ammonyak texnologiyalarının tətbiqini dəstəkləyəcək. Həmçinin layihə Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının enerji sistemlərinin inteqrasiyasını gücləndirərək bərpa olunan enerjinin Avropaya və digər bazarlara ixracını asanlaşdıracaq. Bu əməkdaşlıq həmçinin orta dəhlizin

inkişafına və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə inteqrasiyasının dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin də xüsusilə qeyd etdiyi kimi, bu layihə Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır və Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkə arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlığa xidmət edir.

Sazişin həyata keçirilməsi məqsədi ilə "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, "Qazaxıstan Elektrik Şəbəkəsi Əməliyyat Şirkəti" və "Özbəkistan Milli Elektrik Şəbəkəsi" Səhmdar Cəmiyyəti arasında "Yaşıl Dəhliz Birliyi" adlı birgə müəssisə təsis edilib. Bu müəssisə layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması və icrası ilə bağlı zəruri tədbirləri həyata keçirəcək.

Saziş qeyri-müəyyən müddətə bağlanır və bu, tərəflər arasında uzunmüddətli əməkdaşlığın və davamlı inkişaf məqsədlərinin daha səmərəli həyata keçirilməsinə imkan yaradacaqdır.

Azərbaycan üçün bu saziş enerji tranziti imkanlarını genişləndirmək və yaşıl texnologiyaların tətbiqinə dair mövqeyini gücləndirmək baxımından vacib əhəmiyyətə malikdir. Qazaxıstanın zəngin təbii resursları, Özbəkistanın geostrateji mövqeyi və Azərbaycanın geniş iqtisadi imkanları, enerji infrastrukturu tərəflərə qarşılıqlı fayda təmin edən birgə əməkdaşlığa bütün imkanlar yaradacaqdır. Bu saziş yalnız enerji sektorundakı əməkdaşlığı deyil, həmçinin Azərbaycan, Qazaxıstan və Özbəkistan arasındakı tarixi dostluq münasibətlərini daha da möhkəmləndirərək onları beynəlxalq arenada birgə güc mərkəzinə çevirir. Xüsusilə enerji təhlükəsizliyinin təmin edilməsi və karbon emissiyalarının azaldılması istiqamətində birgə

səylər üç ölkənin regionda davamlı inkişaf məqsədlərinə töhfə verməsinə şərait yaradır.

Ölkəmizin enerji sektorunda önəminin artması ilə bağlı xüsusilə qeyd etməliyik ki, Avropanın neft və qaz ilə təchizatında mühüm rol oynayan ölkəmiz regional yaşıl enerji dəhlizlərinin yaradılması ilə elektrik enerjisi təchizatına da öz töhfəsini verəcəkdir. Regionları və qitələri "yaşıl enerji" ilə əlaqələndirən bu strateji əhəmiyyətli layihə sayəsində Azərbaycan nəinki Avropanın daha çox ölkəsini elektrik enerjisi ilə təchiz edəcək, eyni zamanda, Avrasiyanın "yaşıl enerji" xəritəsinin tərtibində əhəmiyyətli rola malik olacaqdır.

Layihənin çox geniş əhəmiyyətini nəzərə alaraq deputat həmkarlarımı dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sadiq müəllim.

Hörmətli həmkarlar, ikinci komitədə də baxılıb. Gəlin, qısa olaraq ikinci komitənin də təqdimatına qulaq asaq. Bu, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsidir. Bu gün komitənin rəyini hörmətli Nigar xanım Məmmədova təqdim edəcək. Buyurun, Nigar xanım.

**Nigar Məmmədova,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də müzakirə olunmuşdur. Bu saziş Mərkəzi Asiya və Qafqaz regionlarının inteqrasiyası istiqamətində yeni imkanlar açır. Regionda yaşıl enerji dəhlizinin yaradılması, in-

teqrasiya olunmuş elektrik enerjisi bazarlarının inkişafı və bərpa olunan enerjinin digər regionlara ixracının asanlaşdırılması üçün güclü təməl yaradır. Bu, həm də Bakı COP-unun regional və transregional səviyyədə mühüm nəticələrindən biridir.

Saziş Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında qardaşlıq, dostluq və strateji tərəfdaşlıq əlaqələrinin göstəricisidir. Bu sazişin praktiki nəticələri həm də üç ölkənin iqtisadiyyatının orta dəhlizdə birləşməsinə və inkişafına töhfə verəcək. Qeyd etməliyəm ki, 3 qardaş ölkənin yaşıl enerji üzrə vahid siyasət təşəbbüsləri, eyni zamanda, ötən il Şuşada imzalanan "Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi"nin də əsas bəndlərindən birini təşkil edir. Beləliklə, dərinləşən əməkdaşlıq Türk Dövlətləri Təşkilatının nüfuzunun möhkəmlənməsinə də töhfə verəcək.

Hörmətli həmkarlar, qanun layihəsinin qəbul edilməsinə səs verməyinizi sizdən xahiş edirəm. Təşəkkür edirəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Nigar xanım, çox sağ olun.

Təklif var, səsə qoyaq. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 122 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, fasilə elan edilir. Saat 3-də işimizə davam edəcəyik. Sağ olun.

*(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, işimizi davam etdiririk. Gündəliyin 6-cı məsələsinə keçirik, hörmətli deputatlar. Bu məsələ "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Sadiq müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Sadiq Qurbanov**. Çox sağ olun, dəyərli Sahibə xanım. Bu gün burada "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsini müzakirə edib, təsdiq etməliyik. Xüsusilə qeyd etmək istəyirəm ki, bu təşəbbüs qlobal enerji keçidinin sürətləndiyi bir dövrdə həm regionumuz, həm də qlobal səviyyədə dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün əhəmiyyətli bir addımdır. Azərbaycan Respublikası olaraq biz təmiz enerji həllərinin təşviqini, dayanıqlı enerji layihələrinin həyata keçirilməsini və iqlim dəyişikliyi ilə mübarizəni strateji prioritetlərimizdən biri kimi qəbul etmişik. Təmiz Enerji Mərkəzinin yaradılması da bu istiqamətdə mühüm platforma rolunu oynayacaqdır. Təmiz Enerji Mərkəzi İqtisadi Əməkdaşlıq Təşkilatının və BMT-nin Sənaye İnkişafı Təşkilatının, yəni qısaca UNIDO-nun birgə təşəbbüsü ilə yaradılmışdır. Bu mərkəz UNIDO-nun regional dayanıqlı enerji mərkəzinin qlobal

şəbəkəsinin bir hissəsi kimi fəaliyyət göstərəcəkdir, enerji keçidini dəstəkləyən və müxtəlif regionlarda uğurlu nümunələr təqdim edən platformalardan biri kimi çıxış edəcəkdir. Mərkəzin əsas məqsədləri arasında müasir, sərfəli və dayanıqlı enerji xidmətlərinə çıxışın artırılması, bərpa olunan enerji həllərinin təşviqi və üzv dövlətlər arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsi xüsusi yer tutur.

2021-ci ilin iyun ayında İqtisadi Əməkdaşlıq Təşkilatının energetika nazirlərinin iclasında Təmiz Enerji Mərkəzinə – TEM-ə ev sahibliyi edəcək ölkənin seçilməsi prosesi başlamışdır. UNIDO tərəfindən aparılan qiymətləndirmədə Azərbaycan 76 xalla ev sahibliyi statusunu əldə etmişdir. Nəzərinizə çatdırmaq istəyirəm ki, həm Türkiyə, həm də İran bununla bağlı öz namizədliyini vermişdilər. Amma Azərbaycan 76 xalla ev sahibliyi statusunu, yəni qərargahın Azərbaycanda – Bakıda olmasını təmin etmişdir.

Bildiyiniz kimi, Azərbaycan zəngin enerji resursları ilə tanınan bir ölkədir. Ölkəmiz neft və qaz sahəsində uzunmüddətli təcrübəyə malik olmaqla yanaşı, bərpa olunan enerji mənbələri baxımından da, qeyd etdiyim kimi, böyük potensiala malikdir. Xüsusilə də günəş və külək enerjisindən istifadə Azərbaycanı regionun lider ölkəsi kimi tanıdacaqdır. Xəzər dənizi sahilləri külək enerjisinin inkişafı üçün ideal şərait yaradır və təmiz enerji mərkəzi vasitəsi ilə bu potensialın reallaşdırılması həm milli, həm də regional miqyasda əhəmiyyətli töhfə olacaqdır. Nəticə olaraq qeyd etmək istəyirəm ki, Təmiz Enerji Mərkəzinin yaradılması yalnız İqtisadi Əməkdaşlıq Təşkilatının regionu üçün deyil, həm də qlobal enerji siyasəti üçün vacib bir təşəbbüsdür. Azərbaycan olaraq biz

bu mərkəzin təsis edilməsi və uğurla fəaliyyət göstərməsi üçün bütün səylərimizi göstərməyə hazırıq. İnanıram ki, bu təşəbbüs davamlı, dayanıqlı enerji keçidinə, iqlim dəyişikliyi ilə mübarizəyə və regionumuzun inkişafına mühüm töhfə olacaq. Deputat həmkarlarımı layihəni dəstəkləməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sadiq müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün Nigar xanım Arpadaraiyə söz verirəm. Nigar xanım, buyurun.

**Nigar Arpadarai**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, bu gün beynəlxalq hüquq sistemi faktiki olaraq işlək deyil, yəni böhran içindədir. Biz dünyada olan prosesləri görürük. Belə bir şəraitdə regional əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi çox vacibdir və bu bizim üçün getdikcə daha böyük əhəmiyyət kəsb edəcək. İqtisadi Əməkdaşlıq Təşkilatı bizim üçün strateji nöqteyi-nəzərdən önəmlidir. Çünki ona üzv olan dövlətlər sıx əməkdaşlıq etdiyimiz, tərəfdaşlıq etdiyimiz, strateji baxımdan bizim üçün önəmli olan ölkələrdir. Bu o deməkdir ki, Azərbaycanın bu təşkilatda rolunun gücləndirilməsi bizim milli maraqlarımıza da uyğundur. Cənab Prezident illər öncə qeyd etmişdir ki, Azərbaycanı regional liderə çevirəcək. Biz indi görürük ki, Azərbaycan regional liderdir. Bunu həm düşmənlərimiz, həm də dostlarımız qeyd edir.

Təmiz Enerji Mərkəzi İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində yaradılmış regional qurumdur və mərkəzin

əsas vəzifələri enerji təhlükəsizliyi, enerjiyə çıxış və iqlim dəyişikliklərinin təsirlərinin azaldılması istiqamətində üzv dövlətlər arasında bərpa olunan enerji və enerji səmərəliliyinin təşviq edilməsidir. Təmiz Enerji Mərkəzinin yaradılması üzv dövlətlərin bərpa olunan enerji və enerji səmərəliliyinin təşviqi, iqlim dəyişikliklərinin təsirlərinin azaldılması və davamlı enerji həllərinin inkişafı sahəsindəki kollektiv səylərini əks etdirir. Qərargahı Bakıda yerləşən bu mərkəz regional formatları gücləndirməsi məqsədi ilə yanaşı, Azərbaycanın regionda yeni texnologiyaların və enerji keçidinin aparıcısı kimi mövqeyini də gücləndirir, COP29-un sədrliyini aparan bir ölkə kimi Azərbaycanın bu istiqamətdə fəaliyyətinin məntiqi bir davamıdır. Ona görə səs verməyinizi xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, iki nəfər yazılıb. Etiraz etmirsinizsə, səsə qoyaq.

Söz verəcəyəm. Elman Nəsirov, Aydın Hüseynov. Daha heç kim yazılmasın. Bir az bundan əvvəl Elman müəllimin Siyavuş müəllimlə danışığa başı qarışmışdı. Ona görə yadından çıxıb. Buyurun.

**Elman Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirə olunan məsələnin, yəni "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında qanun layihəsi çox böyük, həm iqtisadi, həm də siyasi çəkiyə malik bir məsələdir. İlk növbədə o baxımdan böyük siyasi mənası və əhəmiyyəti var ki, İqtisadi Əməkdaşlıq Təşkilatına 10 dövlət daxildir. Bizim üçün strateji tərəfdaş olan bütün Mərkəzi Asiya ölkələri, qardaş Türkiyə dövləti, İran, Əfqanıstan – bu qədər dövlət məhz bu təşkilatın – Təmiz Enerji Mərkəzinin qərargahının Azərbaycan, Bakı şəhəri seçilməsini təsdiqləyiblər. Bu, ölkəmizin yaşıl enerjiyə,

bərpa olunan enerjiyə verdiyi çox böyük töhfənin, həmçinin etimadının bir ifadəsidir.

Azərbaycan COP29 kimi nəhəng bir tədbirə ev sahibliyi edərək dünyanın 196 ölkəsindən təxminən 80 minə qədər insanın bu tədbirə gəlişini təmin edib. Yeri gəlmişkən, 80 nəfərə yaxın dövlət başçıları, vitse-prezidentlər, baş nazirlər bu tədbirdə iştirak ediblər. Bunların hamısı bir daha təsdiqləyir ki, bu gün Azərbaycan təkcə qazıntı enerjisinə malik olan ölkə deyil, həm də yaşıl enerjiyə böyük töhfə verən bir dövlətdir. Həm də Azərbaycan bu addımı ilə məhz planetimizin xilası işinə böyük töhfə verir. Ekoloq alimlərin çox maraqlı bir tədqiqatı var və mən tanış olmuşam. Qeyd edirlər ki, son 100 il ərzində havanın illik temperaturunun 1 dərəcə artması baş verib, amma onun 0,77 dərəcəsi son onillikdə artıb. Qeyd edirlər ki, əgər belə getsə, 10-15 dərəcə illik istilik artımı Yer planetində həyatın məhv olmasına gətirə bilər. 10-15 dərəcə bunu şərtləndirə bilər. Belə getsə, 130-200 ildən sonra Yer planetində canlı qalmaya bilər. Yəni bu qədər əhəmiyyətli məsələdir. Azərbaycanın bu istiqamətdə çox ciddi potensialı var, atdığı addımlar var. Təsadüfi deyildi ki, ölkə Prezidenti cənab İlham Əliyev 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edib.

Azərbaycan, eyni zamanda, 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının həcminin 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılması ilə bağlı bir hədəf müəyyən edib və o istiqamətdə addımlar atmağa başlayıb. 2030-cu ilə qədər bizim enerji balansında yaşıl enerjinin payı 30 faizə çatmalıdır. Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycanın quruda 27,5 QVt yaşıl enerji potensialı, bərpa olunan enerji imkanı var. Onun da 3 QVt-ı külək enerjisidir. Bunun içərisində təxminən 23 QVt günəş

enerjisi təşkil edir. Təxminən 1,5 QVt da bioenerji təşkil edir. Bunlar bir daha göstərir ki, bizim bu istiqamətdə də geniş potensialımız var.

Ölkə Prezidenti cənab İlham Əliyev işğaldan azad olunmuş Şərqi Zəngəzuru və Qarabağı yaşıl enerji zonası elan edib. Qürur hissi ilə qeyd edirik ki, işğaldan azad olunmuş bu ərazilər dünyanın diqqətini həm də bərpa olunan enerji nöqteyi-nəzərindən cəlb edir. Yəni Qarabağ və Şərqi Zəngəzurda 10 QVt enerji potensialımız var. Xəzər dənizində isə bu, 157 QVt-dır. Yəni bu rəqəmlər bir daha təsdiq edir ki, Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi seçilməsinə mənəvi haqqı çatır. Azərbaycan həm yanacaq enerjisi baxımından, həm də yaşıl enerji nöqteyi-nəzərindən dünya üçün əhəmiyyətli dövlətdir, böyük töhfələr vermək potensialına malikdir. Bu baxımdan, mən belə hesab edirəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı üzvlərinin yekdil mövqeyi ilə Azərbaycanın paytaxtının məhz bu təşkilatın, bu regional qurumun, yəni Təmiz Enerji Mərkəzinin qərargahının seçilməsi düzgün, məntiqli addımdır, Azərbaycan dövlətinə, onun rəhbəri, ölkə Prezidenti cənab İlham Əliyevə, onun siyasətinə, xüsusilə də enerji təhlükəsizliyi və yaşıl enerjiyə keçid sahəsindəki siyasətinə böyük etimadın ifadəsidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, müzakirə etdiyimiz qanun layihəsi çox vacib qanun layihələrindən biridir. Hər birimizə məlumdur ki, müasir dünyanı təhdid edən ən böyük problemlərdən biri də enerji təchizatının artırılması, bu mənbələrin əldə olunmasıdır. Məlumdur ki, həm qazıntı enerjisinin

getdikcə tükənməsi, digər tərəfdən, qlobal istiləşmə, iqlim dəyişikliklərinin təsirləri gələcəkdə daha böyük fəsadlar verə bilər. Belə ki, indidən müvafiq addımlar atılmalıdır. Bu addımların sırasında ən vacibi Azərbaycanın atdığı addımlardır. 1994-cü ildə Ulu Öndərimiz Heydər Əliyev neft strategiyasını həyata keçirdi. Biz o neft strategiyasından çox böyük nailiyyətlər əldə etdik. Biz iqtisadiyyatımızın və siyasətimizin yüksəlişini təmin etmiş olduq. Bu gün ən böyük layihələrimiz və qeyri-neft sektorunun məhz inkişafı Ulu Öndərimizin 1994-cü ildə imzaladığı "Əsrin müqaviləsi"ndən başlayır. Hazırkı yaşıl enerji siyasəti, alternativ enerji siyasəti həmin siyasətin davamıdır. Biz iqtisadiyyatımızı ilk müqavilələrdən bu qədər dirçəltmişik, nailiyyətlər əldə etmişik. Ulu Öndərimizin siyasətinin davamı olaraq cənab Prezidentin bu sahədə apardığı siyasət, atdığı addımlar gələcəkdə ölkəmizi daha da dayanıqlı inkişafın təmin edilməsinə gətirib çıxaracaq.

Digər tərəfdən, Azərbaycanın bu sahədə həm təcrübəsi, həm də böyük resursları var. Bayaq çıxışlarda da səsləndi. Təkcə Xəzər dənizindən bərpa olunan enerji baxımından külək enerjisinin gücü 157 MqVt təşkil edir. Bizim quru ərazilərimizdə, eləcə də işğaldan azad olunmuş ərazilərimizdə külək və günəş enerji resurslarımız var. Bu resursların hərəkətə gətirilməsi, dünya iqtisadiyyatının bir zəncirinə çevrilməsi, əlbəttə, çox böyük bir iradə, siyasət nəticəsində əldə olunur. Ona görə də mən hesab edirəm ki, bu müqavilənin təsdiq olunması bizim gələcəkdə təkcə regionda deyil, dünya iqtisadiyyatındakı rolumuzu daha da artıracaq.

Məlumdur ki, Azərbaycan enerji sektorunda getdikcə daha böyük nailiyyətlər əldə edir. Elə bu yaxınlarda SOCAR şirkəti İsrailin Aralıq dənizindəki böyük

şirkətlərindən birinin 10 faizini əldə etməsi göstərir ki, Azərbaycan bu sahədə getdikcə daha da böyük nailiyyətlər əldə edir. Azərbaycana inam böyükdür. O inamın bir təcəssümü də Təmiz Enerji Mərkəzinin qərargahının Azərbaycanda olmasıdır. Bu da təsadüfi deyil. Çünki Azərbaycan ev sahibliyi etdiyi, eləcə də sədri olduğu bütün beynəlxalq təşkilatların nüfuzunu daim qaldırmış, onun daha da nəticəli şəkildə inkişafını təmin etmişdir. Buna Qoşulmama Hərəkatını misal çəkə bilərik. Asiya Parlament Assambleyasının sədrliyi Azərbaycandadır. Yaxın günlərdə onun da yığıncaqları keçiriləcək. Ən böyük nailiyyətimiz isə COP platformasının Azərbaycanda keçirilməsidir, Azərbaycanın bu sahəyə verdiyi töhfələrdir.

Ən nəhayət, biz bu məntiqə söykənirik ki, Azərbaycanın bu sahədəki addımları dünya üçün yeni nümunələr ortaya qoyacaq. Bu isə bizim iqtisadi və siyasi inkişafımızın təmin olunmasında əsas rol oynayacaq. Qanun layihəsinə səs verirəm.

**Sədrlik edən.** Sağ olun, Aydın müəllim.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.17 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələlərə keçirik. Qeyd edim ki, növbəti üç

qanun layihəsi bir oxunuşda baxılıb qəbul ediləcək. Gündəliyin 7-ci məsələsi “Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədrinin müavini Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**Elşən Musayev**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram. Müzakirəyə təqdim olunan qanun layihəsi Azərbaycan milli mətbuatının 150 illiyi ilə bağlı yubiley medalının təsis edilməsi və onun Əsasnaməsinin təsdiq edilməsi barədədir. Əsasnamənin 1-ci maddəsində təltif ediləcək şəxslərin dairəsi müəyyənləşir və həmin dairəyə medianın inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər daxildir.

2-ci maddədə qeyd olunur ki, 1-ci maddədə göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif olunur.

Nəhayət, 3-cü maddənin tələbi belədir ki, haqqında danışılan yubiley medalı döşün sol tərəfinə və Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

Hörmətli həmkarlar, əlbəttə ki, müvafiq yubiley medalı Azərbaycan praktikasında ilk deyil və bu sırada Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı təsis

edilmiş medalı, Ali Məhkəmənin, Bakı Dövlət Universitetinin, Azərbaycan Pedaqoji Universitetinin 100 illik medalını və sair bu kimi nümunələri göstərmək olar. Qeyd edim ki, milli mətbuatın 150 illik yubiley medalının təsis olunması ilə bağlı parlamentə təqdim edilən layihə yetərincə peşəkar hazırlanıb, kifayət qədər dəqiqdir. Burada medalın təsvirindən tutmuş ən xırda elementlərə qədər hər şey tam təfsilatı ilə göstərilib.

Çox hörmətli Sahibə xanım, çox hörmətli millət vəkilləri, mən bu yöndə xüsusi bir məqama da toxunmaq istəyirəm. Azərbaycan mediası, Azərbaycan mətbuatı hər zaman, ələlxüsus da ən həssas məqamlarda Azərbaycan dövlətinin və dövlətçiliyinin yanında olub. Eyni zamanda, Azərbaycan jurnalistikası və jurnalistləri əksəriyyət etibarı ilə peşəkardır və öz işlərini də olduqca ləyaqətlə icra edirlər. Amma bir tərəfdən də, tam başqa bir qütbdə qərarlaşan təsisatlarmı, dəstələrmi, cinayətkar qruplaşmalarmı deyim, bilmirəm, onlar da var. Həmin peşəkarların tam əksi olaraq medianın, mətbuatın adını istismar etmək, onu mənimsəmək, daha dəqiq desək, öz çirkin əməllərini həyata keçirmək üçün istifadə etməyə yönəliblər. Adlarını çəkə bilərəm – “Azadlıq radiosu”, “Azadlıq qəzeti”, Meydan TV, Toplum TV, “Azad söz” və sair bu kimi platformalar. Belələrinin Azərbaycan mediasına və mətbuatına qətiyyən aidiyyəti yoxdur. Bir daha təkrarlamaq istəyirəm: onlar cinayətkar ünsürlərdən ibarət yığma komandadır, media adı ilə yaransalar da, əslində, elə birinci, medianı gözdən və nüfuzdan salmağa yönəlik layihələrdir, xaricdən maliyyələşən və tezisləşən qurumlar, nəhayət, ermənilərlə ovunan, fransız dəyirmanına su tökən namərdlərdir, nankorlardır.

Çox hörmətli həmkarlar, bu yaxınlarda bölgələrimizin

birində bir hadisə oldu. Onun təfərrüatına və detallarına varmaq istəmirəm. Əslində, vara da bilərəm. Burada gizli bir şey yoxdur. Söhbət İmişli hadisələrindən gedir. Bu proseslərdə həmin ünsürlərin sərgilədiyi fəaliyyət, elədikləri hərəkət, məsələni siyasiləşdirmək və kontekstdən çıxarma cəhdi bir daha göstərdi və sübut etdi ki, – ifadəmə görə üzr istəyirəm, – bunlardan heç vaxt adam olmayacaq, bunlar heç vaxt  islahat meyilli olmayacaqlar. Bunlar eyni dairədən olanlardır və eyni şəbəkəyə aiddirlər. Üstəlik, bu şəbəkənin adı da, soyadı da, eni də, boyu da, ayağı da, başı da,  A nöqtəsindən Z nöqtəsinə qədər qət etdikləri  yolun trayektoriyası da, radiusu da hər birimizə gün kimi aydındır.

Sonda mən cənab Prezidentə minnətdaram ki, Azərbaycan mediasına və mətbuatına bir daha öz ehtiramını və diqqətini nümayiş etdirərək parlamentə belə bir layihəni təqdim edib. Təbii ki, eyni zamanda, hörmətli həmkarlarımdan səsvermədə dəstək gözləyirik. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun.

Səsə qoymaq təklifi var. Xahiş edirəm, onda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.23  dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələmiz "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa müəllim Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Cənab Prezident İlham Əliyevin daxili siyasət kursunun ən mühüm və prioritet istiqamətlərindən biri sosial siyasət, əhalinin sosial müdafiəsi və sosial təminatı sahəsində aparılan siyasətdir. Cənab Prezident çox haqlı olaraq qeyd edir: "Azərbaycan sosial dövlətdir, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, onun qayğıları dayanır, onun xoşbəxtliyi, onun sosial rifah halı dayanır". Məhz bu siyasətdən çıxış edərək cənab Prezidentin fərman və sərəncamları ilə 2018-ci ildən başlayaraq ölkədə dərin sosial islahatlar aparılır. 2018–2024-cü illər ərzində 4 dərin sosial islahatlar zərfi qəbul edilmişdir. Bu zərflərin qəbul edilməsi nəticəsində 4 milyondan çox soydaşımızın pensiyaları, əməkhaqları, müavinətləri, təqaüdləri, ünvanlı sosial yardımları və digər sosial təminatları yüksəlmişdir. Bu sosial zərflərin ümumi büdcə xərci 7 milyard manat təşkil etmişdir. Aparılan islahatlar nəticəsində 2018–2024-cü illərdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2,4 dəfə, müavinət və təqaüdlərin ödənilməsində 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 2 dəfə, median əməkhaqqında 2,2 dəfə artım olmuşdur. Bu illər ərzində əməkhaqqı fondu üç dəfədən çox böyümüşdür.

Sosial müdafiə və sosial təminat sahəsində vətəndaşların sosial rifahının gücləndirilməsi istiqamətində aparılan işlərin davamlı olaraq cənab Prezident tərəfindən 2024-cü il dekabrın 23-də "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam imzalanmışdır. Həmin sərəncama görə, 2025-ci il yanvarın 1-dən minimum əməkhaqqının məbləği 16 faiz artırılaraq 400 manata çatdırılmışdır. Həmin sərəncamın 2-ci bəndində isə cənab Prezident Nazirlər Kabinetinə tapşırıq vermişdir ki, 2025-ci il fevralın 1-dən minimum pensiyanın məbləğinin 320 manata qaldırılması ilə bağlı təkliflərini dövlət başçısına təqdim etsinlər.

Bu gün müzakirəyə çıxardığımız qanun layihəsi cənab Prezidentin həmin sərəncamından irəli gələn məsələnin qanunvericilikdə həlli ilə bağlıdır. Buna görə də "Əmək pensiyaları haqqında" Qanunun 6-1-ci maddəsinə dəyişiklik təklif olunur və pensiyaların minimum məbləğinin fevral ayının 1-dən hesablanmaqla 320 manata çatdırılması təklif edilir.

Hörmətli həmkarlar, onu da deyim, cənab Prezidentin sərəncamına uyğun olaraq, hökumətə tapşırıq verilmişdir ki, 3 ay müddətində sosial müavinətlərin və təqaüdlərin də artırılması ilə bağlı öz təkliflərini hazırlasınlar və inşallah, yəqin ki, mart ayının sonlarında biz bu sahədə də artımları görəcəyik.

Bütövlükdə, qanun layihəsi komitədə müzakirə olunmuş və bəyənilərək Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Hörmətli həmkarlar, yazılan yoxdur. Mən məsələni səsə qoyuram.

Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.28 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Möhtərəm Prezidentimiz tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmiş qanun layihəsi sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması ilə bağlı müəyyən edilmiş müddətin daha 1 il uzadılması ilə bağlıdır.

Bildiyiniz kimi, bu qanun 2015-ci ildə qəbul edilibdir. Həmin müddətdən etibarən, demək olar ki, hər il bu qanunun tətbiqedilmə müddəti uzadılır. Sonuncu dəyişikliyə əsasən 2025-ci il yanvarın 1-də bu müddət başa çatır və təqdim edilmiş qanun layihəsi ilə həmin müddət 2026-cı il yanvarın 1-nə kimi uzadılır.

Qeyd etmək istərdim ki, bu qanun ölkəmizin iqtisadi qanunvericilik sistemində sahibkarlıq fəaliyyəti üçün müdaxilələrin, süni maneələrin aradan qaldırılması baxımından olduqca islahatçı, radikal və liberal bir qanundur. Hesab edirəm ki, hörmətli həmkarlarımız bu layihəni dəstəkləyəcəklər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

2 nəfər yazılıb – Rəşad Mahmudov və Göydəniz Qəhrəmanov. Rəşad müəllim, buyurun

**Rəşad Mahmudov.** Çox hörmətli xanım sədr, çox dəyərli millət vəkilləri. Sözügedən qanun layihəsinin 2015-ci ildən tətbiqi, əlbəttə ki, ölkəmizdə biznes mühitinin canlanması, investisiya axınının artması, bürokratik maneələrin azalması və eləcə də, müəssisələrdə aparılan mütəmadi yoxlamalar sayəsində bəzən bir çox qeyri-rəsmi xərclərdən xilas etməklə və biznesin rentabelliyini artırmaqla yanaşı, ölkədə ümumi iqtisadi vəziyyətə müsbət təsir göstərmişdir. Amma müəyyən yoxlamaların ləğvinin ölkədə bəzi özəl tibb müəssisələrində gigiyena, xidmət keyfiyyəti və peşəkar standartların aşağı düşməsinə səbəb olduğu bu gün hamımıza aşkardır.

Sui-istifadə halları. Əfsuslar olsun ki, bəzi özəl müəssisələrdə, eləcə də tibb müəssisələrində yoxlamaların olmaması keyfiyyətsiz və sertifikatsız tibbi xidmətlərin təqdimi ilə nəticələndi. İstehlakçı hüquqlarının müdafiəsində problemlər yarandı, saxta və standartlara cavab verməyən müəssisələrin çoxalmasını müşahidə edirik. Bu o deməkdir ki, ölkədə özəl müəssisələrin hər birində bu vəziyyət var. Ölkədə yetəri qədər yüksək səviyyəli tibbi xidmət göstərən müəssisələrimiz var. Dünya təcrübəsindən də bilirik ki, özəl tibb müəssisələri həm də ölkələrdə ümumi tibbi keyfiyyətin artırılması üçün

lokomotiv rolu oynayır. Amma bəzən bu şəkildə yoxlamalardan sui-istifadə edərək nəzarətsiz qalan tibb müəssisələrinin bu şəkildə addımlar atması, əfsuslar olsun ki, ölkədə cəmiyyətlə tibb sahəsi mütəxəssisləri arasında bəzən uçurumların yaranmasına səbəb olur.

Hamıya bəllidir ki, bu yoxlamaların dayandırılmasından bu günə qədər keçən dövr içərisində Azərbaycanda səhiyyə büdcəsi 4,2 dəfə artmış vəziyyətdədir. Ölkədə dövlət tərəfindən həyata keçirilən səhiyyə islahatlarının ən yüksək səviyyədə tətbiq olunması üçün bütün enerjilərdən istifadə olunur. Mən bu yoxlamaların dayandırılmasının birmənalı olaraq ölkədəki sahibkarlıq fəaliyyətinə və iqtisadi rentabelliyə müsbət təsirini qəbul etməklə birlikdə, bütün millət vəkillərini bu qanun layihəsinə dəstək verməyə çağırıram. Amma bununla yanaşı, mütləq bir şəkildə bu qanunun yaratmış olduğu bəzi imkanlardan sui-istifadə hallarının azalması üçün aidiyyəti qurumlarda, eləcə də qanunvericilik orqanında bəlli müzakirələrin aparılmasına, bəlli qaydaların və qanunların xüsusilə tənzimlənmə mexanizmində düzənlənməsinə ehtiyac var.

Mən bir daha qanun layihəsinə dəstək verəcəyimi bildirir və fürsət yaratdığınıza görə də təşəkkür etmək istəyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Göydəniz Qəhrəmanov. Buyurun.

**Göydəniz Qəhrəmanov.** Hörmətli xanım sədr, dəyərli millət vəkilləri, media nümayəndələri. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Qanunda dəyişiklik edilməsi barədə 2026-cı il yanvarın 1-dək Azərbaycan Respublikası ərazisində yoxlamaların dayandırılması sahibkarlığın inkişafını daha da genişləndirir. Eyni zamanda, sahibkarların iqtisadiyyatımı-

za investisiyalarını və yeni iş yerlərinin açılmasını artırır.

Dövlət başçısının diqqəti və qayğısı nəticəsində hər il respublika ərazisində yoxlamalar 1 il müddətinə dayandırılır və sözsüz ki, bu addım sahibkarları stimullaşdırır. Dövlətimiz tərəfindən sahibkarlığın inkişafı üçün bir çox işlər görülür. Sevindirici haldır ki, ölkənin iqtisadiyyatında sahibkarların rolu və sayı ildən-ilə artır. Məşğulluğun təmin olunmasında sahibkarlığın xüsusi rolunu nəzərə alaraq cəmiyyətdə sahibkarlığın dəstək əhvali-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədi ilə 2016-cı ildə cənab Prezidentin Sərəncamı ilə Sahibkarlar Günü təsis edilmiş və hər il dövlət başçısı tərəfindən sahibkarlar təltif olunurlar. Bu da dövlətimizin bu sahəyə böyük dəstək göstərməsinin bariz nümunəsidir.

Qanun layihəsinə səs verəcəyəm və həmkarlarımı da səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən indi məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.34 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. İndi biz gündəliyin 10-cu məsələsinə keçirik. Bu məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu

layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən yenə də Sizdən xahiş edəcəyəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, bu qanun layihəsi ilə bağlı həm birinci oxunuşda, həm də ikinci oxunuşda ətraflı məlumat verilmişdi. Bir daha xatırlatmaq istərdim, qanun layihəsinin mahiyyəti bundan ibarətdir ki, təhlükəsizlik, müdafiə təyinatlı mallar, texnika, texniki vasitələr, o cümlədən proqram təminatları üçün bu məhsulların idxalı, satışı üçün əlavə dəyər vergisi üzrə güzəştlərin tətbiqindən ötrü təsdiqedici sənədləri təqdim edən qurumların siyahısına Baş prokurorluq da daxil olur.

Üçüncü oxunuşda bu layihənin dəstəklənməsini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Üçüncü oxunuşdur, hörmətli həmkarlar. Sualı olan da yoxdur. Ona görə mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.36 dəq.) |
|---|---:|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə

qanun layihələridir. Layihəyə Mədəniyyət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Günay xanım Əfəndiyevaya söz verirəm. Günay xanım, buyurun.

**Günay Əfəndiyeva,** *Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini.*

Çox sağ olun, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən də Milli Məclisin yaz sessiyasının başlanması ilə əlaqədar hər birinizi təbrik etmək istəyirəm və inanıram ki, Azərbaycan parlamenti bu sessiyada da hər zamankı kimi öz işini, öz fəaliyyətini ən yüksək səviyyədə davam etdirəcəkdir.

Bilirsiniz ki, bu gün bizim komitəmizin sədri hörmətli Polad Bülbüloğlu üzrlü səbəbə görə iştirak edə bilmir. Sabah onun möhtəşəm yubileyi – 80 yaşı tamam olur. Sizə gözəl bir xəbərim var. Elə bu dəqiqələrdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən sərəncam verildi və Polad Bülbüloğlu "1-ci dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif olundu. Mən Mədəniyyət komitəsi adından Polad müəllimi ürəkdən təbrik etmək və gələcək fəaliyyətində can sağlığı, uğurlar arzulamaq istəyirəm.

Qanun layihəsi müvafiq qaydada komitəmizdə müzakirə edilmişdir. Rəy müsbətdir. Xahiş edirəm, səsə qoyasınız. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Günay xanım.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.38 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 5 məsələmiz qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Birinci oxunuşun tələblərini sizin yadınıza salıram.

Biz gündəliyin 12-ci məsələsinə keçirik. Bu məsələ "Aviasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, cənab Prezident tərəfindən təqdim olunan bu qanun layihəsi ilk növbədə qanunda əvvəlki variantda qəbul olunmuş versiyada aviasiya hadisələrinin və insidentlərinin araşdırılması ilə xüsusi dövlət orqanının, yəni müvafiq icra hakimiyyəti orqanının məşğul olmasını nəzərdə tutur. Təqdim edilmiş qanun layihəsinə əsasən kollegial qaydada baxmaq şərti ilə indi səlahiyyətli, xüsusi qurum bu insidentləri araşdıracaqdır.

Bir daha xüsusi olaraq vurğulamaq istərdim ki, bu qanun layihəsi cənab Prezident tərəfindən dekabr ayının 19-da təqdim edilmişdir. Bu layihənin digər bir dəyişikliyi həm də ondan ibarətdir ki, burada anlayışlar sırasında "aerodrom istismarçısı" anlayışı verilibdir. Bunun da mahiyyəti bundan ibarətdir ki, indiyə kimi istismarçı olaraq hüquqi və fiziki şəxslər müəyyən edilmişdirsə də,

artıq bu dəyişikliklərdən sonra həm də müvafiq dövlət orqanı aerodromların istismarçısı kimi müəyyən edilir.

Qanunun birinci oxunuşda dəstəklənməsini hörmətli həmkarlarımızdan xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Çıxış etmək istəyən yoxdur. Ona görə də mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.40 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələyə keçirik. Bu, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz vermək istəyirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar, məlumdur ki, 2021-ci il 27 dekabr tarixli "Dövlət satınalmaları haqqında" Qanuna müvafiq olaraq, Cinayət Məcəlləsinin 308 prim-2 və İnzibati Xətalar Məcəlləsinin 445 prim-1 maddələri ilə dövlət satınalmaları haqqında qanunverici-

liyin pozulmasına görə məsuliyyət müəyyən edilib. Lakin 2024-cü il yanvarın 1-dən dövlət satınalmaları haqqında yeni qanun qüvvəyə mindiyi üçün, əvvəlki qanun ləğv edildiyindən həm cinayət, həm də inzibati məsuliyyətə səbəb olan dövlət satınalmaları haqqında qanunvericiliyin pozulması hallarına görə məsuliyyətin yeni qanunun tələblərinə uyğun formada yenidən müəyyən edilməsi zərurəti yaranıb. Hazırda müzakirəmizdə olan layihə "Dövlət satınalmaları haqqında" yeni Qanununun 58-ci maddəsinə müvafiq olaraq hazırlanıb və dəyişikliyə əsasən dövlət satınalmaları haqqında qanunvericiliyin pozulmasına görə cinayət və inzibati məsuliyyət nəzərdə tutur.

Dəyişikliyin ikinci istiqaməti İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsinə əsasən dövlət satınalmaları haqqında inzibati qanunvericiliyin pozulmasına görə məsuliyyətə cəlbetmə müddətinin artırılması ilə bağlıdır. Bildiyiniz kimi, hazırda dövlət satınalmaları haqqında inzibati qanunvericiliyin pozulmasına görə məsuliyyət müddətinə cəlbetmə 4 aydır. Bu müddət qısa olduğuna görə pozuntu faktlarını özündə əks etdirən sübutların araşdırılması, onlara hüquqi qiymət verilməsi üçün bir sıra hallarda kifayət etmirdi və bu istiqamətdə məqsədə çatılması qarşısında ciddi çətinliklər yaradırdı. Hazırda müzakirəmizdə olan layihə ilə isə aidiyyəti istiqamətdə inzibati məsuliyyətə cəlbetmə müddətinin bir ilədək artırılması təklif edilir.

Qeyd edilənləri nəzərə alaraq bir daha əminliklə deyə bilərik ki, cari layihə dövlət satınalmaları haqqında qanunvericiliyin pozulmasına qarşı mübarizənin daha səmərəli həyata keçirilməsinə xidmət edəcək. Azərbaycan Respublikasının rəqabət siyasətinin prinsiplərinin, o cümlədən sahibkarlıq fəaliyyəti də daxil olmaqla iqtisadi fəaliyyətin

azad və sağlam rəqabət şəraitində həyata keçirilməsinin təmin olunması, iqtisadiyyatın inhisarsızlaşması, rəqabətin təmin olunması, qorunması, inkişaf etdirilməsi, stimullaşdırılması bütün bazar subyektləri üçün bazara sərbəst giriş, resurslara bərabər əlçatanlıq və bərabər tənzimləmə şərtlərinin müəyyən edilməsi və bütövlükdə, iqtisadi mühitdə şəffaflığın artırılmasına səbəb olacaq. Bu mənada hər birinizi məsələyə səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Çıxış etmək istəyənlər var. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri. Bu məsələni dəstəkləyirəm, ona səs verəcəyəm. Həmkarlarımdan da xahiş edirəm, səs versinlər. Vacib məsələlərdən biridir.

Bayaq medalların təqdimatı, təsisi məsələsində hörmətli Elşən müəllim bir məsələ qaldırdı. İmişli ilə bağlı bir fikir ifadə etdi. Təbii ki, oradakı hadisələri həm Avropada erməni çörəyi yeyənlər, həm də Azərbaycanda ermənilərə xidmət edənlər tamam başqa, düzgün olmayan istiqamətə yönəltdilər. Amma ortada bir məsələ də var. Heç kəs istəməz ki, kimin isə övladını vurub öldürsün, hətta o qəzanı törədən adam belə bu məsələnin olmasını istəməzdi. Hadisə baş verib. Mən İmişlidən olan hər iki deputatla söhbət etmişəm.

Hörmətli Sahibə xanım, rayon mərkəzindən 3 kilometr aralıqdadır. İcra başçısı, niyə durub ora gəlmirsən? Polis rəisi, niyə durub gəlmirsən? Prokurordan başqa heç kim o camaatın qabağına çıxmadı. Bu xalqdır, insanlardır, insanı başa salmaq lazımdır. Səni orada öldürəcəklər? Əksinə, qabaqlarına polis düzdülər və camaatı qıcıqlandırdılar.

Bütün Azərbaycan xalqı bu gün Prezidentini dəstəkləyir, Prezidentini sevir, Prezidentə fədadır. Bizim hamımızın canı Prezidentə fədadır. Amma bu camaatın qarşısına çıx, bir ünsiyyət qur, başa sal. Axı, niyə camaatdan kənara qaçırsınız? Gedin, məsələləri həll edin.

Cinayət Məcəlləsi. 18 nəfər dövlət əmlakına ziyan vurduğuna görə, əsəblərini idarə etmədiyinə görə həbs olunubdur. Mən hüquq mühafizə orqanlarından xahiş edərdim ki, onları da bağışlasınlar. Cavan uşaqlardır, ev-eşiklərinə getsinlər. Amma belə hərəkətlərdə rayon rəhbəri, rayonun hüquq mühafizə orqanları insanların qabağında olmalıdırlar. Əgər insanların qabağına çıxmağa onun üzü yoxdursa, ərizəsini yazsın, evinə getsin, vəssalam. Təşəkkür edirəm.

**Sədrlik edən.** Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov.** Çox təşəkkür edirəm. Çox hörmətli xanım sədr, dəyərli millət vəkilləri, mən də bu qanun layihəsi ilə bilavasitə əlaqəli olan bir məsələyə diqqət çəkmək istəyirəm. Bildiyiniz kimi, "Dövlət satınalmaları haqqında" Qanun dövlət xəstəxanalarının fəaliyyətini tənzimləyən mühüm hüquqi çərçivədir. Unutmayaq ki, bu gün Səhiyyə Nazirliyi tərkibində, həmçinin icbari tibbi sığorta və dövlətin digər publik hüquqi şəxsləri də, sadəcə, bu qanunun ehtiva etdiyi sərhədlər çərçivəsində hərəkət edə bilirlər. Lakin bu qanunun bəzi məhdudiyyətləri və prosedur tələbləri səhiyyə müəssisələrinin gündəlik fəaliyyətində və planlamasında müəyyən çətinliklər yaradır.

Birinci, gecikmələr və bürokratik əngəllər. Bunlar bu gün ölkədə həyata keçirilən səhiyyə islahatlarının daha verimli və daha əlçatan olmasına az da olsa, əngəl yaradır. Demək olar ki, bütün tibb müəssisələrinin və rəhbərlərinin bu gün ən çox əziyyət çəkdiyi hadisələrdən biridir.

Satınalma prosesinin uzun və çoxpilləli olması nəticəsində xəstəxanalar üçün vacib avadanlıq, dərman və tibbi ləvazimatların təminatı gecikir. Tender prosedurlarının keçməsi uzun müddət tələb etdiyindən 2024-cü ildə TƏBİB daxil olmaqla bütün qurumların yaşadığı ən böyük problemlərdən biri odur ki, təcili vəziyyətlərdə nəinki tibbi avadanlıqlar, bəzən günlük istifadə olunan və sifariş verilən maddələrin, dərman preparatları ilə birlikdə şprislərin və pambığın alınması... Birmənalı olaraq bu qanun layihəsi xaricinə çıxıldığı zaman bu, hüquqi məsuliyyət daşıdığından dövlət müəssislərinin rəhbərləri buna heç cür imza ata bilmirlər. Təchizatçıların öhdəliklərinin tam yerinə yetirilməsi ilə əlaqədar problemlər yaranır. Halbuki bu qanun layihəsinin tətbiqi ölkədə satınalmalar üzrə var olan problemlərin həlli üçün nəzərdə tutulmuşdu. Amma bildirmək istəyirəm ki, dünya ölkələrində bununla əlaqədar təcrübələr yaxın keçmişdə – 20 il bundan qabaq Türkiyə Cümhuriyyətində də yaşanmışdı. Qısa müddət içərisində səhiyyəyə xüsusi bir yanaşma ilə bu problemin həllinə nail olundu.

Xüsusilə reanimasiya və təcili yardım şöbələrində lazım olan tibbi ləvazimatlar dərhal alına bilinmədiyi üçün xəstələrin həyatı risk altına düşür. Əlbəttə, bu gün məsələnin qanun çərçivəsində həll yolu birillik dərmanların əvvəlcədən alınmasını ehtiva edir. Bu da birmənalı olaraq lazımsız alınan mallar hesabına rentabelliyin aşağı düşməsidir və xəstəyə kömək etmək əvəzinə, ölkənin maliyyə resurslarına zərbə vura bilər deyə, mən düşünürəm ki, bu məsələdə xüsusi bir yanaşmaya ehtiyac var.

Ən əsası da tibbi personalın administrativ işlərə daha çox vaxt ayırması üçün bir səbəb yaranır. Tibbi xidmətin keyfiyyətinə fokuslanmaq əvəzinə, – əmin olun ki, bunu

bu işin içində olan bir insan kimi deyirəm, – yəni insanların bürokratik proseslərə daha çox cəlb olunması, əsas vəzifələrdən uzaq qalması üçün səbəb yaranır. Düşünürəm ki, qanunvericilikdə hansı isə dəyişikliklərə ehtiyac var. Xüsusən təcili hallarda operativ satınalma mexanizmlərinin yaradılması mütləqdir. Sadələşdirilmiş prosedurlara, kiçik və təcili satınalmalar üçün səhiyyə sahəsində daha sərfəli mexanizmlərə ehtiyac var. Rəqəmsal sistemin tətbiqi ilə satınalmaların sürətləndirilməsinə ehtiyacımız var. Bəzi tibbi avadanlıqların və dərmanların səmərəli təmin edilməsi üçün xəstəxana rəhbərlərinə daha geniş səlahiyyətlər verilməsi... Düşünürəm ki, gələcəkdə bütün bu problemlərin həlli dövlət xəstəxanalarında daha effektiv və operativ işin, tibbi xidmət keyfiyyətinin artırılması ilə birlikdə cənab Prezident tərəfindən həyata keçirilən səhiyyə islahatlarının daha səmərəli və daha dayanıqlı davam etməsinə imkan yaradacaq.

Mən fürsətdən istifadə edərək bu problemləri, həmçinin hazırda səhiyyə işçilərinin və səhiyyə qurumlarının problemlərini dilə gətirməklə bu qanun layihəsinə səs verəcəyimi bildirirəm və bütün millət vəkillərini də qanuna səs verməyə çağırıram. İmkan yaratdığınıza görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Sizdən qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.51 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

Səs vermədi 1
İştirak edir 114
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Sosial sığorta haqqında" Qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü Nigar xanım Məmmədovaya söz verirəm. Nigar xanım, buyurun.

**Nigar Məmmədova,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında parlamentə ünvanlanmış və müzakirənizə təqdim olunmuş "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində təsbit edilməsi nəzərdə tutulan əlavə və dəyişiklikləri diqqətinizə çatdırmaq istəyirəm. Qeyd etmək istəyirəm ki, həssas qrupun sosial rifahının yaxşılaşmasına yönələn layihə Əmək və sosial siyasət komitəsində birinci oxunuşda müzakirəyə çıxarılmışdır. Əsas məqsəd əlilliyi olan şəxslərin vergi inzibatçılığının sadələşdirilməsi və onların özünüməşğulluq təşəbbüslərinin dəstəklənməsidir. Ümumiyyətlə, əlilliyi olan şəxslərin əmək fəaliyyəti ilə məşğul olması onların cəmiyyətdə sosial-iqtisadi münasibətlərə inteqrasiyasının əsas vəzifələrindəndir. Bu, eyni zamanda, sosial sahibkarlıq fəaliyyətini təşviq etməklə yanaşı, həm

də əlilliyi olan insanlara yaradıcılıq potensialını üzə çıxarmağa, həyata bağlılıq, özgüvənin artırılmasına, onların sosial adaptasiyasının gücləndirilməsinə kömək edir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti də bu sahənin inkişafına xüsusi töhfə verir. Əlilliyi olan şəxslərin özünüməşğulluğunun stimullaşdırılması üçün hərtərəfli dəstəyin verilməsi, habelə onların hazırladığı məhsullar üçün müvafiq satış şəbəkələrinin yaradılması da mühüm addımlardandır. İnzibati maneələrin maksimum dərəcədə azaldılması, dövlət orqanlarına verilən hesabatların sadələşdirilməsi, həmçinin sosial sahibkarlıqla bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi də bu sahədə əlavə stimuldur. Təbii ki, inkişaf edən rəqəmsal mühit imkanları daha da genişləndirir.

Qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın tədbirlər planının icrası çərçivəsində hazırlanmışdır. Layihədə nəzərdə tutulan dəyişikliklər qəbul olunacağı təqdirdə, əl işlərinin satışından əldə olunan gəlirlərdən ödəmə mənbəyində 2 faiz dərəcəsi ilə verginin tutulması təmin ediləcək, satışın həyata keçirilməsi üçün xüsusi elektron portal yaradılacaq, əl işlərinin satışını həyata keçirən əlilliyi olan şəxslər portalda qeydiyyatdan keçəcək, əl işlərinin satışından əldə olunan gəlirlər vergilər çıxdıqdan sonra əlilliyi olan şəxslər üçün açılmış bank hesabına köçürüləcək, portalda qeydiyyatdan keçmiş əlilliyi olan şəxslər vergi orqanında qeydiyyatdan keçmək, vergi hesablamaq, vergi hesabatları tərtib etmək və vergi

orqanına təqdim etmək kimi işlərdən azad olacaq və bu işlər portal vasitəsi ilə elektron qaydada onların əvəzinə həyata keçiriləcək. Həmçinin əl işlərinin satışından əldə olunan gəlirlər məcburi dövlət sosial sığorta haqqı hesablanmayan gəlir növlərinə aid ediləcək. Eyni zamanda, xüsusi olaraq vurğulanmalıdır ki, layihə ilə əl işlərinin satışını həyata keçirən əlilliyi olan şəxslər üçün yeni vergilər müəyyən olunmur.

Hazırda Vergi Məcəlləsində mövcud vergi rejimləri bu kateqoriyadan olan şəxslərin vergi orqanlarında qeydiyyata alınması şərti ilə tətbiq olunacaq. Layihənin icrası, əlilliyi olan şəxslərin əmək bazarında rəqabət qabiliyyətinin artırılmasına da təkan verəcək.

Hörmətli həmkarlar, qanun layihəsinin birinci oxunuşda dəstəklənməsini sizdən xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Nigar xanım, sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Azər müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Layihə ilə bağlı mahiyyəti üzrə hörmətli həmkarımız Nigar xanım ətraflı məlumat verdi. Komitənin rəyi müsbətdir. Biz də layihəni dəstəkləyirik.

**Sədrlik edən.** Çox sağ olun, çıxışa yazılan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.57 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 114
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ “Tibbi sığorta haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün sözü komitənin sədri hörmətli Əhliman müəllimə verirəm. Əhliman Əmiraslanov. Buyurun.

**Əhliman Əmiraslanov**, *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişikliklər icbari tibbi sığortanın tətbiqindən məmnunluq səviyyəsini təmin etmək, habelə ilkin tibbi sanitariya yardımının təkmilləşdirilməsi üçün zəruri tədbirlər görmək, əhalinin həssas təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə təklif olunur. Bu baxımdan qanunun 16.4-cü və 16.5-ci maddələrinə müvafiq dəyişikliklər edilərək bu qanunun müştərək maliyyələşmə məbləğinə aid hissələrinin tətbiqinin 2026-cı il yanvarın 1-dən həyata keçirilməsi nəzərdə tutulur. Həmçinin 15.4-cü maddənin ləğv edilməsi ilə tibbi xidmətlərin icbari tibbi sığorta vəsaiti hesabına təmin edilməsi zamanı sığortaolunanların ixtisaslı həkim yardımı üçün inzibati ərazi vahidindən asılı olmayaraq müştərək maliyyələşmə məbləği tətbiq edilmədən müraciət prosesi sadələşdirilir.

Qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim.

Çıxış etmək istəyən yoxdur. Xahiş edirəm, qanun

layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.59 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz, əslində, sonuncu məsələmizdir. Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Qanun layihəsi sosial kirayə müqaviləsi əsasında dövlət və ya bələdiyyə mənzil fondundan yaşayış sahələri əldə edilməsinin və yaşayış sahəsinə ehtiyacı olan həssas kateqoriyaya aid şəxslərin uçota götürülməsinin hüquqi əsaslarının təkmilləşdirilməsini nəzərdə tutur. Layihə ilə bağlı təqdim olunan arayışda həssas kateqoriyadan olan şəxslərin siyahısı qeyd olunmuşdur. Bunlar şəhid ailələri, qazilər, Çernobıl əlilləri və uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarıdır. Əlavə olaraq bu sahədə şəffaflığın, ədalət prinsipinin

müəyyən olunması məqsədi ilə yaşayış sahəsinə ehtiyacı olan qismində vətəndaşların uçota alınması ilə bağlı bir əlavə edilir. Xüsusi olaraq bildirilir ki, qeyd olunan kateqoriyadan olan vətəndaşlar sosial kirayə müqaviləsi əsasında dövlət mənzil fondundan yaşayış sahəsini almaq məqsədi ilə yalnız bir dəfə yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alına bilərlər.

Sonda məlumat üçün bildirim ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yaşayan həssas kateqoriyadan olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. 2025-ci ilədək 15 min 600 mənzil və fərdi ev şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə və həssas təbəqədən olan digər şəxslərə verilmişdir.

Deputat həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən var. Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi ilə bağlı münasibət müsbətdir, çünki bu, doğrudan da, xüsusi kateqoriyadan, həssas kateqoriyadan olan insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün dövlətimiz tərəfindən, cənab Prezident tərəfindən aparılan siyasətin qanunvericilikdə başqa bir formada inkasıdır, qanunvericiliyin təkmilləşdirilməsidir. Burada 4 qanun qeyd olunur: şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması üçün imtiyazların verilməsi, əlilliyi olan şəxslərlə bağlı qanunun müvafiq maddələrinin icrası, Çernobıl əlilləri və yaxud da valideynlərini itirmiş uşaqlarla bağlı. Əlbəttə, bu, çox mühüm və mütərəqqi bir layihədir. Bunun dəstəklənməsi məhz bu sahədə hüquqi tənzimlənmənin, təkmilləşmənin

həyata keçirilməsinə xidmət edəcək.

Hörmətli xanım sədr, mən Mənzil Məcəlləsinin 141.2-ci maddəsi ilə bağlı bir məsələni diqqətinizə çatdırmaq istərdim. Məsələ burasındadır ki, məcəlləyə əsasən mülkiyyətçi olan, mülkiyyət hüququ olan vətəndaşlar mənzillərin, binaların idarə olunmasında iştirak edirdilər və binaların idarə olunmasında birbaşa məsuliyyət daşıyırdılar. Amma təəssüflər olsun ki, bu gün bu sahədə müəyyən çətinliklər var. Bu çətinliklər də ondan ibarətdir ki, məhz mənzillərin, binaların istismara verilməməsi səbəbindən vətəndaşlar mülkiyyət hüququ ala bilmirlər. Qanunvericilikdə bununla bağlı müəyyən boşluqlar var. Bu məsələyə diqqət ayırmaq lazımdır, çünki istismara verilməyən binalara görə məsuliyyət məsələsi tam açıq şəkildə qoyulur.

Əlbəttə, bu gün dövlətimiz Bakı şəhərinin inkişafı ilə bağlı, yeni binaların tikilməsi ilə bağlı çox böyük işlər görür. Azərbaycanda çox vicdanlı və peşəkar şirkətlər var ki, doğrudan da, vətəndaşların mənzil ehtiyaclarının qarşılanmasında, Bakı şəhərimizin gözəlləşməsində, çox müasir binaların tikilməsində nümunəvi işlər görürlər. Ancaq bununla yanaşı, elə şirkətlər də var ki, onlar, dediyim kimi, binaları tikirlər, ancaq istismara vermirlər. Bu, onillərlə davam edən bir prosesdir. Nəticədə nə olur? Nəticədə vətəndaşların mülkiyyət hüququnun reallaşması mümkün olmur. Ona mülkiyyət hüququ verilmədiyinə görə həmin mənzillərin, binaların idarə edilməsində ciddi problemlər yaşanır. Ona  görə də mən təklif edərdim ki, bizim aidiyyəti komitə bu məsələni qanunvericilik çərçivəsində araşdırsın və lazımi addımların atılması ilə bağlı müəyyən təklifləri təqdim etsin.

Digər bir məsələ. İdarə edən, yəni binanı tikib istismara

verən idarələrdə bəzən kommunal xərcləri ilə bağlı müəyyən rəqəmlər, yaxud da xərclər müəyyənləşdirilir, ödənişlər tələb olunur. Ümumi yanaşma ondan ibarətdir ki, bəzən bu xərclərin hesablanmasında şəffaflıq təmin olunmur, yaxud da müəyyən şişirtmələrə yol verilir. Mən aidiyyəti qurumlar qarşısında o məsələni sual kimi qoymaq istəyirəm ki, bu məsələ necə həll olunmalıdır? Ümumiyyətlə, vahid bir yanaşma varmı? Məsələn, şəhərin mərkəzində olan binaların kommunal xərcləri ilə ucqar yerlərdə olan kommunal xərcləri arasında müəyyən bir balans olmalıdır. Yaxud da bunun hesablanması müəyyən meyarlar ilə müəyyənləşdirilməlidir. Mənə elə gəlir ki, bu, aktual məsələlərdən biridir.

Sonuncu bir məsələni deyim. Bayaq qeyd etdiyimiz idarəetmə ilə bağlı məsələdir. Bilirsiniz ki, hörmətli həmkarlar, hələ sovet dövründən kooperativ binalar tikilirdi, sonrakı illərdə də tikildi. Amma təcrübə və reallıq ondan ibarətdir ki, bəzən vətəndaşlar hansı isə səbəbdən, – bu, təkcə istismara verilmə ilə bağlı deyil, – ümumiyyətlə, bu binaların idarə edilməsində tam şəkildə, yaxından iştirak etmirlər. Nəticədə həmin vətəndaşlar bizə – deputatlara müraciət edirlər ki, liftimiz işləmir, mənzilin müəyyən təmirə ehtiyacı var. Deyəndə ki, axı, sizin bina kooperativ binadır, özünüz bu vəsaitin toplanmasında iştirak etməlisiniz. Deyirlər, bizim bu cür vəsaiti toplamağa imkanımız olmur. Ona görə mən təklif edərdim ki, bu məsələlər araşdırılsın. Əgər doğrudan da, bu mənzillərin, binaların idarə edilməsində vətəndaş iştirak edə bilmirsə, onun idarə edilməsi ya bələdiyyələrə, ya da mənzil istismar idarələrinə verilsin. Mənə elə gəlir ki, bu, açıq olan məsələdir. Baxmayaraq ki, qanunvericilik bu məsələni tənzimləyir, amma praktikada bu çətinliklər var

və seçicilərimiz vaxtaşırı bizə bunu bildirirlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Hörmətli həmkarlar, xahiş edirəm, münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.06 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı haqqında sizə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***3 fevral 2025-ci il***

**Anar Məmmədov.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə nəqliyyat məsələlərinə həsr olunmuş müşavirə vacib əhəmiyyətə malik idi. Cənab Prezidentin müşavirədə səsləndirdiyi fikirlər ilk növbədə Azərbaycan vətəndaşlarının mövqeyini və düşüncələrini ifadə edirdi.

Son illərdə Azərbaycanın dinamik iqtisadi inkişafı fonunda bütün ölkə miqyasında həyata keçirilən irimiqyaslı abadlıq-quruculuq işləri içərisində yol-nəqliyyat infrastrukturunun yenilənməsi, xüsusi ilə diqqəti cəlb edir. Məlum olduğu kimi, son 20 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində paytaxtda və bölgələrdə yol infrastrukturunun yenilənməsi istiqamətində irimiqyaslı layihələr həyata keçirilib, dünya standartlarına cavab verən yeni yollar çəkilib, yol ötürücüləri, körpülər, yeraltı və yerüstü piyada keçidləri tikilib, Bakıda bir çox böyük layihələrə imza atılıb, yeni metro stansiyaları, yol qovşaqları istifadəyə verilib, yeni yollar salınıb. Müşavirədə bu barədə ətaflı məlumat verilib, həmçinin Bakı şəhərinin və onun ətrafında yerləşən ərazilərin nəqliyyat infrastrukturunun inkişafı məsələləri müzakirə edilib. Dövlət başçısının vurğuladığı kimi, son illər ərzində bu istiqamətdə bir çox işlərin görülməsinə, böyük infrastruktur layihələrinin icra edilməsinə baxmayaraq, yenə də Bakı şəhərində tıxac müşahidə olunur. Tıxacların sayı ildən-ilə artır. Bunun təbii səbəbləri var. Ölkəmizin, o cümlədən Bakı şəhərinin əhalisi ildən-ilə artır. Son 30 il ərzində Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıb, hətta o rəqəmi də ötüb. Əlbəttə ki, vaxtı ilə yaradılmış şəhər yol infrastrukturu, o cümlədən metro imkanları bu

artımı həzm edə bilmir. Son 20 il ərzində ölkəmizdə yol-nəqliyyat infrastrukturu sahəsində nəhəng işlər həyata keçirilib. Bu müddətdə Azərbaycanda 21 min kilometr avtomobil yolu tikilib və təmir edilib. 335 körpü və yol ötürücüsü, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib. 1500 kilometrdən çox dəmir yolu tikilib, 1800 kilometr təmir edilib, yeni qatarlar və vaqonlar alınıb, 90 kilometrdən çox olan Abşeron dairəvi xətti istifadəyə verilib. Bakı–Tbilisi–Qars dəmir yolu, 8 beynəlxalq hava limanı inşa edilib. Bu reallıq diqqətə çatdırıldı ki, əgər bu işləri görməsəydik, indi ölkəmizin nəqliyyat infrastrukturu hansı vəziyyətdə idi, bunu təsəvvür etmək çətin deyil.

Dövlət başçısı Azərbaycanın beynəlxalq nəqliyyat xəritəsində oynadığı rola da toxundu. Həqiqətən də, coğrafi mövqeyimizdən səmərəli istifadə edirik və beynəlxalq nəqliyyat dəhlizləri məhz Azərbaycanın ərazisindən keçir ki, bu da ölkəmizin regionda, ümumiyyətlə, dünyada əhəmiyyətini daha da artırır.

Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası regionda yeni reallıqlar yaradıb. Tarixi Zəfərin əldə olunması ilə regionun ümumi rifahı üçün yeni əməkdaşlıq imkanları açılıb. Bu baxımdan təkcə siyasi əlaqələrin deyil, həm də daha geniş kontekstdə iqtisadi, humanitar və mədəni münasibətlərin normallaşdırılması üçün münbit şərait yaranıb. Uzun illər işğal səbəbindən donmuş vəziyyətdə olan nəqliyyat əlaqələri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Hesab etmək olar ki, münaqişənin bitməsi və sülhün bərqərar olması region üzərindən keçən nəqliyyat dəhlizlərinin vacibliyini daha da artırıb. Hadisələrin inkişafı Zəngəzur dəhlizinin də həyati əhəmiyyət daşıdığını göstərir. Zəngəzur dəhlizi regionda yeni nəqliyyat imkanları yaradacaq. Dövlətimizin başçısı İlham

Əliyev müşavirədə "Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir. Faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır" söyləyərək onu da əlavə etdi ki, Ermənistan buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur. Zəngəzur dəhlizi təkcə Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirməyə xidmət etmir, perspektivdə o, Şərq-Qərb, Şimal-Cənub marşrutlarının da mühüm tərkib hissəsi olacaq. Bu səbəbdən dünya miqyasında Zəngəzur dəhlizinə böyük maraq var. ABŞ, Rusiya, Çin, Avropa ölkələrinin böyük əksəriyyəti, Mərkəzi Asiya dövlətləri və digərləri bu dəhlizin açılmasında maraqlı tərəf kimi çıxış edirlər.

Zəngəzur dəhlizinin işə düşməsi məqsədi ilə ölkəmiz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir və prosesi əsas etibarı ilə yekunlaşdırmaq üzrədir. Amma bu vaxta kimi Ermənistan rəhbərliyi dəhlizin açılması istiqamətində hər hansı əməli addım atmır, sözdən o tərəfə keçməyən fikirlər səsləndirir. Halbuki dəhlizin açılacağı təqdirdə ondan ən böyük fayda götürən tərəflərdən biri

Ermənistan özü olacaq. Çünki işə başladıqdan sonra bu dəhliz Ermənistanın əsas ticarət və nəqliyyat yollarından biri olmasına gətirib çıxaracaq, idxal və ixrac marşrutlarının şaxələndirilməsinə imkan verəcək. Eyni zamanda, Zəngəzur dəhlizi Ermənistanın izolyasiya vəziyyətindən xilas olmasına, onun region və ondan kənar ölkələrlə əlaqələrində yeni mərhələnin başlanmasına səbəb olacaq. Perspektivdə Zəngəzur dəhlizi Ermənistan üçün enerji təhlükəsizliyi baxımından da müstəsna əhəmiyyət kəsb edə bilər. Ermənistan bu xəbərdarlıqlardan dərs götürməlidir, əks təqdirdə mövcud reallığı nəzərə alıb dəhlizin ərazisindən açılmasına razılıq verməyəcəyi təqdirdə, bundan ən çox zərər görən Ermənistan özü olacaq.

**Elçin Mirzəbəyli.** Azərbaycan Respublikasının Prezidentinə “Azərbaycan milli mətbuatının 150 illiyi” yubiley medalının təsis edilməsi ilə bağlı qanunvericilik təşəbbüsü ilə çıxış etdiyinə görə millət vəkili və Azərbaycan Respublikasının əməkdar jurnalisti kimi dərin minnətdarlığımı bildirirəm.

150 yaşlı Azərbaycan mətbuatı şərəfli bir yol keçib, xalqımız üçün ən çətin dövrlərdə ana dilimizin saflığının, milli mədəniyyətimizin, mənəvi dəyərlərimizin, istiqlal məfkurəmizin, milli identikliyimizin qorunmasında, yeni nəsillərə çatdırılmasında, ədəbiyyatımızla, təhsilimizlə, elmimizlə yanaşı, mühüm rol oynayıb.

Ali Baş Komandanın qətiyyətli liderliyi, Azərbaycan Ordusunun əsgər və zabitlərinin rəşadəti nəticəsində ərazi bütövlüyümüzün təmin edilməsi, suverenliyimizin bərpa olunması, Konstitusiyamızın ali hüquqi dəyərlərinin işğala, separatizmə və onun hər cür antimilli, antiinsani təzahürlərinə qalib gəlməsi Azərbaycan milli mətbuatının da qoruduğu, təbliğ etdiyi dəyərlərə real məzmun verib,

müasir Azərbaycan mediasının yeni bir mərhələyə qədəm qoymasına zəmin yaradıb.

Məhz bu məqamları və 2025-ci ilin cənab Prezident tərəfindən "Konstitusiya və suverenlik ili" elan olunduğunu nəzərə alaraq yüksək diqqətinizə Azərbaycan Milli Mətbuatının 150 illiyi ilə bağlı bəzi təkidlərimi çatdırmaq istəyirəm. Qənaətimə görə, əgər uyğun bilinərsə, qarşıdakı zaman kəsiyində Milli Məclisdə "Azərbaycanda söz, fikir və mətbuat azadlığının konstitusion əsasları" mövzusunda ictimai dinləmənin keçirilməsi məqsədəuyğun olardı. Eyni dinləmə çərçivəsində, yaxud ayrılıqda, bu gün fundamental insan hüquq və azadlıqlarını, həmçinin bu azadlıqların mühüm bir parçası olan söz, fikir və media azadlığını, humanizm prinsiplərini geosiyasi iddialarının təzyiq alətinə çevirən ölkələrdə eyni hüquq və azadlıqların real vəziyyəti, yaxud bütövlükdə, qlobal media azadlığı indeksi ilə bağlı peşəkar media mənsublarının və təsisatlarının iştirakı ilə hesabatın hazırlanaraq təqdim olunması təşəbbüsünü də diqqətinizə çatdırıram.

Əminəm ki, dövlətimiz hər zaman olduğu kimi, bu yubiley ilində də Azərbaycan mediasının peşə prinsiplərinə, vətəndaşlıq qayəsinə, milli mətbuatımızın ənənələrinə, torpağına, bayrağına, dövlətinə sadiq qalan nümayəndələrinə qayğısını əsirgəməyəcək.

**Elnarə Akimova.** Bu il milli mətbuatımızın yaranmasının 150 illiyidir. Bu, həm də Zərdabi ilə qurulan vətən məfkurəsinin 150 illiyi deməkdir, çünki Mirzə Bala Məmmədzadə "İstiqlal Bəyannaməsi" barədə məqaləsində Azərbaycan istiqlalının qazanılmasında mətbuatın rolundan danışarkən bildirirdi ki, "əgər Zərdabi əlli il sonra doğulsaydı, o zaman Azərbaycanın istiqlalı da əlli il yubanardı".

Bir də Məhəmməd Hadi "Qafqaz xatirələri" əsərində

Hacı Zeynalabdin Tağıyevin belə bir fikrini verib: "Millətimin tərəqqisini iki şeyə yaxınlaşmaqda görürəm. Bunlardan birincisi, Quranın həqiqi mənasına vaqif olmaq, ikincisi də, fikir və amalımızın yayılma vasitəsi olan mətbuata yaxınlaşmaq. Buna görə də Qurani-Kərimi sağ əlimdə, mətbuatı sol əlimdə tutmağa qərar verdim".

Haqlı fikirlərdir. Mətbuatımızın yaradılması bizim milli oyanışımızın əsasında dayanan, milli düşüncəmizin istiqamətini müəyyənləşdirən hadisəyə çevrildi. 1875-ci ildə işıq üzü görən və bununla böyük fikir həyatımızda müstəsna əhəmiyyət daşıyan "Əkinçi" qəzeti Həsən bəy Zərdabinin dirəniş və müqavimət əzminin nəticəsi olaraq yaranmışdır. Xalqa xitab etməyin yolunu mətbuatın yaranmasında, maariflənməkdə görən, mövhumat zəncirini elmin açarı ilə qırmaq əzminə inamını itirməyən Həsən bəyin inadı ona gətirdi ki, bu ağır yolçuluq sonucda milli şüur, milli tərəqqi, milli düşüncə hərəkatına çevrildi. Ondan sonra "Vətən dili" kitabımız yazıldı, ondan sonra ilk anadilli dərsliklərimiz meydana qoyuldu, oxu kitablarımız ərsəyə gəldi və ən əsası, milli ideyanı rəhbər tutan, toplumu formalaşdırıb xalqa çevirən publisistikamız şüur oyaqlığına rəvac verə bildi. Bir dəfə yazılarımdan birində qeyd etmişdim ki, "Vətən dili" dərsliyindən çıxan nəsil sonradan cümhuriyyəti quranlar oldu. Amma məsələnin daha dərinlərinə nüfuz etdikdə vətən dilinin mənəvi sələfi statusunda dayanan mənbə "Əkinçi" qəzetidir. Görkəmli dilçi alimimiz Tofiq Hacıyev yazılarından birində qeyd edirdi ki, bu gün bizim hamımızın işlətdiyimiz ədəbi və publisistik dil "Əkinçi"dəki dil normasına borcludur.

Ona görə də bu yubiley medalı bütün zaman çətinlikləri içərisində mətbuatı yaratmağın cəfasına qatlananların,

istiqlala gedən yolda usanmadan əmək qoyanların, milli düşüncənin var olması istiqamətində qələm çalanların, gələcəyi quran milli münəvvərlərimizin xatirəsinə qoyulan abidədir, qədirdanlıq nümunəsidir. Mətbuat, söz vasitəsi ilə ürəklərə müqəddəs vətən eşqi aşılayanların, vətən yaradanların xatirəsinə ehtiramla yanaşmağın bundan gözəl örnəyi ola bilməz və mən məhz bu ali qədirdanlıq nümunəsinə görə dövlət başçısı, cənab Prezident İlham Əliyevə öz təşəkkürümü bildirirəm.

**Kamran Bayramov.** Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycana qarşı Qərb dövlətləri və institutlarının qərəzli münasibəti davam edir. Bu işdə Avropa Şurasının Parlament Assambleyası, Avropa Parlamenti ilə yanaşı, ABŞ-ın USAID adlanan Beynəlxalq İnkişaf Agentliyi fəallığı ilə seçilir. USAID təsis olunduğu gündən humanitar fəaliyyəti ilə deyil, ölkəsinin müxtəlif lobbi təşkilatlarının maraqlarının ifadəçisi kimi tanınıb. Dövlət Departamentinə bağlı təşkilatın aparıcı üzvlərinin bir çoxunun ABŞ kəşfiyyatının əməkdaşları olduğu da heç kimə sirr deyil. Bu təşkilatın əsl məqsədləri çoxdan ifşa olunub. Onun əsas məqsədi ayrı-ayrı dövlətlərin daxili işlərinə qarışmaq, bunun üçün özünə həmin ölkələrdə dayaq nöqtələri formalaşdırmaqdır. Bu qərəzli qurum müxtəlif QHT-lərə, media mənsublarına maliyyələr ayırmaqla onları asılı vəziyyətə gətirir, sonra isə öz maraqlarını onların vasitəsi ilə həyata keçirməyə çalışır, ölkələrin daxilindəki proseslərə bu yolla təsir göstərir.

Bizim ölkəmiz də istisna deyil. USAID dəfələrlə Azərbaycanı irqi ayrı-seçkilikdə ittiham edib, öz rəhbərinin dili ilə böhtanla dolu, humanitar fəaliyyətin ruhuna zidd olan bəyanatlar səsləndirib, hazırda məhkəməsi gedən müharibə cinayətkarlarının azadlığa buraxılması və Ermənistanın

hərbiləşdirilməsi barədə çağırışlar edib. Bu təşkilat ABŞ–Azərbaycan münasibətlərinə ciddi zərər vurmaqla yanaşı, regionumuzda gərginlik yaratmağa çalışıb.

Rəsmi Bakı isə dəfələrcə ermənipərəst təşkilatın anti-Azərbaycan mövqeyini, səsləndirdiyi bəyanatları sərt tənqid edib, ABŞ rəhbərliyinə bununla bağlı öz mesaj-larını çatdırıb. Heç də təsadüfi deyil ki, ötən ilin oktyabrında Milli Məclisin bir qrup deputatı da xarici işlər naziri Ceyhun Bayramova müraciət edərək USAID-in ölkəmizdəki fəaliyyətinə son qoyulmasını xahiş etmişdir.

Dünən isə maskalar yırtıldı, ədalət də öz yerini tapdı. ABŞ-ın Hökumətin Effektivliyi Departamentinin rəhbəri USAID-i kəskin tənqid edərək onu "ölməli cinayətkar təşkilat" adlandırıb, Amerikaya nifrət edən radikal solçu marksistlərin yuvası kimi təsvir edib. Onun nəticəsidir ki, təşkilatın rəsmi internet və sosial media səhifələri bağlanıb, bir çox işçiləri işdən kənarlaşdırılıb.

Düşünürəm ki, bu qurumun son illərdəki fəaliyyətinin yoxlanılması hələ çox qaranlıq məqamlara aydınlıq gətirəcək, bir çox cinayətlərin üstünü açacaqdır.

**Malik Həsənov.** Əminəm ki, bu sessiya dövründə də ölkəmizin tərəqqisinə yeni güc verə biləcək qanunvericilik sənədlərinin qəbul edilməsinə nail olacağıq. Milli Məclis ötən sessiya dövründə həm qanunvericilik sahəsində, həm vətəndaş qəbulu və müraciətlərinə baxılması, həm də təmsilçilik və beynəlxalq münasibətlərin inkişafı sahələ-rində olduqca məhsuldar fəaliyyət göstərmişdir.

Son illərdə Azərbaycanın dinamik iqtisadi inkişafı fonunda bütün ölkədə həyata keçirilən irimiqyaslı abadlıq-quruculuq işləri içərisində yol-nəqliyyat infrastrukturunun yenilənməsi xüsusi ilə diqqət cəlb edir. Bu gün Azərbay-canda nəqliyyat infrastrukturu sürətlə inkişaf edir.

İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat layihələri sürətlə və yüksək keyfiyyətlə icra edilir. Son 20 il ərzində Azərbaycanda 8 beynəlxalq hava limanı inşa edilib. Heydər Əliyev Beynəlxalq Hava Limanında yeni terminal kompleksinin inşa edilməsi nəzərdə tutulur. Bakı şəhəri və onun ətrafında yerləşən ərazilərdə nəqliyyat infrastrukturunu inkişaf etdirmək üçün yeni dövlət proqramı qəbul ediləcək. Dövlət proqramında yeni 10 metro stansiyasının tikintisi nəzərdə tutulur. Buradan görünür ki, biz Azərbaycanımızı əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevirmişik.

Cənab Prezident İlham Əliyev sədrlik etdiyi ilə nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdi: "Həm beynəlxalq müstəvidə, həm Ermənistanla ikitərəfli təmaslar əsnasında biz daim bir məsələni qeyd edirik ki, Azərbaycandan Azərbaycana maneəsiz keçid olmalıdır. Heç bir yoxlamadan keçmədən, heç bir maneə ilə üzləşmədən Azərbaycandan Azərbaycana rahat və azad keçid olmalıdır. Bu bizim tələbimizdir. Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq".

Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Sözsüz, burada itirən Ermənistandır. Amma gec-tez Zəngəzur dəhlizi ilə bağlı Paşinyan iqtidarı addım atmağa məcbur olacaq.

Bizə təqdim olunmuş 2025-cü ilin yaz sessiyasının qanunvericilik işləri planı ilə tanış olduqda aydın olur ki, bu sessiya dövründə də parlamentimizin fəaliyyəti kifayət qədər məhsuldar ola bilər. Qanunvericilik işləri planından da göründüyü kimi, sessiya dövründə qanunvericilik təşəbbüsünün subyektlərindən daxil olan yeni qanun

layihələri, xüsusən Dövlət qulluğu məcəlləsi və Hərbi qulluqçuların statusu haqqında qanun layihələrinin yer alması nəzərdə tutulmuşdur. Müzakirəsi gözlənilən, daha çox ictimai tələb kimi meydana çıxan əsas qanun layihələrindən biri Ali təhsil haqqında qanun layihəsidir. Bu qanun layihəsi uzun müddətdir ki, müzakirə olunur və parlamentdə bir neçə dəfə ictimai dinləmələr təşkil edilmişdir. Hesab edirəm ki, artıq bu sessiya ərzində bu qanun layihəsi plenar iclasın müzakirəsinə təqdim olunar. Həqiqətən də, ali təhsil sistemində çoxsaylı münasibətlərin tənzimlənməsi günün tələbidir.

**Mircəlil Qasımlı.** *(çıxışının davamı.)* Ülfət Kərimovun məzarı belə yoxdur. 90-dan yuxarı yaşı olan anası Fatma xanım bizlərə əmanətdir və düşünürəm ki, onun övladının qəhrəmanlığı dövlət səviyyəsində qiymətləndiriləcək. 23 fevral Ülfət Kərimovun dünyaya göz açdığı gündür. Bu adın təltif olunması kəlbəcərliləri sevindirəcək, qəhrəmanımızın ruhunu bir daha şad edəcəkdir.

Fürsətdən istifadə edib dünənki Gənclər Günü münasibəti ilə üzvü olduğum Gənclər və idman komitəsi başda olmaqla bütün gəncləri təbrik edirəm. Bildirmək istəyirəm ki, bizim kimi gənclər hər zaman Ulu Öndərimiz Heydər Əliyevin bizə miras qoyduğu siyasi xətti dəstəkləyəcək, cənab Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafı naminə əlimizdən gələni sədaqətlə əsirgəməyəcəyik.

**Sahib Alıyev.** Bizim bir çoxumuza burada dövlətin ən ali medalı Ulu Öndər Heydər Əliyevin anadan olmasının, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin və Parlamentinin 100 illikləri ilə bağlı yubiley medallarının təsdiqlənmələrinə səs vermək şərəfi nəsib olub. Birinci və üçüncü respublika dönəmlərində yaradılmış qurumların yubiley-

ləri ilə bağlı təsis edilən medallar da var ki, indiki onlardan xeyli fərqlənir. Çünki əgər həmin medallar Azərbaycan adının siyasi terminə çevrilməsininin nəticəsi olaraq meydana çıxıblarsa, Azərbaycanın coğrafi termindən siyasi terminə çevrilməsi ilk növbədə 150 illiyini, həm də təsisi nəzərdə tutulan bu medalla qeyd edəcəyimiz mətbuatımızın, onun bünövrəsini qoyan Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, İsmayıl Qaspıralı, Ünsüzadə qardaşları, Məhəmməd ağa Şahtaxtinski kimi aydınlarımızın xidmətidir. Yəni əgər Qərbdə sənayeləşmə deyiləndə məhz qəzetlər, daha dəqiqi, mətbəəsində buxar maşınının ilk tətbiqinə başlayan “Times” xatırlanırsa, bir daha vurğulayıram, Azərbaycan adının coğrafi termindən siyasi terminə çevrilməsində ən böyük rolu milli mətbuatımız oynayıb. Allah ruhunu şad etsin, özəlliklə də Həsən Bəy Zərdabinin bu yöndəki fəaliyyəti bir növ şəhid fədakarlığına bənzəyir.

Onu da bu yüksək kürsüdən xatırlatmağa ehtiyac duyuram ki, Məmməd Əmin Rəsulzadə başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları və ilk parlamentimizin üzvlərinin az qala yarısı mətbuata bağlı, mühərrirlik təcrübəsi olan adamlar idi. Onlardan Əlimərdan bəy Topçubaşovun, Əhməd bəy Ağaoğlunun, Nəsib bəy Yusifbəylinin, Ceyhun Hacıbəylinin, Məmmədsadıq Axundzadənin, Yusif Vəzir Çəmənzəminlinin, Əbdürrəhim bəy Haqverdiyevin, Əhməd bəy Pepinovun, Şəfi bəy Rüstəmbəylinin, Əkbər Ağa Şeyxülislamovun və digərlərinin adlarını çəkə bilərəm. Bu adları həm də ona görə çəkirəm ki, fikrimcə, mətbuatımızın 150 illik yubileyi ilində onların müxtəlif nəşrlərdə dərc etdirdikləri önəmli məqalələrin hamısının bir yerdə, ayrıca kitab şəklində nəşrinə ehtiyac var. Bununla biz həm sələfləri-

mizin xatirəsinə dərin ehtiramımızı ifadə etmiş olarıq, həm də nəzərə almalıyıq ki, onların o zaman toxunduqları bir sıra mövzular bu gün də öz aktuallığını qorumaqdadır.

Mətbuatımız qarşısında xidmətdən danışmışkən, Azərbaycanda senzuranı ləğv edən Ulu Öndərin, eləcə də cənab İlham Əliyevin bu yöndəki fəaliyyətlərinin nəticəsidir ki, jurnalistikamız qlobal müstəvidə heç vaxt indiki qədər rəqabətədavamlı olmayıb. Burada söhbət maddi-texniki bazadan daha çox jurnalistlərimizin peşə hazırlıqlarından, müxtəlif dillərdə öz fikirlərini ustalıqla ifadə etmək bacarıqlarından gedir ki, bu da birbaşa böyük Heydər Əliyevlə cənab İlham Əliyevin mediaya göstərdikləri diqqət və qayğının, eyni zamanda, Prezidentimizin insan kapitalının gücləndirilməsi yönündə atdığı addımların nəticəsidir.

Bunun nə demək olduğunu COP29 keçirildiyi vaxt, özəlliklə Azərbaycan Dövlət Televiziyası əməkdaşlarının müxtəlif dillərdə peşəkarcasına verdikləri suallarda, onların və İctimai Televiziyadakı həmkarlarının 44 günlük savaş zamanı və Qarabağ üzərində suverenliyimizin tam təmini ərəfəsindəki fəaliyyətlərində gördük. Mən çağdaş mediamızın fəaliyyətindən bu örnəkləri ona görə xatırladıram ki, bunu qətiyyən haqq etmədikləri halda, sorosçu və nurçu texnologiya vasitəsi ilə cəmiyyətə çağdaş Azərbaycan mediasının guya mənəvi ataları kimi sırınan bəziləri, baxıram, dövlətimizin mətbuata qayğısının təmənnalı xarakter daşıdığından, düzgün olmadığından dəm vururlar. Elələri özlərinə verilən bu təlimatı onunla əsaslandırmağa çalışırlar ki, guya medianın əsas vəzifəsi hakimiyyəti və dövləti tənqid etməkdir. Əslində isə medianın vəzifəsi həqiqəti çatdırmaq, milli maraqların keşiyində durmaqdır ki, burada tənqid yaradıcılıq

metodlarından sadəcə biridir.

Bir sözlə, əgər mətbuatımızın təşəkkül tapdığı ilk illərdə onun əsas hədəfi Azərbaycan adının coğrafi termindən siyasi terminə çevrilməsi idisə, bu gün qarşısında duran vəzifə, fikrimcə, siyasi millətçiliyin, vətəndaş millətçiliyinin daha da gücləndirilməsində, milli hədəflərimizə çatmaqda, müxtəlif ideoloji təhlükənin qarşısının alınmasında öz üzərinə düşən missiyanı ləyaqətlə yerinə yetirməkdir.

**Sevil Mikayılova.** Bu il olkəmizin ictimai-siyasi həyatında əlamətdar yubiley tarixi qeyd olunacaq. Əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş milli mətbuatımızın, doğma mətbuatımızın bu il 150 illiyini iftixar hissi ilə qeyd edəcəyik. Azərbaycan mətbuatının inkişafına xüsusi diqqət ayrılır. Azərbaycan jurnalistlərini daim diqqət və qayğı ilə əhatə edən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Milli Mətbuatın 150 illiyi ilə əlaqədar yubiley medalının təsis edilməsi ölkəmizdə jurnalist fəaliyyətinə verilən dəyərin göstəricisidir. Bu medal cəmiyyətin inkişafında və vətəndaşların obyektiv məlumatlandırılmasında mühüm rol oynayan jurnalistlərin fədakar fəaliyyətinə verilən yüksək qiymətin simvoludur. Bəhs etdiyim təşəbbüs medianın tariximizdə və müasir dövrdə tutduğu mövqeyə göstərilən dərin hörmətin bariz nümunəsidir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1993-cü ildə hakimiyyətə gəlmiş Ulu Öndər Heydər Əliyev Azərbaycan mediasının inkişafı üçün mühüm qərarlar qəbul etdi. Amma onun ən böyük xidməti jurnalistlərə olan səmimi münasibəti və etimadı idi. Hər zaman hadisələrə münasibətdə vicdanlı mövqeyi, şəffaf fəaliyyəti, ən əsası, dövlət və xalqın maraqlarını hər şeydən üstün tutan

media təmsilçiləri məhz bu münasibətin nəticəsində bu gün uğurla öz fəaliyyətlərini davam etdirirlər.

Media cəmiyyətin aynasıdır, ictimai rəyin formalaşmasında, demokratik dəyərlərin möhkəmləndirilməsində və informasiyanın azad dövriyyəsinin təmin edilməsində mühüm vasitədir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə göstərdiyi daimi diqqət və qayğı nəticəsində Azərbaycanda müasir, dinamik inkişaf edən media mühiti formalaşıb. Təsadüfi deyil ki, bu gün Azərbaycan jurnalistləri cəmiyyətimizdə böyük rəğbətə malikdirlər. Onlara böyük etimad var. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev hər zaman media təmsilçilərini özünün dostu adlandırmaqla onların şəffaf fəaliyyətinə böyük dəyər verib.

Böyük Zəfərimizlə nəticələnən 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. 30 il mətbuat sahəsində çalışmış media təmsilçisi kimi qürurla bildirmək istəyirəm ki, biz artıq neçə ildir, öz peşə bayramımızı hər bir azərbaycanlının qəlbində xüsusi yeri olan Şuşa şəhərində təntənəli şəkildə qeyd edirik. Hər zaman məzmunlu çıxışları ilə tədbirləri tarixə çevirən və jurnalistlərə səmimi münasibətini sərgiləyən cənab Prezident, düşünürəm ki, jurnalistlərin də ona qarşı olan rəğbətini məhz burada, səmimi ortamda hiss edir.

Xüsusi qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyevin 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə Medianın İnkişafı Agentliyi yaradılmışdır. Medianın İnkişafı Agentliyi medianın kompleks şəkildə yenidən qurulması və müasir çağırışlara uyğun inkişafı üçün yeni bir mərhələnin başlanğıcı oldu. Agentlik müstəqil KİV-lərin dəstəklənməsi, onların peşəkar davamlılığının təmin

edilməsi və rəqəmsal dövrün tələblərinə uyğunlaşması üçün sistemli yanaşma ortaya qoyur.

Bu gün Milli Məclisin deputatı və eyni zamanda, Medianın İnkişafı Agentliyinin İdarə Heyətinin üzvü kimi çıxış edərək ölkəmizin demokratik inkişafı üçün vacib əhəmiyyət kəsb edən Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı və onların səmərəli fəaliyyəti üçün yaradılan bütün zəruri şəraitə görə təşəkkürümüzü ifadə edirik. Azərbaycan jurnalistləri daim dövlətçilik maraqlarını üstün tutaraq bundan sonra da zəngin və ənənələrlə dolu olan mətbuatımızın keşiyində dayanacaqlar.

# MÜNDƏRİCAT

3 fevral 2025-ci il.................................................................. 3
Edilməmiş çıxışların mətnləri............................................. 109

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

İkinci sessiya
Yaz

20-ci cild

3 fevral 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 6,0. Sifariş 14. Tiraj 150.